# AİLƏ SƏADƏTİ



KERİM UÇAR




# AİLƏ SƏADƏTİ

KERİM UÇAR

**Tbilisi 2022**

***"Ailə səadəti" kitabı***

**Müəllif:**
Kerim Uçar

**Türkcədən çevirən:**
Elnarə Cəfər

**Redaktə etdi:**
Akif Xansultanlı

**Kompüter tərtibatı:**
Elvin Bayramov

***© Alulbeyt Mərkəzi***
***© Gürcüstan Müsəlmanları İdarəsi 2022***

# İÇİNDƏKİLƏR

ÖN SÖZ ........ 5

AİLƏDƏ MÜŞTƏRƏK HAQLAR ........ 7

QURANDA AİLƏ ........ 7

GEYİMİN XÜSUSİYYƏTLƏRİ ........ 9

ƏR-ARVAD ARASINDAKI SEVGİNİN ŞƏRTLƏRİ ........ 11

XOŞBƏXT KİŞİNİN ƏLAMƏTLƏRİ ........ 12

İFFƏT VƏ HİCAB ........ 15

AİLƏDƏ İFFƏT ........ 17

AİLƏDƏ OLMAMASI GƏRƏKƏN SİFƏTLƏR ........ 23

AİLƏDAXİLİ ŞİDDƏT ........ 36

AİLƏDAXİLİ ZORAKILIĞIN SƏBƏBLƏRİ ........ 38

ANLAYIŞI TƏŞKİL EDƏN ÜNSÜRLƏR: ........ 41

PEYĞƏMBƏRİN TƏRİFİNİ QAZANAN QADININ SİFƏTLƏRİ ........ 44

PEYĞƏMBƏRİMİZ (S) BELƏ BUYURDU: ........ 44

HİCAB ........ 48

QURANDA HİCAB ƏMRİ ........ 49

PEYĞƏMBƏRİN PİS ÖRTÜNMƏYƏ MÜNASİBƏTİ ........ 51

ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR ........ 55

TƏHSİLDƏKİ SƏHVLƏR ........ 63

PEYĞƏMBƏRİN ÇİRKİN ADLARA MÜNASİBƏTİ ........ 65

SÖYÜŞ SÖYMƏK ........ 70

YAXŞILIĞI BAŞA QAXMAQ ........ 71

ƏDALƏTSİZLİK VƏ AYRI-SEÇKİLİK ........ 72

MƏCBURİYYƏT VƏ İKRAH ........ 76

TƏHSİLDƏ DÜZGÜN METODLAR ........ 77

UŞAQLARA ŞƏXSİYYƏT KİMİ DƏYƏR VERMƏK ........ 80

UŞAQLARINIZA DƏYƏR VƏ ŞƏXSİYYƏT VERİN. ........ 81

AİLƏ ƏLAQƏLƏRİNİ MÖHKƏMLƏNDİRƏN AMİLLƏR ........ 85

İSLAMDA İCTİMAİ ƏLAQƏNİN ƏHƏMİYYƏTİ ........ 113

ƏXLAQLI OLMAĞIN YOLU ........ 116

GÖZLƏNTİ VƏ MÜDAXİLƏ ........ 118

SEVGI VƏ XƏYANƏT ........ 122

QADIN KİŞİ DOSTLUĞU CAİZDİRMİ? ........ 126

PEYĞƏMBƏRİMİZİN (S) SÜNNƏTİNDƏ
QADIN VƏ KİŞİ DİALOQU ........ 131

QADIN KİŞİ DİALOQUNDA QADAĞAN HÖKMLƏRİ ........ 133

# ÖN SÖZ

Həmd, Allaha məxsusdur. Onu tərifləyənlər layiqincə tərifləyə bilməz, saymaq istəyənlər Onun nemətlərini sayıb qurtarmaz, çalışıb, cəhd edənlər Onun haqqını yerinə yetirə bilməzlər. Salam və salavat aləmlərə və ümmətə nemət olaraq göndərilən uca Peyğəmbərimiz Məhəmməd ibn Abdullaha və Onun haqq varisi Həzrət Əli ibn Əbu Talibə (ə), on bir həqiqi imam və onların sonuncusu, dünyanın xilaskarı Qaim Məhəmməd İmam Məhdiyə (ə.f) olsun!

Ailə kiçik bir dövlətdir. Dövlət üzərindən düşünsək, oradakı hər bir nazir, müdir, məmur öz vəzifəsini tam şəkildə yerinə yetirməlidir. Ailə öz fərdləri ilə birlikdə böyük bir bədəndir. Bu böyük bədəndə əzalardan biri narahat və xəstə olarsa, digər üzvlər də bundan təsirlənər. Necə ki, dişlərdən biri ağrıyarsa, göz də yatmaz.

Ailə fərdləri də belədir; ata-ana, bacı-qardaşlar həmin bədənin əzalarıdır. Bir ailə üzvü xəstələndikdə, bütün ailə üzvləri təsirlənər. Əgər ailədə kimsə spirtli içki aludəçisi, alkoqol bağımlısı olarsa, digər üzvlər: "Bu, mənim işim deyil, mənim problemim deyil!" - deyə bilməz. Gəminin sərnişinləri kimi ailə üzvləri də bir-birini təqib etməli və qorumalıdır.

Valideynlər ailə problemi olanda: - “Bu bizim problemimizdir, uşaqlara aid deyil!” - demək haqqına sahib deyillər. Məhz buna görə də müqəddəs dinimiz evliliyə böyük əhəmiyyət vermiş, ailənin xoşbəxtliyi və əmin-amanlığı üçün lazım olan bütün düsturları (qaydaları) vermişdir. Allah Rəsulu (s) buyurur:

"İslam dinində heç bir bina Allah yanında evlilik binası kimi ən sevimli şəkildə inşa edilməmişdir"[1]

Başqa bir hədisdə Peyğəmbərimiz (s) buyurur: “Evlənən dininin yarısını qorumuş olur”[2]

Bu sünnə təkcə savab qazanmaq üçün deyil. Eyni zamanda insanların rahatlıq tapması üçün lazımlıdır. Quranda bu məsələ ilə

---

[1] *Mən lə yəhzəruhul fəqih, c.3, s.383*

[2] *Usuli- Kafi, c.5, s.328; Mən lə yəhzəruhul fəqih, c.3, s.383; Vəsailuş-Şiə, c.20, s.16*

bağlı belə buyurulur:

**“Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.”**[3]

Başqa bir ayədə isə ər-arvadın evlilikdə bir-birlərinə olan mövqeləri libasa bənzədilir:

**“Onlar sizin libasınız, siz də onların libasısınız”** [4]

Cəmiyyət müqəddəs dinin, bu müqəddəs təsisatı ilə formalaşır. Amma çox təəssüf ki, bu müqəddəs qurum gecə-gündüz seriallar, filmlər, qəzetlər və virtual aləm tərəfindən bombardman edilir.

Belə bir dövrdə cəmiyyətin alimlərinin, qələm sahiblərinin, siyasətçilərin üzərinə böyük vəzifələr düşür. Ailənin səmimiyyətini və hərarətini möhkəmləndirmək üçün hər kəs əlindən gələni etməli, çətinliklərə dözməlidir. Çünki gözəl gələcək, xoşbəxt ailə, əxlaqlı gənclik, dinc cəmiyyətə sahib olmağın yeganə yolu ailənin müqəddəsliyini qorumaqdır. Oxuyacağınız bu əsərdə ailə üzvləri arasında müştərək hüquqlar, ailədə bəyənilməyən sifətlər, ailədə iffət, ailədaxili şiddət, uşaq tərbiyəsindəki səhvlər, ailədə səmimiyyətin möhkəmləndirilməsinin yolları kimi mühüm məsələlər yer alır.

Əziz oxucular!

*Bu əsər hörmətli Höccətül-İslam vəl-Müslimin Ustad Rəfiinin mühazirələrindən istifadə edilərək (* ***Sadiktv.com, Youtube kanalımız və Hadi TV’də verlişindəki söhbətlərimdən sonra) işlənib kitab*** *halına gətirilmişdir.*

---

[3] *Bəqərə,187*
*4 Bəqərə surəsi, ayə 187*

# AİLƏDƏ MÜŞTƏRƏK HAQLAR

Cəmiyyətin ən kiçik, lakin ən mühüm qurumu ailədir. Ailə ata-ana və uşaqlardan ibarət olan, cəmiyyət üçün fərdlər yetişdirən bir qurumdur.

Qərb yazıçılarından Abram Kardiner belə deyir: "Heç bir qurum və ya təşkilat ailəni əvəz edə bilməz. Nə uşaq bağçaları, nə məktəblər, nə universitetlər, nə də cəmiyyəti təşkil edən digər qurumlar". Ailə institutu sevgi və məhəbbət üzərində qurulubsa, cəmiyyətə sağlam və sevgi dolu fərdlər bəxş edər. Amma yalan və inamsızlıq üzərində qurularsa, faydasız insanlar yetişdirəcək. Ona görə də ata-ana və uşaqlardan ibarət olan ailə çox önəmlidir. Ata və ana həmişə bir-birlərinə borcludurlar. Hər ikisi bir-birinin haqq və hüquqlarını xatırlamalı və onlara əməl etməlidirlər.

# QURANDA AİLƏ

Aşağıdakı üç ayədə uca Allahın Quranda ailə məsələsinə böyük əhəmiyyət verdiyini açıq şəkildə görürük:

﴿وَمِنْ آياته اَنْ خَلَقَ لَكُمْ مِنْ اَنْفُسِكُمْ اَزْوَاجاً﴾

1- **“Sizin üçün öz cinsinizdən zövcələr yaratması da Onun dəlillərindəndir”**.5

Allahın ər-arvadı yaratmaqda məqsədi fərdlərin "onlarda rahatlıq tapması"dır. Yəni ailə qurumu sülh və əmin-amanlığın mənbəyi, dərd və problemlərin həll olunduğu yerdir. Ayənin qalan hissəsi Allahın vədini bəyan edir. Ailəni qurduğunuz zaman aranıza sevgi və mərhəmət qoyulacaq. Beləliklə, bu evliliklə dost, yoldaş və qohum olacaqsınız.

---

*5 Rum, 21*

Mərhum Əllamə Təbatəbai “sevgi” və “rəhmət” məfhumlarının fərqi haqqında belə deyir:

"Məvəddət və sevgi ürəkdəndir. Yəni insan kimisə sevir amma onu ifadə etmir. Rəhmət və mərhəmət isə əməldə olur; insan sevgisini dilə gətirir, hədiyyələr verir və s. ilə onu ifadə edir."

### Həyat yoldaşına sevdiyini söyləmək

Peyğəmbərimiz (s) buyurur:

قَوْلُ الرَّجُلِ لِلْمَرْأَةِ إِنِّي أُحِبُّكِ لَا يَذْهَبُ مِنْ قَلْبِهَا أَبَداً

“Kişinin öz yoldaşına mən səni sevirəm deməsi, qadının qəlbindən heç vaxt çıxmaz”.[6]

İmamlarımız (ə) daim öz sevgilərini bildirərmişlər. İmam Hüseyn (ə) belə buyurur: “Mən həyat yoldaşım Rübabın olduğu evi sevirəm”.[7]

Həzrət Peyğəmbər (s), imam Əli (ə), həzrət Fatimə (s.ə) öz sevgi, məhəbbətlərini həm sözdə, həm də əməldə göstərmişdilər.

﴿ هُنَّ لِبَاسٌ لَكُمْ وَأَنْتُمْ لِبَاسٌ لَهُنَّ ﴾

**2- “Onlar sizin libasınız, siz də onların libasısınız”.** [8]

Qeyri-müsəlman yazarlarından biri bu ayə haqqında belə deyir: “Həyat yoldaşına bundan gözəl və mənalı deyiləcək bir söz yoxdur”.

---

*6 Usuli-Kafi, c.5, s.569; Vəsailüş-şiə, c.20, s.23*
*7 Biharul - Ənvar, c.45, s.47*
*8 Bəqərə,187*

## Geyimin xüsusiyyətləri

Bu ayədə həyat yoldaşlarının bir-birinə nisbətdə libasa bənzədilməsində çox incə məsələlər var ki, onlardan bəziləri aşağıdakılardır;

a) Geyim seçərkən onun modeli, növü və rəngi şəxsə uyğun seçilir. Həyat yoldaşı seçimində də, onun düşüncəsinə, əqidəsinə, şəxsiyyətinə görə seçim edilməlidir.

b) Geyim insanın bəzəyidir və zövqə uyğun seçilir. İnsanın həyat yoldaşı və ondan dünyaya gələcək övladı da insanın və ailəsinin zinəti və əmin-amanlıq vasitəsi olmalıdır.

c) Geyim, insanın eyiblərini örtür, evlənəcək cütlüklər də daima bir-birlərinin eyiblərini örtməlidirlər.

d) Geyim insanları soyuq və isti təhlükəsindən qoruyur. Həyat yoldaşı da belədir: ailəni bəlalardan qoruyar, yaxşı həyat yoldaşı ailə mühitini hərarətli tutar və hər cür mənfiliklərdən saxlayar.

e) Geyim insanın iffətidir, paltardan uzaqlaşmaq, başqa sözlə desək, paltarı çıxarıb çılpaqlığa üz tutmaq insanı alçaldır. Evliliyi tərk etmək də insanın mənəvi cəhətdən çökməsinə, azğınlığa düşməsinə və sonda rüsvay olmasına səbəb olar.

f) Soyuq havada qalın paltara, isti havada isə nazik paltara üstünlük verilir, yəni, mövsüm şəraitinə uyğun paltar geyinilir. Həyat yoldaşları da öz əxlaq və davranışlarını həyat yoldaşının hazırkı əhval-ruhiyyəsinə uyğun tənzimləməlidirlər. Ər qəzəblidirsə, arvad onu mülayim, münasib və gözəl sözlərlə qarşılamalıdır, arvad yorğun olarsa, ər onun vəziyyətini başa düşməli, gözəl davranmalıdır.

g) İnsanlar paltarlarını çirkdən və napaklıqdan qoruyar, ər-arvad da bir-birini günaha düçar olmaqdan qorumalıdırlar.

Deməli, ər-arvad bir-biri ilə insani şərtlərə uyğun davranmalıdır. Yəni paltar kimi mövsümə uyğun dəyişgən olmalıdırlar. Bir-birinin xasiyyət və əxlaqını nəzərdən qaçırmamalıdırlar. Xanım xəstə olanda kişi öz hisslərini ortaya qoymalı, sevgi və məhəbbət göstərməlidir. Digər tərəfdən, kişi işdən gələndə arvadı onu sevgi və məhəbbətlə qarşılamalıdır.

﴿ رَبَّنَا هَبْ لَنَا مِنْ اَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ اَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ اِمَاماً ﴾

3- Onlar: **"Ey Rəbbimiz! Bizə gözümüzü aydınladan zövcələr və nəsillər bəxş et və bizi müttəqilərə rəhbər et!"** – deyərlər.[9]

Quranın ailəyə xüsusi lütfü vardır:

﴿وَكَانَ يَأْمُرُ اَهْلَهُ بِالصَّلٰوةِ﴾

**"Ailəsinə namazı əmr edərdi".**[10]

Həzrət İbrahim (ə) gənc həyat yoldaşını və körpəsini Məkkədə qoyub getdikdə belə dua etdi:

﴿رَبَّنَا اِنِّي اَسْكَنْتُ مِنْ ذُرِّيَّتِي بِوَادٍ غَيْرِ ذِي زَرْعٍ عِنْدَ بَيْتِكَ الْمُحَرَّمِ رَبَّنَا لِيُقِيمُوا الصَّلٰوةَ﴾

**"Ey Rəbbimiz! Həqiqətən, mən nəslimdən bəzilərini Sənin müqəddəs evinin yanında, əkin bitməyən bir vadidə məskunlaşdırdım. Ey Rəbbimiz! Namazı qılsınlar deyə (bunu etdim).**[11]

Loğman ailəsinə belə dedi:

﴿يَا بُنَيَّ اَقِمِ الصَّلٰوةَ﴾

**"Ey oğlum, namaz qıl"**[12]

---

*9 Furqan,74*
*10 Məryəm,55*
*11 İbrahim, 37*
*12 Loğman,17*

"Təhrim" surəsində möminlərə xitab edilərək buyurulur:

﴿يَٓا اَيُّهَا الَّذ۪ينَ اٰمَنُوا قُٓوا اَنْفُسَكُمْ وَاَهْل۪يكُمْ نَاراً وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ﴾

**"Ey iman gətirənlər! Özünüzü və ailələrinizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!"** [13]

Bu gün ailə və ailə quruluşuna əhəmiyyət verməyən, ailə nizamından məhrum olanlar tək yaşamağa və ömürlərini müxtəlif heyvanlarla birlikdə keçirərək bu tənhalığın yerini doldurmağa çalışırlar.

## ƏR-ARVAD ARASINDAKI SEVGİNİN ŞƏRTLƏRİ

Quran, hədislər, əxlaq alimləri və ailə məsələləri üzrə ixtisaslaşmış mütəxəssislər ailə nizamında ər-arvadın sevgi və məhəbbətlərini qoruyub saxlamaq üçün, diqqət etməli olduqları bəzi şərtləri belə təsnif etmişlər:

### 1. Qarşılıqlı hörmət

Ər-arvad arasında müştərək vəzifələrdən birincisi qarşılıqlı hörmətdir. Yəni ər-arvad bir-birlərinə hörmət etməli, anlamağa çalışmalı, bunun üçün səy göstərməlidirlər.

İmam Sadiq (ə) buyurur:

مَنِ اتَّخَذَ إِمْرَأَةً فَلْيُكْرِمْها

"Evlənən şəxs, həyat yoldaşına hörmət etsin".[14]

Peyğəmbərimiz (s) qadınların ən pisini belə təsvir edir: "Qadınların ən pisi inadkar, ərinə hörmət etməyən, ərinin əmrinə tabe olmayan,

---

*13 Təhrim,6*
*14 Vəsailüş-şiə, c.5, s.61; Biharul-ənvar, c.73, s.85*

başqalarına qarşı mehriban və xoş əxlaqlı olub əri ilə pis rəftar edəndir".[15]

## Xoşbəxt kişinin əlamətləri

Əməlisaleh və möminə həyat yoldaşı hər bir kişinin səadət və izzətidir.

Allahın Rəsulu (s) buyurur: "Xoşbəxt kişinin həyat yoldaşında bu üç sifət olar:

وَإِذا نَظَرَ إِلَيْهَا سَرَّتْهُ، إِذا أَمَرَهَا أَطَاعَتْهُ، اذا غَابَ عَنْهَا حَفِظَتْ

1. Baxdıqda hüzurlu və xoşbəxt olar.
2. Əmr verəndə itaət edər.
3. Əri evdə olmayanda iffətini və şəxsiyyətini qoruyar".[16]

## Qadınların ən üstün sifətləri - kişilərin ən pis sifətləridir!

Bəzi sifətlər var ki, kişilər üçün pis, qadınlar üçün isə gözəl sayılır. Qorxu, təkəbbür və xəsislik kişi üçün çirkin, qadınlar üçün gözəl və bəyənilmiş sifətlərdəndir. İmam Əli (ə) buyurur:

"Qadının ən yaxşı sifətləri kişilərin ən pis sifətləridir. (Məsələn:) Təkəbbür, qorxu və xəsislik. Qadın təkəbbürlü olsa, ərindən başqa heç kimə təslim olmaz..."

Başqa kişilərlə danışdıqda naz-qəmzə ilə danışmaz, danışığına və səs tonuna fikir verər. Quran Peyğəmbərin (s) zövcələrinə belə müraciət edir:

يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِنَ النِّسَاءِ ۚ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ

**"Ey Peyğəmbər zövcələri! Siz başqa qadınlar kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, (yad kişilərlə) ədalı danışmayın, yoxsa**

---

*15 Usuli-kafi, c.5, s.326; Vəsailüş-şiə, c.20, s.34*
*16 Usuli-kafi, c.5, s.337; Vəsailüş-şiə ə, c.20, s.39*

**qəlbində xəstəlik olan bir kimsə (sizə qarşı) ümid bəsləyər".17**

"Qadın nə qədər simic olarsa, özünün və ərinin malını qoruyar. Qorxaq olarsa, ona tərəf üz çevirən hər şeydən uzaq olar"..[18]

"Qadın qorxaq olarsa, naməhrəm kişilərlə danışmaz, qarşısına çıxan naməhrəmlə səmimi olmaz, özünü fitnə-fəsad və bataqlığa atmaz".

Həyat yoldaşları arasında hörmət nikahın əsas sütunlarından biridir. Hər iki tərəf bu xüsusiyyətə diqqət yetirməlidir. Peyğəmbərimiz (s) buyurur:

"Əgər ər arvadına haqsız yerə şillə vurarsa, Allah qiyamət günü əzab mələyinə əmr edər ki, ona 70 cəhənnəm şilləsi vursun".[19]

Bir gün Kufədə bir qadın qorxu içində İmam Əlinin hüzuruna gəlib deyir: "Ya Əli! Məni xilas et, ərim məni küçəyə atdı, məni döymək istəyir".

İmam Əli qadına: -"Evin hardadır? gəl, bərabər gedək" –deyib qadının evinə gedir. Evə yetişirlər, İmam qapını döyür. Qapını qadının əri açır. Həzrət ona deyir: "Ey Allahın qulu! Allahdan qorx, qadını döymək olmaz, qadınlar güldür". Adam son dərəcə qəzəblənmiş və ədəbsiz halda: -"Səni vasitəçi gətirdiyi üçün onu daha şiddətli cəzalandıracağam!"-dedi.

İmam Əli (ə) gəncin haqsızlığa daha da israrlı olduğunu gördükdə, əlində ağac təkrar evə qayıdır. Gənc İmamın əlindəki ağacı və qəzəbini gördükdə özünə gəlir.

Ravi deyir: "Mən gəncə dərhal imamı tanıtdım və o üzr istədi".

İmam Əli gəncə nəsihət etdi: "Ey gənc! Xanımına şəfqətli ol ki, gözəl bir həyatınız olsun!" Bundan sonra İmam qadını evinə göndərdi.

---

*17 Əhzab,33*
*18 Nəhcül-Bəlağə, Hikmət, 234*
*19 Müstədrəkül-Vəsail, c.14, s.250*

Peyğəmbərimiz (s) buyurur: "Ərinə qəzəblə və kinlə baxan qadının gözlərinə cəhənnəm sürməsi çəkərlər".[20]

Bəzi həyat yoldaşları bir-birini təhqir etməzlər, amma baxışları nifrət, kin və qəzəblə dolu olar. Əgər ər-arvad bir-birinə İslamın qoyduğu ölçü və əxlaqla hörmət göstərsələr, cəmiyyətdə bir çox ailə problemləri öz həllini tapar.

İmam Sadiq (ə) qadınların ən yaxşısını belə vəsf edir: "Sizin qadınlarınızın ən dəyərlisi gözəl ətirli olan; yaxşı bişirməyi bacaran; lazımsız, zərurət olmadan xərcləməyən; yerli-yerində qənaət etməyi bacaran qadındır. Belə bir qadın ilahi əmrlərin icraçısıdır. Onun (bu dünyada və axirətdə) məyus və peşman olmasına heç bir səbəb yoxdur".[21]

## Həyat yoldaşına hörmət

Möminlər, müsəlmanlar və bütün bəşəriyyət həyat yoldaşına hörmət etməyi Peyğəmbərimizdən (s) öyrənməlidir.

Allah Rəsulunun (s) zövcələrindən olan Ümmü Sələmənin Abdullah adlı bir qardaşı var idi. O, Peyğəmbərimizə işgəncə verən 10 nəfərdən biri idi. Peyğəmbər (s) Məkkəni fəth etdikdən sonra, ümumi əfv elan etdi. Amma Abdullahı və digər 9 nəfəri bağışlamadı. Abdullah Peyğəmbərin (s) yanına gələrək bağışlanmağını istədi lakin Peyğəmbər (s) qəbul etmədi. Ümmü Sələmə Peyğəmbərin (s) yanına gələrək dedi: "Ya Rəsulallah! Bilirəm, qardaşım sənə çox əziyyət etdi, mənim xətrimə onu bağışla!" Peyğəmbərimiz (s) də belə buyurdu: - "sənin xətrinə onu bağışlayıram".

Peyğəmbərimiz xanımına o qədər hörmət edir ki, onun xatirinə ən əzazil düşmənini də əfv edir.

---

*20 Müstədrəkül-Vəsail, c.12, s.338*
*21 Usuli-kafi, c.5, s.325; Ət-Təhzib, c.7, s.402*

## 2. Səhvləri ört-basdır etmək və səhvləri qəbul etmək

Həyat yoldaşları arasında sevgi bağının qurulması və möhkəmləndirilməsinin ikinci şərti, onların bir-birinin qüsurlarına gözyummasıdır.

Bəzən ər-arvad öz aralarında səhvlərə yol verər və sonradan öz səhvlərini anlayarlar, lakin qürur və təkəbbürləri üzr istəməyə mane olar. Məsələn, kişi səhv etdikdə onun üzr istəməsi çətin olur. Belə olan halda, onda peşmançılıq əlamətləri görünərsə, arvadı üzr istəməsini gözləmədən onu bağışlamalıdır. Müqəddəs Quranımızda belə buyurulur:

**"(Onları) bağışlasınlar və (bu niyyətlərindən) vaz keçsinlər! Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah çox bağışlayandır, rəhmlidir".**[22]

Həyat yoldaşını və övladını bağışlamağa hazır olmayan bir insanın, Allahın onu bağışlayacağını gözləməsi necə düzgün ola bilər? Səhvlərə göz yumub üzr istəyənin üzrünü qəbul etmək alicənablığın yüksək əlamətidir.

İki fərqli xarakter və əxlaqa malik olan şəxslər bir evdə yaşadıqda, bir çox səhvlərə yol vermələri təbiidir. İnsan dostu ilə iki günlük səfərə çıxdıqda bir çox səhvlərin şahid olur. 40-50 il bir yerdə yaşayan insanlar arasında xəta və səhvlərin olması da qaçılmazdır.

## 3. İffət və hicab

Ər-arvad arasında müştərək vəzifələrin üçüncüsü iffət və hicabdır. İmam Əli (ə) və həzrət Zəhranın (s.ə) evlilikləri bütün müsəlmanlar üçün bir nümunədir.

Peyğəmbər (s), imam Əlidən həzrət Fatimənin necə bir həyat yoldaşı olduğunu soruşduqda:

---

*22 Nur,22*

نِعْمَ العَونُ على طاعَةِاللهِ

“Allaha ibadətdə necə də gözəl köməkçidir”- cavabını verir.

Həyat yoldaşları iffətli olmalıdır və iffət təkcə qadına aid deyil. Qadınlar məhrəmlərinin yanında olduqda belə geyimlərinə və örtünmələrinə diqqət etməlidirlər. Sırf məhrəm olduğu üçün onun yarıçılpaq olması düzgün deyil. Ata və ana gənc oğlunun və gənc qızının yanında geyim tərzinə, oturuşlarına fikir verməlidirlər.

# AİLƏDƏ İFFƏT

İslam dinində ailənin iffət və həyasına böyük əhəmiyyət verilir. Çünki cəmiyyət, çaylar və bulaqlar kimi kiçik sulardan ibarət olan dənizdir. Bulaqların və çayların suyu təmiz və şəffaf olduqda, dənizlərin və okeanların suyu da təmiz və şəffaf olacaqdır. Cəmiyyəti ailələr formalaşdırır. Mədrəsələr, məktəblər, universitetlər, kəndlər, qəsəbələr və şəhərlər hamısı ailələrdən ibarətdir.

Peyğəmbərimiz (s) buyurur:

خَيْرُكُمْ خَيْرُكُمْ لِأَهْلِهِ وَأَنَا خَيْرُكُمْ لِأَهْلِي

"Sizin ən xeyirliniz öz ailəsinə qarşı xeyirli olanınızdır. İçinizdə ailəsinə qarşı ən xeyirli olan mənəm".[23]

Yəni, mən sizin Peyğəmbəriniz (s) olaraq ailəsinə hər cəhətdən sizin ən yaxşı olanınızam. Təəssüf ki, bəziləri çöldə, məktəbdə, işdə dostları ilə çox yaxşı və nəvazişli davransa da evdə aqressiv olurlar. Daha sonra Peyğəmbərimiz (s) buyurur:

مَا أَكْرَمَ النِّسَاءَ إِلاَّ كَرِيمٌ، وَلاَ أَهَانَهُنَّ إِلاَّ لَئِيمٌ

"Qadına alicənab (dəyərli) insanlardan başqası hörmət etməz. Alçaq insanlardan başqası isə ona xəyanət etməz, onu təhqir etməz".

Peyğəmbərimiz (s) bizə izzətli və şərəfli olmağın ölçüsünü vermişdir. Ona görə də şəxsin mərifət əhli olub-olmadığını həyat yoldaşından soruşmaq lazımdır. Arvadına hörmət edirmi? Ailəsinə dəyər verirmi? Ailəsini təhqir etməkdən çəkinirmi?

Peyğəmbərimiz daha sonra belə buyurur:

ملعونٌ ملعونٌ مَنْ ضَيَّعَ مَنْ يَعُولُ

---

*23 Vəsailüş-şiə, c.20, s.171; Məkarimul-əxlaq, s.216*

"Məlun o kəsdir ki, ailəsinin haqqını tapdalayır və onlara məhəl qoymur".[24]

Heç bir din, ideologiya, qurum və ya təşkilat ailə mövzusunda bu qədər həssas deyil. Kişi və qadının diqqət etməli olduğu hicab və iffət, evin səmimiyyətini və hərarətini qoruyub saxlayır. Qurani-Kərim biri kişi, digəri qadın olmaqla iki iffətli şəxsdən bəhs edir. Onlar həzrət Məryəm və həzrət Yusifdir.

## Həzrət Yusifin iffəti

Quran, həzrət Yusifin iffət və həyasını belə nəql edir: "Züleyxa qapıları bağlayıb Yusifi günaha dəvət etdikdə, Yusif bağlı qapılara tərəf qaçdı".

﴿وَلَقَدْ هَمَّتْ بِهِ وَهَمَّ بِهَا لَوْلَا اَنْ رَاٰ بُرْهَانَ رَبِّهِ﴾

**"Həqiqətən, (Züleyxa) ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini (xəbərdarlığını) görməsəydi, (Yusif də) ona meyl salacaqdı".25**

## Həzrət Məryəmin iffəti

Həzrət Məryəm ona tərəf gələn bir adam gördükdə, onu günahdan çəkindirərək belə dedi:

﴿قَالَتْ اِنِّي اَعُوذُ بِالرَّحْمٰنِ مِنْكَ اِنْ كُنْتَ تَقِياًّ﴾

**"Məryəm dedi: "Mən səndən Mərhəmətli Allaha sığınıram! Əgər müttəqisənsə, mənə toxunma".[26]**

*24 Usuli-kafi, c.4 s.12; Mən lə yəhzəruhul fəqih, c.2, s.68; Vəsailüş-şiə, c.20, s.171.*
*25 Yusif, 24*
*26 Məryəm,18*

Həzrət Yusif və həzrət Məryəm iffət və həya rəmzinə çevrildilər. Qurani-Kərim kişilərə həzrət Yusifi (ə), qadınlara isə həzrət Məryəmi misal göstərir.

Hədislərdə isə belə buyurulur:

“Qiyamət günü günaha düçar olan gənclərə “Nə üçün günah etdin?” deyə soruşulduqda, onlar belə cavab verəcəklər:

"Biz gənc və yaraşıqlı idik!" Bu zaman həzrət Yusifin gətirilməsi əmr olunar. Onlardan soruşarlar: "Siz Yusifdən daha yaraşıqlı idiniz?"

Eyni ilə günaha dücar olan qadınlar da: “Biz gənc və gözəl idik” dedikdə, həzrət Məryəmi gətirib deyərlər: "Siz Məryəmdən daha gözəl idiniz?"

Dünyanın bütün qadınları Züleyxa olsaydı, yenə də həzrət Yusifin iffəti onlara baxmağa izin verməzdi.

## Quranda iffət və hicab

Əhzab surəsinin 59-cu ayəsində hicabın cəmiyyətdəki əhəmiyyəti və təsirindən bəhs olunur və ayə belə başlayır:

﴿يَا اَيُّهَا النَّبِيُّ قُلْ لِاَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِنْ جَلَابِيبِهِنَّ ذٰلِكَ اَدْنٰٓى اَنْ يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ﴾

**“Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin zövcələrinə (evlərindən çıxdıqları zaman) çarşablarını örtmələrini söylə! Bu, onların tanınmaları və incidilməmələri üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir”.**

Cəmiyyətin rəhbəri islah etməyə ilk növbədə öz ailəsindən başlamalıdır. Öz ailəsini islah edə bilməyən başqalarına da təsir edə bilməz.

Örtülü və hicablı müsəlman qadın örtü və hicabı ilə digər qadınlardan seçilir və həmin örtük ona şəxsiyyət qazandırır. Analar qızlarına uşaq yaşlarından örtünməyi öyrətməlidilər.

## Təqvalı və Allah üçün iffətini qoruyan xanımın öləndə başı üstə İmam Zaman (ə.f) gəlir.

Alimlərdən biri belə nəql edir: "İmam Zamanı görməyi çox istəyirdim. 40 cümə namazı ərzində məsciddə "Ziyarəti Aşura" oxumağa başladım. Bir cümə günü məscidin küçəsində gözəl bir qoxu gəldiyini və evlərin birindən bir nur qalxdığını gördüm.

Evə yaxınlaşdım, qapı açıq idi və öz-özümə dedim ki, "qapı açıqdır, içəri girə bilərəm". İçəri girəndə yerdə bir cənazə gördüm, onun başında nurani bir şəxs oturmuşdu və onun mövlam imam Zaman olduğunu anladım.

Mövlam dedi: "Məhəmməd Bəkir, məni axtarırsan? Mən burdayam".

Dedim: "Ağa, niyə burada cənazənin başında oturmusunuz?". İmam buyurdu: "Bu xanım dünyadan getdi və mən onun dəfn mərasimində iştirak etməyə gəlmişəm". Yenə soruşdum: "Ağa, bu xanım övliyadandır?" İmam buyurdu: "Bu xanım Rza Xan hicabı qadağan etdikdə, hicabını çıxarmasınlar deyə, yeddi il evindən bayıra çıxmamışdı."

## Həzrət Musanın iffəti

Əli ibn İbrahim Qummi öz təfsirində belə nəql edir:

"Musa Mədyən kənarındakı bir quyuya çatanda onun başında qoyunlarını özgə heyvanlara qarışmasın deyə geri qaytaran iki qız gördü. Həzrət Musa qızların heyvanlarını suladı. Şüeyb (ə), qızlarının heyvanları sulamaqdan daha tez qayıtdığını gördükdə onlardan bunun səbəbini soruşdu. Qızları da saleh bir insanın onlara

kömək etdiyini, ancaq bu ölkədə belə birinin olmadığını söylədilər. Şüeyb dedi: “Gedin o cavanı evimizə dəvət edin”. Qızlardan biri özünü tələsik Musaya (ə) çatdıraraq atasının dəvətini ona bildirdi. Musa (ə) bu dəvəti qəbul etdi və yolda qıza dedi: “Sən mənim arxamca gəl. Səhv getdiyim zaman məni xəbərdar et”- dedi.

Şeytan, həzrət Yəhyaya dedi: "Mənim iki güclü silahım var: qəzəb və qadın. Bu ikisi gözümün işığıdır".

Düşmən tarix boyu iffətsizlik, həyasızlıq və əxlaqsızlıqla İslam cəmiyyətinə ağır zərbələr vurub. Əndəlus (indiki İspaniya) 800 il islam torpaqlarının bir parçası idi. Ancaq əyləncə yerləri, meyxanalar, kazinolar, imperialist güclər qadınları bəzəyib bazarlara buraxaraq müsəlman gənclərin mənliyini əlindən alıb xristianlaşdırdılar.

## Həzrət Musanın əsgərlərinin məğlubiyyət səbəbi

İffətsizlik ən güclü ordunu belə məğlub edə bilər. Həzrət Musa (ə) necə məğlub oldu? Bəlam Baura onların qarşısını necə ala bildi? Hədislərdə belə buyurulur:

“Bəlam ibn Baura göstəriş verdi ki: "Qadınları və qızları bəzəsinlər onları əsgərlərin arasına göndərsinlər. Əgər zina və fəsad artsa, xəstəlik də çoxalacaq". Bu hadisə ilə Musa peyğəmbərin 20.000 əsgəri taun xəstəliyinə tutuldu və həlak oldular. Onlar düşmənə doğru hərəkət edə bilməyib Antakyada qaldılar”.[27]

Ailənin hüzuru üçün həyat yoldaşları bir-birlərinə əhəmiyyət və önəm verməlidirlər. Necə ki, imamlarımız öz zövcələrinə qayğı və önəm veriblər.

Ravi deyir: "İmam Baqirin (ə) yanına gedəndə bizi çox sadə bir otaqda qonaq etdi. Bir gün imam buyurdu: "Bura gəl!” O biri otağa keçdim, gözəl və bəzəkli bir otaq idi. Soruşdum: Ey Peyğəmbərin

---

*27 Pend-i Tarix, c.2, s.224*

övladı, bu otaq niyə bu qədər bəzədilib? İmam buyurdu: “Bu, mənim həyat yoldaşımla yaşadığım otaqdır. Kişi özünü səliqəyə salsa, arvadı başqa kişilərə meyl etməz”.

İmamlarımız öz həyat yoldaşları üçün bəzənərdilər, imam Baqir (ə) daim arvadının sevdiyi köynəyi geyinərdi.

Bir gün imam Əli (ə) küçədə saçı dağınıq və səliqəsiz bir kişi gördü. İmam ona baxıb bu ayəni oxudu:

﴾وَاَمَّا بِنِعْمَةِ رَبِّكَ فَحَدِّثْ﴿

**“Və Rəbbinin sənə olan nemətindən bəhs et!”**[28]

İstər kişi, istərsə də qadın, özlərinə çəkidüzən verməlidirlər. Zinət və bəzək ilahi nemətdir. Bu nemətlər möminlər üçün yaradılmışdır. Uca Allah örtülü qadınlara iki böyük nemət vermişdir: pis niyyətli insanlar tərəfindən narahat olunmamaq və möminə xanım kimi tanınmaq.

Bu gün cəmiyyətdə boşanmaların və əxlaqsızlığın əsas səbəbi iffət və hicaba riayət edilməməsidir.

---

*28 Duha,11*

# AİLƏDƏ BƏYƏNİLMƏYƏN SİFƏTLƏR

Ər-arvad arasında qarşıdurma və problemlərin yaşanmaması üçün sədaqət, vəfa, sözünün üstündə durmaq, qarşılıqlı hörmət kimi bəzi vacibatlar nəzərə alınmalıdır. Ailədəki isti münasibəti və həyat yoldaşının sevgi və məhəbbətini qorumaq üçün bəzi əməllərdən çəkinmək lazımdır.

Bu gün ailələrdə bir çox problemlər yaşanmaqdadır. Gənc və yeniyetmələr spirtli içkilərə, narkotikə cəlb olunub, dindən uzaqlaşdırılıb, insani əxlaq və dəyərlərdən məhrum edilib. Bütün bunların əsas səbəbi isə ailəyə lazım olan əhəmiyyətin verilməməsindən qaynaqlanır.

## İnadkarlıq və bəhanə

Ailə üzvlərinin, xüsusən də valideynlərin çəkinməli olduğu şeylər arasında bəhanələr və inadkarlıq birinci yerdədir. Bir çox ailələrdə nifaq ər-arvadın boş və mənasız inadkarlığından qaynaqlanır. Burada inadkarlıqla israrı bir-birindən ayırmalıyıq.

Peyğəmbərimiz buyurur:

الخيرُ عادَةٌ والشَّرُّ لَجاجَةٌ

“Xeyir adət və alışqanlıqla (israrla) qazanılır, şər isə inadla”.[29]

İnsan xeyriyyəçilik vərdişinə məs: namazı vaxtında qılmaq, yalan danışmamaq və s. yiyələnməkdə israrlı olmalıdır. Belə adətləri israr edib vərdiş halına salmaq çox gözəldir. Amma məntiqsiz və əsassız şeylərdə inadkar olmaq düzgün deyildir.

Bir gün canavar və qoyun çaydan su içirdilər. Canavar çayın yuxarı tərəfində, qoyun isə aşağı tərəfində idi. Canavar başını qaldıraraq

[29] *Mizanul-Hikmə, c.9, s.3666*

qoyuna dedi: “Sən suyu bulandırırsan”. Qoyun dedi: "Ay canavar, axı mən çayın aşağı tərəfindən su içirəm, suyu necə bulandıra bilərəm? Sən məni yemək üçün bəhanə axtarırsan".

İmam Sadiq buyurur:

سِتَّةٌ لاتَكونُ فِى المُؤمِنِ:

“Möminə bu altı sifət qadağan olunmuşdur :

1-Çətinlik yaratmaq (اَلعُسرُ)

Bəzi uşaqlar valideynlərin lazımsız və mənasız təzyiqləri nəticəsində ailədən uzaqlaşırlar. Valideynlər qanun və qadağaları məntiq və ağıl əsasında qoymalıdırlar.

2-Faydasız olmaq (وَالنَّكَه) başqalarına fayda verməmək. Mömin xeyir və yaxşılığa mane olmaz və ona əngəl yaratmaz.

3-İnad və bəhanəçilik (وَاللَّجاجَةُ)
4-Yalan (وَالكَذِبُ)
5-Həsəd (وَالحَسَد)
6-Zülm (وَالبَغىُ)[30]

Bu altı sifətin ən pisi və ən təhlükəlisi haqq qarşısında inadkar olmaq və bəhanə axtarmaqdır. Hədislərdə, bəhanə xəstəliyinin şeytanın sifətlərindən olduğu bildirilir. Çünki şeytan, “mən oddan, Adəm isə torpaqdandır” bəhanəsi ilə səcdə etməmişdi.

İmam Əli (ə) buyurur:

اَلَجاجُ بَذْرُ الشَّرِّ

“İnadkarlıq şər toxumudur”.[31]

*30 Vəsailüş-şiə, c.15, s.349; Biharul-ənvar, c.75, s.262; Əl-Xisal, c.1, s.325*
*31 Mizanul-Hikmə, c.9, s.3666*

## Həzrət Musanın qövmünün inadkarlığı və bəhanəsi

Həzrət Musanın (ə) qövmü də bu xəstəliyə dücar olmuşdu. Onlar öldürülən bir şəxsin qatilinin kim olduğunu öyrənmək üçün həzrət Musanın (ə) yanına gəldilər. Həzrət Musa (ə) buyurdu: "Bir inək kəsib, onun bir hissəsini öldürülən şəxsə toxundurun, o qalxıb qatilin kim olduğunu deyəcək".

Onlar dəfələrlə həzrət Musaya (ə): "İnək nə rəng olmalıdır? Neçə yaşında olmalıdır?"- deyib bəhanələr gətirməyə başladılar. Hər bəhanə ilə şərtlər daha da ağırlaşırdı. Beləliklə çox ucuz məbləğə almalı olduqları inəyi, böyük pul müqabilində aldılar.

Həmçinin həzrət Musa (ə) onlara: -"Müharibəyə gedin"-dedikdə, onlar dedilər:-"Sən və Allahın gedib vuruşun, biz buradayıq, siz qalib gələndə şəhərə daxil olacağıq". İnsanların bu iddialı rəftarlarına görə uca Allah onları 40 il viran və sərgərdan etdi.

## Peyğəmbər zamanındakı bəhanəçilər

Quran, iman gətirmək istəməyənlərin belə dediyini nəql edir:

﴿وَقَالُوا مَالِ هَذَا الرَّسُولِ يَأْكُلُ الطَّعَامَ وَيَمْشِي فِي الْأَسْوَاقِ لَوْلَا أُنزِلَ إِلَيْهِ مَلَكٌ فَيَكُونَ مَعَهُ نَذِيرًا﴾

**Onlar dedilər: "Bu necə elçidir ki, yemək yeyir, bazarları gəzib dolaşır? Nə üçün ona özü ilə birlikdə xəbərdarlıq edən bir mələk göndərilmədi?**[32]

**Əgər biz onu mələk etsəydik, əlbəttə, onu kişi edərdik və onları bir daha düşdükləri şübhəyə salardıq".**[33]

---

*32 Furqan,7*
*33 Ənam,9*

Əgər bir mələk göndərilsəydi, onlar yenə də:- “Niyə öz cinsimizdən göndərmədin və əgər əcəmi olsaydı niyə ərəb deyildi?”- deyərdilər. Beləliklə, onların bəhanələri bitməzdi.

Təəssüf ki, bəzən biz də həyatımızda belə bəhanələrin arxasında gizlənirik. Bu bəhanələr ailədəki səmimiyyətə xələl gətirir.

Quran belə buyurur:

﴿وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ اِنَّ السَّمْعَ وَالْبَصَرَ وَالْفُؤَادَ كُلُّ أُوْلَئِكَ كَانَ عَنْهُ مَسْؤُلاً﴾

**“Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı (sahibinin əməlləri) barəsində sorğu-sual olunacaqdır”.**[34]

Məhəmməd Feyzəl imam Kazimin (ə) yanına gələrək dedi:

"Ey Peyğəmbərin oğlu, güvəndiyim və arxayın olduğum insanlar qardaşımın düzgün işlər görmədiyini deyirlər. Qardaşımdan bunu soruşduqda isə, onlara inanma, onlar yalan danışırlar,- deyir. Cənab, mən nə edim?"

İmam buyurdu:

كَذِّبْ سَمْعَكَ وَبَصَرَكَ

"Qulağını və gözünü yalanla".[35]

Yəni qardaşına inan, camaatdan eşitdiklərinə qulaq asma ki, beləliklə qardaşın həqiqəti qəbul etsin. Qarşı tərəfə bəhanə gətirməməliyik, amma təəssüf ki, öz evimizdə, cəmiyyətdə belə deyilik.

## Əsası olmayan bəhanələr

Cəmiyyətdə boşanmaların çoxu bəsit və yersiz bəhanələrdən baş verir. Valideynlər çox diqqətli və soyuqqanlı olmalıdırlar. Ailələr

*34 İsra,36*
*35 Usuli- Kafi, c.8, s.148; Vəsailüş-şiə, c.12, s.295; Biharul-Ənvar, c.72, s.214*

münaqişə ilə bağlı bizə müraciət edəndə görürük ki, həqiqətən boş və yersiz bəhanələrlə ailə həyatını dağıdırlar.

İnsanlar əsassız və boş bəhanələrlə bir-birini incitməməlidir.

İmam Sadiq buyurur:

لا يَجوزَ مَنْطِقُكَ عِلْمَكَ

“Dilinin, elm və biliyin qarşısına keçməsinə izin vermə”.

Kişi bütün sirlərini və sözlərini xanımına söyləmək məcburiyyətində deyil. Bəzən bir söz ömür boyu aranızdakı sevgi və məhəbbətə kölgə sala bilər. Bunun üçün də həyat yoldaşları keçmişdə etdikləri bəzi xəta və səhvlərini bir-birlərinə danışmamalıdırlar.

## Günümüzdə geniş yayılmış bəhanələr

### 1. Yersiz qısqanclıq

Kişi qısqanc olmalıdır amma qısqanclıq yerində və vaxtında olsa, xoş və gözəldir. İmam Əli oğlu imam Həsənə vəsiyyətində belə buyurur:

اياكَ اَنْ تَضَعَ ذلِكَ فى غَيرِ مَوْضِعِهِ

**"Oğlum, yersiz qısqanclıqdan uzaq ol!"**[36]

Bəzi insanlar yersiz qısqanclıqları ilə həyat yoldaşlarına dünyanı dar edirlər (incidirlər.) Mömin harada qısqanc olub-olmadığını bilməlidir. Bəzən bu məsələdə o qədər ifrata varılır ki, hətta arvadının, qızının adını çəkməkdən belə narahat olur, evinə gələn insanla salamlaşmağına belə dözə bilmir. Bu və buna bənzər yersiz qısqanclıqlar da boşanmalara az səbəb olmur.

---

*36 Nəhcül-Bəlağə, Məktub, 31*

Bəzən ər-arvad məntiqsiz söhbətlərlə, qohum-əqrabası ilə öyünməklə evdə söz-söhbət yaradırlar.

Peyğəmbər (s) bir yerdən keçirdi. Bir neçə nəfərin öz ailələri ilə öyündüyünü gördü. Biri "filankəs mənim əmimdir", o birisi:- "biz səndən çoxuq"- deməklə fəxr edirdilər. Peyğəmbər qəzəblənərək belə buyurdu:

فَإِنَّ اولَ ما نَهاني عَنْهُ رَبِّي بَعْدَ عِبادَتِهِ الاَوْثانِ الْمِراءُ

"Allahın bütpərəstlikdən sonra haram etdiyi şey miradır".[37]

"Mira rüsvayedici bir xəstəlikdir və insan üçün ondan daha pis xislət yoxdur, o şeytanın və onun tərəfdarlarının əxlaqıdır".[38]

Bəzən ər-arvad arasına başqalarının qarışması və müdaxiləsi də boşanmalara səbəb olur. Kişi və qadının yaxınlarının vəzifəsi olmayan işlərə qarışması ailə nizamının pozulmasına gətirib çıxarır. Evin şahı kişi, şahzadəsi isə qadındır, şah və şahzadənin vəzifəsi ölkəni düzgün və sağlam idarə edə bilməkdir.

## 2. Səhv axtarmaq

Ailənin nəzm- intizamına kölgə salan məsələlərdən biri də səhv axtarmaqdır. Bəzən gənclər nişanlılıq və evlilik dönəmlərinin ilk aylarında bir-birinə olan hərarətli sevgi və məhəbbətlərinin sönüb yox olmasından şikayətlənirlər.

İnsan yavaş-yavaş dəyişir. Saçları ağarır, rəngi solur, dərisi qırışır... Bunlar həyat yoldaşlarının bir-birinin çatışmazlıqlarını görməsinə səbəb olur. Bu səbəbdən nişanlı və evliliyin ilk illərindəki sevgi və məhəbbət yox olmağa başlayır.

Peyğəmbərimizin (s) Allaha sığındığı sifətlərdən biri də başqalarında eyb və nöqsan axtarmaq sifəti idi. O belə buyurur:

---

*37 Biharul-ənvar, c.2, s.138*
*38 Biharul-ənvar, c.2, s.134*

اَعُوذُبِكَ مِن صاحِبِ خَدِيعَةٍ

“Allahım, hiyləgər dostdan Sənə sığınıram”.

Hiyləgər dostlar kimlərdir?

إِنْ رَأَى حَسَنَةً دَفَنَهَ

“Onlar bir yaxşılıq görən zaman onu gizlədər”.

وَإِنْ رَأَى سَيِّئَةً أَفْشَاهَا،

“Bir pislik gördükdə isə onu açıb tökər”.[39]

Bəziləri arvadının yemək bişirməsinə, uşağa baxmasına, xidmətinə, fədakarlığına məhəl qoymadan kiçik bir problemi böyüdürlər.

İmam Əli buyurur: “İnsanların xətaları ardınca gedənləri özünüzdən uzaqlaşdırın”.

Bəziləri eyni milçək misalındakı kimi insanın sifətinə qonar. Tribunada 40 dəqiqə çıxış edən bir şəxsin dilinin bir neçə dəfə topuq vurmasını, yanılmasını hər yerə yayar.

**Tənqid etmək və səhv axtarmaq fərqlidir!**

Tənqid etmək və səhv axtarmaq iki fərqli münasibətdir. Tənqid, yaxşı şeyi səhvlərdən ayırmaq, yaxşılıqları tərifləyib səhvləri isə uyğun və xoş bir dillə söyləməkdir. İmam Sadiq (ə) buyurur:

“Qardaşının səhvini görən və onun qarşısını almağa gücü çatdığı halda, onun qarşısını almayan şəxs ona xəyanət etmişdir”.

Bir yazarın dili ilə desək, insanlar üç qisimdir;

---

*39 Müstədrəkül-Vəsail, c.9, s.81; Biharul-Ənvar, c.83, s.186*

1. Bəziləri yaxşı işlərin ardınca gedər, heç vaxt tənqid etməz.

2. Bəziləri səhvlərin ardınca gedər, həmişə tənqid edər.

3. Bəziləri səhvləri tənqid edər, onları xəbərdar edər və yaxşı işlərə təşviq edər.

İmam Kazimin (ə) aşağıdakı hədisində bu məsələyə işarə edilir:

اِجْتَهِدُوا فِى اَنْ يَكُونَ زَمانُكُمْ اَرْبَعَ ساعاتٍ:

Vaxtınızı dörd hissəyə ayırmağa çalışın:

ساعَةً لِمُناجاةِ اللهِ

1- Allahla münacat etməyə;

وَ ساعَةً لِأَمْرِ الْمَعاشِ

2- Bir hissəsini dolanışığınızı təmin etməyə;

وَ ساعَةً لِمُعاشَرَةِ الإخْوانِ وَ الثِّقاتِ الَّذِينَ يُعَرِّفونَكُمْ عُيُوبَكُمْ وَ يُخْلِصُونَ لَكُمْ فِى الْباطِنِ

3- Bir hissəsini eyblərinizi (səhvlərinizi) sizə bildirən qardaşlarınızı və könüllərində sizə qarşı səmimiyyətləri olan etibarlı insanları ziyarət etməyə;

وَ ساعَةً تَخْلُونَ فيها لِلَذّاتِكُم فِى غَيرِ مُحَرَّمٍ

4- Bir hissəsini də haramlar xaricindəki (haram olmayan) zövqlərə ayırın".

Bu gün tətil və gəzintilər haram və günah məclislərinə çevrilib. Uca Allah bütün nemətləri möminlərin və əməlisaleh insanların istifadəsi üçün yaratmışdır. Biz onlardan halal şəkildə faydalanmalıyıq.

## Səhvləri və yanlışlıqları ailədaxili müzakirə etmək

Ailə başçısı kimi ata xanımının və uşaqlarının səhvlərini dolayı yolla deməlidir. Bir gün Peyğəmbərimiz (s) qızı Fatimənin (s.ə) evinə gəlir. Həzrət Fatimənin (s.ə) evində təzə pərdə asılmışdı. Onun etdiyi səhv deyildi, amma bəzi şeyləri məsum insanlar etməməlidir, bu əməl edilərsə, tərki-övliya adlanar. Rəsulullah (s) nə vaxt qızının evinə getsəydi, əvvəlcə hal-əhval edib vəziyyəti soruşardı. Ancaq həmin gün heç nə demədən geri qayıtdı. Çünki o, Mədinənin yoxsulluq və məhrumiyyət içində yaşadığı bir vaxtda qızının etdiklərini düzgün hesab etməmişdi. Həzrət Fatimə (s.ə) hadisədən xəbərdar olan kimi dərhal pərdəni çıxarıb satdı və kasıblara sədəqə verməklə Allah Rəsulunun (s) razılığını qazandı. Bu hadisədə Peyğəmbərimiz (s) dolayı yolla bunu öz qızına xatırlatdı. Evin kişisi də həyat yoldaşına bəzi halları dolayı yolla xatırlatmalıdır.

Valideynlər xüsusilə gəncləri düzgün və uyğun şəkildə xəbərdar etməlidirlər. Onları dostlarının yanında rüsvay etmədən, qəzəblənmədən, təhqir etmədən, şəxsiyyət və qürurlarına toxunmadan agah etməlidirlər.

## Ömər ibn Əbdüləziz

Ömər ibn Əbdüləziz, Müaviyənin minbərlərdə başladığı "Əhli-beyti söymək" ənənəsini ləğv etməsi ilə yadda qaldı. Peyğəmbərdən (s) təxminən bir əsr sonra hədis yazmaq qadağasını da aradan o qaldırdı. Ömər ibn Əbdüləziz cümə namazı, dualar və namazdan sonra imam Əliyə (ə) oxunan lənətin necə aradan qaldırılması barədə düşünürdü. Bir gün ağlına belə bir fikir gəldi: O, bir yəhudi gəncə dedi ki, alimlər və dövlət rəsmiləri ilə görüş zamanı onun sarayına gəlsin və qızını istəsin.

Daha sonra, "Sən kimsən, özünü təqdim et!",- deyə soruşacağını, "qeyri-müsəlmanlar bizdən qız ala bilməzlər",- deyəcəyini, "onda bəs Peyğəmbər qızını Əliyə niyə verdi?"- sualını verməsini, qalanını isə onun öhdəsinə buraxmasını istədi.

Ömər ibn Əbdüləziz alimlər və görkəmli şəxslərlə görüşdə olarkən bu gənc içəri girdi.

-Ömər ibn Əbdüləziz: "Nə istəyirsən?"

-Gənc: "Mən sizin qızınızı istəyirəm."

-Ömər ibn Əbdüləziz: "Sən kimsən, kimlərdənsən?"

-Gənc: “Mən bir yəhudi gənciyəm”.

-Ömər ibn Əbdüləziz: “Biz qeyri-müsəlmana qız vermirik”.

-Gənc: "Bəs Peyğəmbər qızını niyə Əliyə verdi?"

-Ömər ibn Əbdüləziz: "Sus, bayıra çıx, Əli ilk iman gətirən müsəlmandır”. İmam Əlinin özü bu haqda belə buyurmuşdur:

اَيْنَ كانُوا اولئِكَ وانا اُصَلِّي معَ رسُولِ اللهِ صغيراً لم يُكْتَبْ عليَّ صلاةٌ وهُم عَبَدَةُ اَلاوْثان

Mən uşaq olan zaman hələ namaz mənə vacib olmamış Rəsul-ullahla namaz qılanda onlar harada idilər. Halbuki, bu mənfurlar o vaxt bütlərə sitayiş edirdilər.

-Gənc: "Əgər Əli müsəlmandırsa, bəs niyə ona küfr və lənət söyləyirsiniz?"

-Ömər ibn Əbdüləziz: “Bilmirəm”.

Sonra ətrafdakı alimlərə üz tutaraq: "Bu gəncə cavab verin, niyə Əliyə küfr və lənət söylənilir?" Alimlərin heç biri cavab verə bilmədi. Ömər ibn Əbdüləziz lənəti elə orada qadağan etdi və yerinə aşağıdakı ayəni oxumağı əmr etdi: [40]

﴿رَبَّنَا اغْفِرْ لَنَا وَلِإِخْوَانِنَا الَّذِينَ سَبَقُونَا بِالْإِيمَانِ وَلَا تَجْعَلْ فِي قُلُوبِنَا غِلًّا لِّلَّذِينَ آمَنُوا رَبَّنَا إِنَّكَ رَؤُوفٌ رَّحِيمٌ﴾

*40 Ayətullah Məzahiri; Nəfslə Cihad, c.1, s.11*

**"Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"[41]**

Beləliklə, Ömər ibn Əbdüləziz məntiqli yanaşma və düzgün üsulla lənət oxumağı aradan qaldırdı.

Ev tikəndə mütəxəssisə müraciət edib, plan çəkdiririk, amma uşaq tərbiyəsinə gəldikdə, heç kimdən kömək almırıq.

Nədənsə, səhv düşünən insanlar həmişə həyatı səhv və xətalarla dolu olan insanlardan misal gətirirlər. Zəif oxuyan, tənbəl şagird pis şagirdi misal gətirir: "Arvadını niyə döyürsən?- sualına: - "filankəs hər gün arvadını döyür" deyə cavab verir.

"Uşağınıza niyə işgəncə verirsiniz?" -soruşanda dərhal -"bax, filankəs qonşu oğlunu evdən qovub"- deyir.

Bu cür bəhanələr və səhvlər ailənin nizam-intizamına, səmimiyyətinə xələl gətirir, ailə mühitində sevgi və hörməti məhv edir.

**İmam Sadiqin (ə) ailə haqqında nəsihəti**

Bir kişi imam Sadiqin (ə) yanına gəlib dedi: "Ey peyğəmbərin övladı! Ailəm mənim sözümə qulaq asmır, onu tərbiyə edib öyrətmək haqqında bir əmriniz varmı?"

İmam Sadiq (ə) bu ayəni oxudu:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ﴾

**"Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi**

---

*41 Həşr,10*

**əmrlərə heç vaxt asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır”.**[42]

Sonra dedi: “Ailəni şər və pislikdən qoru!” yəni həyatlarında pis və çirkin əməllər olmasın. “Onlara Allaha itaət etməyi əmr et!” yəni namaz, oruc və s. vacibatları yerinə yetirsinlər. "Onları yaxşı işlərə öyrət!". Ona görə də sədəqəni balaca uşağınızın əli ilə verin, onlara kömək etməyi öyrədin, evə qonaq gələndə qonaqları qapıda qarşılayıb xoş gəlmisiniz deməyi öyrədin. Vacibatlara önəm verməklərinə diqqət edin!

“Özünü və ailəni yanacağı insanlar və daşlar olan oddan qoruyun” ayəsinin təfsiri budur- deyə imam sözlərinə davam etdi.

Şəhid Mütəhhəri uşaqlar sübh namazından əvvəl oyanmasın deyə çox sakit şəkildə dəstəmaz alıb nafilə namazı qılar, Quran oxuyardı. Sübh azanı vaxtında isə uca səslə azan oxuyar, uşaqları azan səsi ilə oyadar, dəstəmaz alar, camaat namazı qılardı.

Özünü günah və üsyandan saxlaya bilməyən valideyn, övladını günahdan necə qoruya bilər? Quran və hədislərdə ailəyə böyük əhəmiyyət verilir və belə buyurulur:

**“Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə heç vaxt asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır”.**[43]

Başqa bir ayədə belə buyurulur:

﴿إِنَّ الْخَاسِرِينَ الَّذِينَ خَسِرُوا أَنفُسَهُمْ وَأَهْلِيهِمْ﴾

*42 Təhrim,6*
*43 Təhrim,6*

**“Buna görə siz (də) Ondan başqa istədiyinizə ibadət edin. De: Şübhəsiz, (əsl) ziyana uğramış kəslər Qiyamətdə özlərini və ailələrini ziyana uğratmış kəslərdir. Bilin ki, həmin açıq-aşkar ziyan budur”.**[44]

Diqqət etsəniz, bu ayələrin məhz ailədən bəhs etməsi Quranın ailəyə verdiyi önəmi göstərir. Ailədə uşaqlar sağlam və düzgün olarsa, cəmiyyət də sağlam və düzgün olar.

Ailədə valideynlər örnək və nümunədirlər. Tənbəl, süst ata övladına necə nümunə ola bilər? İffətinə, hicabına diqqət etməyən ana qızına necə örnək ola bilər? Hər gün iğtişaş, dava, təhqir, hörmətsizlik mühitində böyüyən uşağın psixologiyası necə ola bilər?

---

*44 Zümər,15*

# AİLƏDAXİLİ ŞİDDƏT

Ailədəki hüzura xələl gətirən, isti ailə mühitinə kölgə salan məsələlərdən biri də ailədaxili şiddət və dava-dalaşdır.

Şiddət, qəzəbi və əsəbi cilovlamamaq, dava-dalaş etmək və fiziki işgəncə vermək, bir sözlə həyat yoldaşını və uşaqlarını incitmək deməkdir. Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim qadınının üzünə sillə vurarsa, Allah cəhənnəmin atəş məmuruna əmr edər ki, cəhənnəm atəşində onun üzünə 70 sillə vursun".[45]

Həyat yoldaşına və övladlarına hörmət və sevgi göstərmək peyğəmbərlərin əxlaqındandır. Peyğəmbərimiz (s) buyurur:

مَنِ اتَّخَذَ زَوْجَةً فَلْيُكْرِمْها

“Evlənən şəxs, həyat yoldaşına hörmət etsin”.[46]

İmam Sadiq (ə) buyurur:

مِنْ اَخْلاقِ الانْبِيا حُبُّ النِّساءِ

“Qadınları sevmək peyğəmbərlərin əxlaqındandır”.[47]

Peyğəmbərin zövcələrindən bəziləri yersiz istəkləri ilə Peyğəmbərə (s) qarşı kobudluq edib onu incidirdilər. Peyğəmbər (s) zövcələrinin bu rəftarlarına görə onlarla bir neçə gün danışmır və çarpayılarını ayırırdı.

Ailədaxili şiddət təkcə döymək və yaralamaq kimi fiziki işgəncə ilə deyil, bəzən həyat yoldaşını incidən sözlər söyləmək, başqa qadınları tərifləyib onu alçaltmaq kimi hallarda da baş verir.

---

*45 Müstədrəkül-Vəsail, c.14, s.250*
*46 Müstədrəkül-Vəsail, c.1, s.412*
*47 Usuli- Kafi, c.5, s.320; ət-Təhzib, c.7, s.403; Vəsailüş-şiə, c.20, s.22*

Quran, evlərində şiddətə məruz qalan bir neçə ailədən söz açır. İlk ailə şiddəti Adəmin evində yaranıb. Necə ki, Qabil qardaşı Habili öldürdü:

﴿فَقَتَلَهُ فَأَصْبَحَ مِنَ الْخَاسِرِينَ﴾

**Beləliklə, (pis işlərə əmr edən) nəfsi onu qardaşını qətlə yetirməyə həvəsləndirdi və (bu işi ona) asan göstərdi. Beləliklə, onu öldürdü və ziyana uğrayanlardan oldu.**[48]

İnsan niyə qardaşını öldürsün? Bəzi rəvayətlər bunun səbəbini belə açıqlayıb: Habilin qurbanı qəbul olunduğu üçün Qabil qardaşını qısqanaraq öldürdü.

İkinci ailədaxili şiddət həzrət Yəqubun ailəsində baş verdi. O həzrətin uşaqları əvvəlcə Yusifi öldürmək istədilər, sonra isə fikirlərini dəyişib onu quyuya atdılar.

﴿اقْتُلُواْ يُوسُفَ﴾

**"Yusifi öldürün"**[49]

Nəticədə hər iki ailədə zorakılıq səbəbindən narahatçılıq yaşandı.

---

*48 Maidə, 30*
*49 Yusif,9*

## AİLƏDAXİLİ ZORAKILIĞIN SƏBƏBLƏRİ

Niyə ata və ana bir-birinə işgəncə verirlər? Nə üçün uşaqlarını döyürlər? Nə üçün ailədə sevgi və məhəbbət hökm sürmür? Ailələrdə zorakılığın səbəblərini aşağıdakı kimi sadalaya bilərik:

### 1. Həsəd (paxıllıq)

Ailədə iğtişaş və problemlərə səbəb olan xəstəliklərdən birincisi həsəd və paxıllıqdır. Paxıllıq bəzən fiziki zorakılığa da çevrilə bilər. Qabilin qardaşını öldürməsi və həzrət Yusifə qarşı qardaşlarının etdikləri kimi.

Uca Allah hər kəsə istedad və qismət bəxş edib. Bəzilərinə qız, bəzilərinə oğlan, bəzilərinə var-dövlət, bəzilərinə yoxsulluq, bəzilərinə xəstəlik və sağlamlıq verib.

İmam Cavad (ə) belə buyurur:

“Əgər insanlar arasında bu fərqliliklər olmasaydı, onlar həlak olardılar”.

Quran, insanların fərqli yaradılışını, hətta, Peyğəmbərlərin belə bir-birindən seçildiyini göstərir.

Həzrət  Süleyman (ə) ilə həzət Yəqub (ə) eyni ola bilərmi? Həzrət Süleyman zəngin, həzrət Yəqub (ə) isə xəstə və yoxsul idi.  Peyğəmbərlərin zövcələrindən bəziləri son dərəcə mömin ikən Nuh (ə) və Lut (ə) peyğəmbərlərin zövcələri kimi bəziləri də imansız idilər. İmamlarımızın həyatı da fərqli olub. Qısa olaraq evi, maşını olanı, həccə gedəni qısqanmaq nəyə lazımdır?

İmam Rza (ə) Peyğəmbərimizdən (s) belə nəql edir:

دَبَّ اليكُم داءُ الاُمَمِ قَبْلَكُم البَغْضاءُ والحَسَدُ

“Keçmiş ümmətin düşmənçilik və həsədi sizə gəlib çıxmışdır”.50

لا لِحَسُودٍ لَذَّة

“Simic üçün rahatlıq və həsəd aparan üçün ləzzət və xoşluq olmaz”.[51]

İmam Əli (ə) buyurur:

لا راحَةَ لِحَسُودٍ

"Həsəd edənin rahatlığı olmaz”.

Yəni onun nə dostu, nə də yoldaşı olar. Həzrət İbrahimin (ə) xanımı Həcəri və oğlu İsmayılı Məkkə səhrasında tərk etməsinin səbəbi Saranın qısqanclığı idi.

Ailədə həsəd və şiddət məsələsinə xüsusi diqqət yetirilməlidir, hər kəs sahib olduğu ilə kifayətlənməyi öyrənməlidir ki, rahat və hüzurlu yaşasın.

## 2. Sui-zənn

Ailədə gərginlik və iğtişaşlara səbəb olan ikinci xəstəlik sui-zənndir.

Təəssüf ki, bu xəstəlikdən əziyyət çəkən kişilər və qadınlar çoxdur. "Kimlə danışdın?" Səni niyə axtardı? Haradan tanıyırsan?” kimi yersiz suallar ailənin asayişini və rahatlığını pozur. Əgər həyat yoldaşları arasında qarşılıqlı etimad olmasa, birlikdə yaşayaraq evliliyi davam etdirə bilməzlər.

İmam Əli buyurur: “Qardaşının rəftarını ən yaxşı şəkildə həml et ki, (yaxşı tərəfə yoz ki) başqa yolları sənin üçün bağlasın”.

---

*50 Vəsailüş-şiə, c.15, s.367; Biharul-Ənvar, c.70, s.252; Uyunu Əxbari Rıza, c.1, s.312*

*51 Mən lə yəhzəruhul fəqih, c.4, s.394;*

### 3. Pis tərbiyə

Ailədə narahatçılıq və problemlər yaradan xəstəliklərin üçüncüsü zəif tərbiyədir.

TV-lərdə yayımlanan film və seriallar ailələrə pis örnək olur. Filmlərdə mövzu kimi işlənən dəbdəbəli həyat, bahalı evlər, maşınlar, qabarıq xərclər, əxlaqsız hərəkətlər cəmiyyət və ailəni dərindən zədələyir. Diqqət etsəniz bir film izləndikdən sonra, orada işlənən sözlər, hərəkətlər ailə fərdləri arasında dərhal yayılır.

### 4. Yoxsulluq və işsizlik

Ailədə iğtişaş və problem yaradan xəstəliklərin dördüncüsü yoxsulluq və işsizlikdir.

Bəzən ailədəki yoxsulluq ailədaxili şiddət və problemlərə səbəb olur. Ailələr yaxşı bilməlidir ki, yoxsulluq həzrət Adəmdən bu günə qədər mövcud olan bir həqiqətdir. Bu, uşaqların gözü qarşısında problemə çevrilərək dava etməklə həll olunası məsələ deyil.

Bəzən azla kifayətlənməmək və birdən-birə gəlir əldə etmək istəyi insanın işləməyinə mane olur.

Zürarə deyir: “Bir kişi imam Sadiqin (ə) yanına gəlib dedi: “Ağam! Əlimdə pulum olmadığına görə ticarət edə bilmirəm, ticarətə sərvətim çatmır, mən yoxsul və kasıbam.” İmam buyurdu: “İşlə, onu başın üstündə daşı və insanlara ehtiyac duyma!”

İmam kişiyə demədi ki, get evdə otur, sənə kömək etsinlər. İnsan heç vaxt öz əlinin zəhmətindən daha gözəl ruzi yeməmişdir.

### 5. Ailədə qarşılıqlı anlaşma problemi

Ailənin digər bir problemi də ər-arvadın bir-birini başa düşməməsi və anlamağa çalışmamasıdır. Ata-ana və uşaqlardan ibarət ailədə “mən” əvəzinə “biz” anlayışı hakim edilməsə, ailədə müştərək haqlar

itəcək. Ailə 3-5 günlük müvəqqəti səfər deyil ki, səbr və dözüm göstərməklə yola verilsin.

Ailədə qarşılıqlı anlaşma məsələsi çox önəmlidir. Ailənin hərarət və səmimiyyətinə xələl gətirməmək üçün həyat yoldaşlarının diqqət etməli olduğu qaydalar bunlardır:

## Anlayışı təşkil edən ünsürlər

### 1. Həyat yoldaşlarının bir-birini tanıması

Nə qədər ki, kişi qadını, qadın da kişini tanımır, onlar bir-birini başa düşə bilməzlər. Həyat yoldaşları adətən bir-birlərini ətraflı deyil, səthi olaraq tanıyırlar. Bilmirlər ki, nəyi bəyənir, hansı yeməyi sevir, hansı rəngi sevir, nəyi sevmir, nəyi bəyənmir? və s. səthi tanıma kifayət deyil. Bunun üçün həyat yoldaşları bir-birinin psixologiyasını, vərdişlərini çox yaxşı bilməlidirlər.

Təəssüflər olsun ki, 20-30 il evli olanlar belə hələ də bir-birinin xasiyyətini tanımır ya da buna əhəmiyyət vermirlər.

Peyğəmbərimiz (s) buyurur:

الْمُؤْمِنُ يَأْكُلُ بِشَهْوَةِ أَهْلِهِ، وَ الْمُنَافِقُ يَأْكُلُ أَهْلُهُ بِشَهْوَتِهِ

"Mömin bir şey yemək istədikdə ailəsinin istəyinə uyğun yeyər. Münafiqin ailəsi isə, onun istəyinə uyğun yeyər".[52]

Yəni ki, ana ailədə yemək bişirmək istəyəndə çoxluğun istək və arzusunu nəzərə almalıdır. Münafiqlə mömin arasında çoxlu fərqlər var. Münafiq sözünə əməl etməz, xəyanət edər, yalan danışar. Hədisdə isə söylənir ki, möminin aşkar xüsusiyyəti odur ki, o, itaətkardır və hətta yeməkdə belə istəyini tətbiq etmir.

Quran buyurur:

---

*52 Usuli- Kafi, c.4, s.12; Müstədrəkül—Vəsail, c.14, s.331; Biharul-ənvar, c.45, s.291.*

﴿وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ فَإِنْ كَرِهْتُمُوهُنَّ فَعَسَى أَنْ تَكْرَهُوا شَيْئاً وَيَجْعَلَ اللَّهُ فِيهِ خَيْراً كَثِيراً﴾

**"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. (Qadınlar) açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun".**[53]

Ayədəki "onlarla yaxşı yola gedin (xoş rəftar edin)" deyiminin məqsədi nədir? Əllamə Təbatəbai bu ayənin təfsirində belə deyir: "Məruf, yəni müsəlmanlar, möminlər və saleh insanlar arasında tanınan yaxşı şeylərdir. Məsələn: verdiyin sözə əməl etmək, vədə saxlamaq, gözəl rəftar, gözəl danışmaq və s."

Ayənin davamı daha diqqətçəkən və önəmlidir. Ailələrə deyir ki, ər-arvadın aralarında problem varsa, "əgər onlar xoşunuza gəlmirsə", hərəkətlərini, davranışlarını bəyənmirsinizsə, Quranda buyurulur: "Əgər bir şeyi bəyənməsəniz, Allah onda çoxlu xeyir yaratmış olar." Buna görə də səbirli olun, yaxşılıqları düşünün, pisliklərə göz yumun, uyğunlaşmağa çalışın ki, Allah sizə xeyir verəcək.

Digər ayədə "çoxlu yaxşılıqlar" haqqında belə buyurulur:

﴿يُؤْتِي الْحِكْمَةَ مَنْ يَشَاءُ وَمَنْ يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْراً كَثِيراً﴾

**(Allah) istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona çoxlu xeyir nəsib edilmişdir. Bunu isə ancaq düşüncəli insanlar anlayarlar.**[54]

Yəni, kim öz həyat yoldaşının səhvinə dözüb və ona göz yumarsa, Allah ona çoxlu xeyir verər. Bəzi rəvayətlərdə "çox xeyir" cümləsinin mənası Allahın saleh övladlar bəxş etməsi kimi şərh edilmişdir.

---

*53 Nisa,19*
*54 Bəqərə,269*

Həyat yoldaşları bir-birləri ilə yolagedən olmalıdırlar, yəni inadkar olmamalı, bir-birlərinə zülm etməməli, təhqir etməməli, bir-birini başqası ilə müqayisə etməməlidirlər.

Bir-birinin yaxşılığını görməli, qüsur və səhvlərini dost-tanışın, qohum-əqrəbanın yanında dilə gətirməkdənsə, etdiyi yaxşı, təqdirəlayiq işlərindən danışmalıdırlar. Çünki həyat yoldaşları bir-birinin örtüyüdür.

Necə ki, Quran buyurur:

﴿هُنَّ لِبَاسٌ لَكُمْ وَأَنْتُمْ لِبَاسٌ لَهُنَّ﴾

**Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız.**[55]

Kim paltarlarının çirklənməsini istəyər ki?

Beləliklə, biri təhqir olunduqda, əslində digəri də təhqir olunmuş olar.

Peyğəmbərimiz qadınların ən pisini belə tanıtmışdır: "Qadınlarınızın ən pisi inadkar, ağılsız, israrlı, ərinə itaət etməyən, özünü üstün görüb qohumlarına xor baxandır".[56]

"Mən oxudum, həkim oldum, professor oldum, sənin ailən cahil və savadsızdır, oxumayıblar, bizim ailəmiz mədənidir, zəngindir" kimi sözlər deməməlidir. Quranın təbirincə desək, cahiliyyə ərəbləri kimi olmamalıdırlar. Quranda belə buyurulur:

﴿أَلْهَاكُمُ التَّكَاثُرُ﴾

**"Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki..."** Yəni, çoxluğa var-dövlətə olan hərislik ailə sevgisini və xoşbəxtliyini unutdurdu.

﴿حَتَّى زُرْتُمُ الْمَقَابِرَ﴾

*55 Bəqərə,187*
*56 Usuli- Kafi, c.5, s.326; Vəsailüş-şiə, c.20, s.34*

**(Gömülməklə) qəbirləri ziyarət etdiniz.**

﴿كَلَّا سَوْفَ تَعْلَمُونَ﴾

**Bir də yox! Siz (aqibətinizi) tezliklə biləcəksiniz![57]**

Ey valideynlər! Bunlarla sülh, sevgi, məhəbbət qazanmaq olmaz, bu hərislik evi zindana və cəhənnəm quyusuna çevirər.

**2. Qarşılıqlı hörmət**

Qarşılıqlı hörmət yalnız həyat yoldaşları arasında olan münasibətə aid deyildir. Bu həm də qadının kişiyə - kişinin də qadına göstərəcəyi hörmətdir. Qarşılıqlı hörmətdə məqsəd bir-birinin istək və arzularına üstünlük verməkdir. Ailədə və cəmiyyətdə "mən" əvəzinə "biz" məqsədli düşüncə hakim olmalıdır.

## Peyğəmbərin tərifini qazanan qadının sifətləri

Bir gün bir kişi Peyğəmbərin (s) yanına gəlib dedi: "Ey Allahın Rəsulu! Həyat yoldaşım var, evdən çıxanda məni yola salar, evə gələndə məni qarşılayar, yorğunluğumu, sıxıntımı götürər.

Ya Rəsulullah! Məni kədərli görəndə soruşar ki, niyə üzgün və kədərliyəm? "Əgər ruziyə görə kədərlisənsə, ona görə qəmlənmisənsə - bil ki, Allah-təala onu üzərinə götürüb və əgər axirətə görə qüssələnmisənsə - Allah sənin qəmini bir az da artırsın" deyər.

Peyğəmbərimiz (s) belə buyurdu:

اِنَّ للهِ عُمّالاً وَ هذِهِ مِنْعُمّالِهِ لَها نِصْفُ اَجْرِ الشَّهِيدِ

"Allahın yer üzündə bir çox işçisi var və bu da onlardan biridir. Bu qadın o əməlinin qarşılığında şəhidin savabının yarısı ilə mükafatlanar."[58]

---

*57 Təkasur,1-3*
*58 Mən lə yəhzəruhul fəqih, c.3, s.389;*

Şəhid o kəsdir ki, ən yüksək məqama çatmışdır. Başqa bir hədisdə Allah Rəsulu (s) buyurur:

اِنَّ فَوقَ كُلِّ بِرٍّ بِرٌّ حَتّى يُقْتَلَ الرَّجُلُ شَهِيداً فى سَبيلِ اللهِ

“Hər yaxşılığın üstündə bir yaxşılıq vardır, Allah yolunda öldürülməkdən daha yaxşı əməl yoxdur”.[59]

Başqa bir rəvayətdə belə buyurur:

يَنْظُرُ فى وَجْهُ اللهِ

**(Şəhid) Allahın üzünə baxar.**[60]

Nə üçün İslam mənbələrindən uzaqlaşdıq və ya uzaqlaşdırıldıq? Nə üçün bu qədər qərb mədəniyyətini və rəngini götürdük? Niyə aramızda dinimizə sevgi və məhəbbət azalıb?

Qarşılıqlı günah və üsyana gözyummağı bir-birinə itaət edib hörmət kimi qiymətləndirmək olmaz.

Bəziləri xanımının qeyri-uyğun libasda evdən çıxmasına güya ki, hörmətlə yanaşıb iradını söyləmirlər.

Xüsusilə şadlıq və şənlik məclislərində qadınların geyim tərzində vücud görüntüləri sözlə ifadə olunmaz həddə gəlib çatmışdır. Peyğəmbərimiz (s) üsyan və günahda bir-birinin sözünü dinləyənlər haqqında belə buyurur:

مَنْ اَطاعَ اِمْرَأَتَهُ اَكَبَّهُ اللهُ على وَجْهِهِ فى النّارِ

“Hər kim öz arvadına itaət edərsə, Allah onu üzü üstə cəhənnəm atəşinə atar”.

*59 Müstədrəkul-Vəsail, c.11, s.9; Biharul-ənvar, c.71, s.69; Camiul-Əxbar, s.83*
*60 Ət-Təhzib, c.6, s.121*

Hədis, günah və üsyanda qadına itaət etməyi nəzərdə tutur. Amma əgər xanım "camaat namazına gedək", "ziyarətə gedək", "sileyi-rəhm edək" kimi Allahı razı salacaq tələblər edərsə, şübhəsiz ki, bu məqamda arvadını dinləmək gözəl işdir.

Züheyr, Kərbəla yolunda xanımının sözünə qulaq asıb nicat tapdı. Yuxarıdakı hədisin davamında Rəsulullahdan: "Ya Rəsulallah, buyurduğunuz itaət necə bir itaətdir?" soruşulduqda belə buyurdu:

قالَ تَطْلُبُ اليهِ اَنْ تَذْهَبَ الى الحَمّاماتِ والعُرسِ والنِّياحاتِ والثِّيابِ الرِّقاقِ فَيُجيبُها

"Qadının karma (qadın kişinin qarışıq olduğu) hamama, musiqili toya getməsi, ərinin də incə geyim geyməsinə razı olmasıdır".[61]

Peyğəmbərimiz (s) başqa bir hədisində belə buyurur:

لا طاعَةَ لِمَخْلوقٍ فى مَعْصِيَةِ الخالِقِ

"Günah işlətməklə Yaradana itaət olmaz".[62]

Bəziləri isə ilahi əmr olan hicab və iffəti ayaqlarının altına qoyur, sonra qəlbin təmizliyindən danışır və deyir ki, vacib olan qəlbin təmiz olmasıdır.

Axı problem də elə qəlbin təmizliyindən qaynaqlanır. Təmiz qəlb Allaha qarşı olarmı? Bu necə təmiz qəlbdir ki, uca Yaradandan başqa hər şeyə itaət edir?

### 3 . Həyat yoldaşlarının bəzənməsi

Həyat yoldaşlarının bir-biri üçün bəzənməsi, aralarındakı sevgi və məhəbbəti artırar. Ər-arvad geyimlərinə fikir verməlidirlər. Bu məsələ demək olar ki, cəmiyyətin əsas probleminə çevrilib.

---

*61 Vəsailüş-şiə, c.2, s.50; Biharul-ənvar, c.100, s.243*
*62 Mən lə yəhzəruhul fəqih, c.4, s.381; Vəsailüş-şiə, c.16, s.154*

Bir gün bir şəxsin tələsik getdiyini görürlər. Soruşurlar:

Xeyir ola, hara tələsirsən? Həmin şəxs cavabında: – “Xanımım toydan gələcək, təzə paltar geyinib, onu görmək üçün tələsirəm”.

Ər-arvad özlərini çöldə bəzədikləri qədər evdə öz həyat yoldaşları üçün bəzəsəydilər, bir çox problem həll olunardı.

Ravi deyir: “İmam Musa Kazimin hüzuruna getmişdim, saçını qısaltmış, saqqalını boyamışdı. İmama dedim: Cənab, siz çox qəşəng görünürsünüz. İmam buyurdu: Bu, qadınların iffəti üçün çox önəmlidir və sonra əlavə etdi: "Sizlər həyat yoldaşınızın necə olmasını istərdiniz? Çirkli, səliqəsiz, baxımsız olmağını xoşlayarsınızmı? Eyni ilə də onlar sizin baxımlı və səliqəli olmağınızı istəyirlər".[63]

Peyğəmbərimiz buyurur:

إِغْسِلُوا ثِيابَكُمْ وَخُذُوا مِنْ شُعُورِكُمْ وَاسْتاكُوْا وَتَزَيَّنِوا وَتَنَظَّفُوا فَإِنّ بَنِي إِسْرائِيلَ لَمْ يَكُونُوا يَفْعَلُونَ ذٰلِكَ فَزَنَتْ نِسائُهُمْ

“Paltarlarınızı yuyub-təmizləyin, bədəninizi  təmizləyin, ətir vurun və nəzafətə riayət edin. Çünki Bəni-İsrail qövmünün kişiləri çirkli qiyafələrdə yaşayırdılar. Bu səbəbdən onların ardvadları fitnə-fəsada və pis işlərə bulaşdılar”.[64]

Doğrudan da, bəzi insanların kənardan geyimlərinə baxdıqda, insan nifrət etdiyi halda, həyat yoldaşı necə nifrət etməsin. Saqqal yığmaq və kəsmək, başqalarını təqlid etmək, onlara bənzəmək və ya saçınızı şəkildən-şəkilə salmaq səliqəli olmaq demək deyil.

*63 Usuli- Kafi, c.5, s.567; Mən lə yəhzəruhul fəqih, c.1, s.122; Vəsailüş-şiə, c.2, s.88*
*64 Nəhcül-bəlağə, 226-377*

# HİCAB

Quranın nəzərində qadın və kişi insani dəyərinə görə bərabərdirlər. Quran ayələrinə bir az diqqət yetirən, bunu görəcəkdir.

﴿لِلرِّجَالِ نَصِيبٌ مِمَّا اكْتَسَبُوا وَلِلنِّسَاءِ نَصِيبٌ مِمَّا اكْتَسَبْنَ﴾

**“Allahın birinizi digərinizdən üstün etdiyi şeyə tamah salmayın. Kişilərin qazandıqlarından öz nəsibi, qadınların da qazandıqlarından öz nəsibi vardır”.** [65]

Ayədə hər kəsin öz əməlinin qarşılığını alacağı çox açıq şəkildə və suallara yer qoymadan bildirilir.

﴿أَنِّي لاَ أُضِيعُ عَمَلَ عَامِلٍ مِّنكُم مِّن ذَكَرٍ أَوْ أُنثَى﴾

**Rəbbi onlara belə cavab verdi: “Mən, sizlərdən (yaxşı) işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm.**[66]

Uca Allah işi görən şəxsi cinsindən asılı olmayaraq mükafatlandırır və cəzalandırır.

﴿وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ﴾

**Biz, Adəm oğullarını hörmətli etdik.**[67]

Başqa bir ayədə Allah qatında üstünlüyün ancaq təqva ilə olduğu bildirilir:

﴿إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللهِ أَتْقَيكُمْ﴾

---

*65 Nisa,32*
*66 Ali-İmran,195*
*67 İsra-70*

**Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır.** [68]

Əhzab surəsində buyurulur:

﴿إِنَّ الْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ وَالْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَالْقَانِتِينَ وَالْقَانِتَاتِ وَالصَّادِقِينَ وَالصَّادِقَاتِ وَالصَّابِرِينَ وَالصَّابِرَاتِ وَالْخَاشِعِينَ وَالْخَاشِعَاتِ وَالْمُتَصَدِّقِينَ وَالْمُتَصَدِّقَاتِ وَالصَّائِمِينَ وَالصَّائِمَاتِ وَالْحَافِظِينَ فُرُوجَهُمْ وَالْحَافِظَاتِ وَالذَّاكِرِينَ اللَّهَ كَثِيراً وَالذَّاكِرَاتِ اَعَدَّ اللَّهُ لَهُمْ مَغْفِرَةً وَاَجْراً عَظِيماً﴾

**“Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbrli kişilər və səbrli qadınlar, (Allaha) baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və (ismətlərini) qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır”.**[69]

Kişi və qadın arasında fiziki və mənəvi fərqlər ola bilər, qadınlar fiziki cəhətdən zəif, kişilər isə güclüdür, qadınlar emosionaldır, kişilərsə deyil. Amma İslama görə iman, səbir, ibadət və s. məsələlərdə kişi və qadın arasında heç bir fərq yoxdur.

## Quranda hicab

Müqəddəs İslam dini qadınlara bir sıra xüsusi üstünlüklər vermişdir. Onlardan biri də hicabdır. İslam qadınlardan bu mühüm lütfü qoruyub saxlamağı istəmişdir. Təbii ki, kişilərin də hicabı olmalıdır. Qadınlara xitab olunan hicab əmri kişilərə də olunmuşdur.

Qurani-Kərim qadınlar üçün üç növ hicabı tövsiyə etmişdir.

---

*68 Hucurat,13*
*69 Əhzab,35*

**1. Bədənin hicabı:**

﴿وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلٰى جُيُوبِهِنَّ﴾

**"Qadınlar baş örtüklərini yaxalarının üstünə salsınlar"**[70]

Yəni bütün bədənlərini örtsünlər. Ayədə "ximar" sözü uzun örtüyə deyilir. Cahiliyyət dövründə qadınlar ximar adlı bu uzun baş örtüsünü başlarına taxıb qulaqlarının arxasına keçirirdilər.

Bu örtü boğazı və sinəni örtmədiyi üçün onu qabağından bağlamaz, sancmazdılar, bu paltarla küçəyə, bazara çıxanda gənclər, imanı zəif olanlar yüngül və xoşagəlməz sözlər deyirdilər. Bundan sonra yuxarıdakı ayə nazil oldu.

﴿يَا اَيُّهَا النَّبِيُّ قُلْ لِاَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِنْ جَلَابِيبِهِنَّ﴾

**"Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, (naməhrəm yanında) çarşabları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah Bağışlayandır, Rəhmlidir".**[71]

Bütün qadınlara ünvanlanan "cilbab" sözü lüğətdə uzun və enli paltar kimi məna edilir. Uzun və enli paltar İraqda başqa, İranda bir başqa və bizdə də bir başqa ola bilər.

Burada önəmli olan hicabın bədən cizgilərini göstərməyəcək qədər uzun və enli olmasıdır. Bu geyim qadının müsəlman olmasının göstəricisidir. O, hicabıyla hər kəsə "Mən azadam, hörmət və kəramət sahibiyəm, heç kim mənə xəyanət gözü ilə baxa bilməz" mesajını verir.

---

*70 Nur,31*
*71 Əhzab,59*

## Peyğəmbərin pis örtünməyə münasibəti

Qohumlar arasında da örtüyə və hicaba riayət edilməlidir. Ana, bacı, nənə, bibi və süd bacılarından başqa, digərləri naməhrəmdirlər və İslamın örtü ilə bağlı buyurduğu həddə riayət etmək lazımdır.

Nəql edilir ki, Ayşənin bacısı Əsma Peyğəmbərin (s) evinə gəlmişdi və bədənində nazik paltar vardı. Peyğəmbər (s) onu görən kimi üzünü çevirir və buyurur: "Ey Əsma! Bilmirsənmi ki, şəhvətsiz yalnız naməhrəmin əlinə və üzünə baxmaq olar".

İmam Əli (ə) buyurur:

مَنْ رَقَّ ثَوْبُهُ رَقَّ دِيْنُهُ

"Geyimi nazik və şəffaf olanın dini də nazik və zəifdir".[72]

Bədən cizgilərini göstərən nazik paltarlar örtük və hicab hesab olunmaz.

Peyğəmbərimiz (s) buyurur: "İki dəstə cəhənnəm əhlidir, mən onlar kimisini görmədim: Sığırkuyruğu kimi (yarpaqları tikanlı iti bitki-tərc.) qamçılar olub insanlara işgəncə verənlər və bədəni açıq-saçıq olub nazik paltar geyinənlər".[73]

Peyğəmbərimiz (s) Bəqi qəbristanlığının yanından keçərkən uzunqulağa minən bir qadın görür. Qadının örtüyü uzunqulağın ayağına ilişəndə o, yerə yıxılır. Peyğəmbərimiz dərhal üzünü çevirir. Orada olanlar deyirlər: "Ya Rəsulallah, o, şalvar geyinib". Həzrət (s) gülümsəyərək buyurdu: "Qadınların şalvar geyinməsi necə də gözəldir".

Qeyd edək ki, o dövrün şalvarları indiki şalvarlar kimi diqqətçəkən deyildi, geniş və enli idi.

---

*72 Müstədərkül-Vəsail, c.3, s.249; Nəvadirul-Ravendi, s.41*
*73 Peyame Peyğəmbər, s.430*

## 2. Sözün hicabı

İstər kişi, istər də qadın olsun hər kəsin danışığında ölçü və hicab olmalıdır. Bəziləri danışığında ədəb-ərkansız olur, hicab həddini aşır, amma hər bir müsəlman gərək danışığında hicaba riayət etsin, ədəb çərçivəsini qorusun. İki cür danışan qadınlar var:

1. Naz-qəmzə ilə
2. Adi qayda ilə

Quran buyurur:

﴿يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِنَ النِّسَاءِ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلاً مَعْرُوفاً﴾

**"Allahın birinizi digərinizdən üstün etdiyi şeyə tamah salmayın. Kişilərin qazandıqlarından öz nəsibi, qadınların da qazandıqlarından öz nəsibi vardır. Allahdan, Onun lütfünü diləyin. Həqiqətən, Allah hər şeyi biləndir".**[74]

Quran bizə ölçü verib. Qadınlar və kişilər danışığında həddi və hüdudu gözləməlidir.

## 3. Davranış və rəftarda hicab

Şəhid Mürtəza Mütəhhəri deyir: "İnsanın əməl və rəftarının da danışan dili vardır".

Səhər yanınıza gələn birinə "gecə yatmadınmı?" soruşduqda, "hardan bildin?" deyə sual verər. "Şişmiş gözlərindən, solğun sifətindən" deyərsən. Və ya qiymət vərəqəsini alıb evə gələn uşağınızın qapını döyməsi, pilləkənləri çıxması qiymətlərinin necə olduğundan xəbər verir. Yalançının gözləri yalan söylədiyinin göstəricisidir.

Quran buyurur:

---

*74 Nisa,32*

﴿وَيْلٌ لِكُلِّ هُمَزَةٍ لُمَزَةٍ﴾

**"Hər bir qeybət edənin, tənə vuranın vay halına!"[75]**

Bəzilərinin rəftar və davranışları naməhrəmləri sanki dəvət edir ki, "gəl, dost olaq". Bəziləri isə davranış və hərəkətləriylə ətrafına – mənə baxma, utan, əfəndi ol, Allahdan qorx- deyir.

Bunları Qurani-Kərimdən istifadə edirik, Quranda buyurulur:

﴿وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَىٰ﴾

**"Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin".** [76]

Ayədə "təbərrüc" bəzəyi aşkar etmək mənasındadır. Dar şalvarların, boyunbağıların, sırğaların və saçların rəngi təbərrücdür.

Başqa bir ayədə isə ayağını yerə bərk vurmamaq buyurulur:

﴿وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِنْ زِينَتِهِنَّ﴾

**"Gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər".[77]**

Odur ki, xanımlar, yerişinizdə diqqətli olun. Bu gün cəmiyyətdə qadın geyimindən qaynaqlanan qətillər və əxlaqsızlıqlar baş alıb gedir.

Kişi tək öz ailəsinə deyil, dayısı qızı, əmisi qızı, bibisi qızının da küçədəki hərəkətlərinə, davranışına fikir verməlidir.

---

*75 Huməzə,1*
*76 Əhzab,33*
*77 Nur,31*

**Hicabın bir çox faydaları var:**

Fərdi təsiri və faydası: hicablı qadın başqa gözlərin onun üzərində olmadığına əmin olduğu üçün özünü mənəvi cəhətdən rahat hiss edəcək.

Ailədəki təsiri: ailədə əmin-amanlıq və hüzur mənbəyidir və ailədəki kiçik qızlara nümunədir.

Cəmiyyətdəki təsiri: hicabın cəmiyyətə verdiyi faydaları saymaqla qurtara bilmərik.

Qadına mənlik və şəxsiyyət vermək, ona toxunulmazlıq qazandırmaq, pisləri uzaqlaşdırmaq, əqidəsini üzə çıxarmaq, nəfsindən azad olduğunu göstərmək və s. kimi bir çox üstünlüklərə malikdir. Müsəlmanlar bu faydaları nəzərdən qaçırmamalıdırlar.

Hicabsızlıq hər keçən gün adiləşməkdədir. İslam və insanlıq düşmənləri məqsədli və planlı olaraq, İslam cəmiyyətində fəsad yaratmağı qarşılarına məqsəd qoyublar.

# ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR

Demək olar ki, hər kəsin yaxşılığa əmr edib, pis əməllərdən çəkindirmək haqqında səthi məlumatı var. Çünki bu, ağıl və vicdan məsələsidir.

Peyğəmbərimiz buyurur:

مَنْ أَمَرَ بِالْمَعْرُوفِ وَنَهَى عَنِ الْمُنْكَرِ فَهُوَ خَلِيفَةُ اللهِّ فِي الأَرْضِ وَخَلِيفَةُ رَسولِهِ

“Kim yaxşı işlər görməyi əmr edib, pislikdən çəkindirərsə, o, Allahın və Onun Rəsulunun yer üzündə canişinidir”.78

Başqa bir hədisdə isə “əmr be məruf və nəhy əz münkər” prinsipini tərk edən şəxs Allahın sevmədiyi, zəif bir mömin kimi təsvir edilir:

إِنَّ اللهَ عزَّ وجلَّ لَيُبْغِضُ المؤمنَ الضعيفَ الّذي لا دينَ لَهُ، فقيل: وما المؤمنُ الضعيفُ الّذي لا دِينَ لُه؟ قال: الذي لا يَنْهى عَنِ الْمُنْكَرِ

“Allah dini olmayan zəif mömini sevməz. "Ya Rəsulullah, dini olmayan zəif mömin kimdir?" soruşduqda o, buyurdu: O, pisliyi qadağan etməyəndir”. [79]

İmam Əli belə buyurur:

مَن تَرَكَ إنكارَ الْمُنكَرِ بِقَلبِهِ و يَدِهِ ولِسانِهِ فَهُوَ مَيِّتٌ بَينَ الْأَحياءِ

"Kim pisliyi qəlbi ilə, əli ilə və dili ilə tərk etməsə o, dirilər arasında yaşayan ölülər kimidir."80

---

*78 Müstədrəkül-Vəsail, c.12, s.179*
*79 Usuli Kafi, c.5, s.59; Vəsailüş-şiə, c.16, s.122*
*80 ət-Təhzib, c.6, s.181; Vəsailüş-şiə, c.16, s.132*

Bu və buna bənzər hədisləri hamımız eşitmişik və oxumuşuq. Şəhid Mütəhhərinin təbirincə desək, bu iki məsələ cəmiyyətdə unudulan və diqqətdən kənarda qalan məsələlərdəndir.

Evdə və ətrafımızda namaz qılmayan, günah işlədən, içki içən, pis işlərlə məşğul olanlarla necə davranaq? Onları bu pis işlərdən necə çəkindirə bilərik? Buna ancaq ailədə uşaqlara veriləcək möhkəm və düzgün tərbiyə ilə nail ola bilərik. Ailə möhkəm və düzgün olarsa, cəmiyyət də möhkəm və düzgün olar.

## Münkərin azaldılması və mərufun çoxaldılmasının yolları

### 1. Xeyir və şəri tanımaq

Ailədə və cəmiyyətdə xeyiri artırıb, şəri azaltmağın yollarından biri də xeyir və şəri tanıtmaq, uşaq və gənclərə onların nə olduğunu söyləməkdir.

Çünki, bəzən gənc gördüyü işin haram olub-olmadığını bilmir. Dəfələrlə "Qızlarla dostluq etmək haramdırmı" və s. kimi suallarla üzləşirik. Bu kimi suallar onu göstərir ki, ailələr və cəmiyyət məhrəm və naməhrəm məsələsindən xəbərsizdilər.

Quran ilk olaraq təhlükəli vərdişləri tanıtdırır:

﴿وَلَا تُطِعْ كُلَّ حَلَّافٍ مَّهِينٍ﴾

**"Bunlardan heç birinə boyun əymə: çox and içənə, alçaq kimsəyə"![81]**

Yəni "Ya Peyğəmbər, yalan danışan, qeybət edən, sözünü tutmayan və xəyanət edənlərdən uzaq ol".

İmam Səccad (ə) övladına xeyir və şəri belə tanıtdırır; İmam Baqir (ə) buyurur: Atam mənə dedi:

---

*81 Qələm,10*

يَا بُنَيَّ، اُنظُر خَمْسَةً فلا تُصاحِبْهُم ولا تُحَادِثْهُم ولا ترافِقْهُم فِي طَرِيق

"Ey oğul! Bu beş nəfərlə dostluq etmə, onlarla danışma və yol yoldaşlığı etmə:

1. Yalançı ilə; çünki o sənə yaxını uzaq, uzağı yaxın göstərər.

2. Qohumları ilə əlaqəni kəsənlər; çünki sileyi-rəhmi olmayanların Allahın kitabında lənətləndiyini gördüm.

3. Fasiqlə (açıq günah işlədənlərlə); çünki o, səni bir tikəyə və ya daha ucuz qiymətə satar.

4. Xəsis və acgöz; çünki ən çox ehtiyac duyduğunuz anda mülkünüzü sizdən qoparda bilər.

5. Axmaq ilə; çünki o, sənə fayda vermək istəsə də, sənə zərər verər".[82]

İmam Əli (ə) Kufə küçələrinin birində bir gəncin uzun paltarının yerlə süründüyünü gördü. İmam ona yaxınlaşıb: "Paltarını yığ" -dedi, sonra səbəbini belə izah etdi: "Geyimin nəinki natəmiz olar, əksinə, bu sənə təkəbbür və lovğalıq gətirər".

Ata-analar evdə bir şeyi qadağan etdikdə bunun səbəb və zərərini uşaqların anlayacağı şəkildə izah edərək qadağan etməlidirlər. Həqiqətən də gənclərə halal-haramı izah etmək lazımdır, çoxları bunun fərqinə varmadan halalı harama qatırlar.

## 2. Günah mühitinin məhv edilməsi

Ailədə və cəmiyyətdə yaxşılığı artırıb, pisliyi azaltmağın ikinci yolu günah mühitlərini məhv etməkdir. Cəmiyyətdə günah yerləri və mühitləri nə qədər az olarsa, şər də bir o qədər az olar. Camaat əl-

---

*82 Usuli -Kafi, c.2, s.641; Vəsailüş-şiə, c.12, s.32; Müstədrəkul-Vəsail, c.8, s.335*

ələ verərək, meyxana, qumarxana, bar və s. kimi günah yerlərini aradan qaldırmalıdır.

İmam Əli (ə) buyurur:

مَنِ اسْتَحْسَنَ قَبيحاً كانَ شَرِيكاً فيهِ

“Şər və günahı gözəl hesab edən  o günaha şərikdir”[83]

Əgər valideynlər bütün əməllərində pis nümunə olsalar, günaha şərik olmuş olarlar. İslami hicaba əməl etməyən və günaha zəmin yaradanların günahı günah edənlərlə eynidir. Hicabı anasında görüb örtünməyən, atasının namaz qıldığını görüb namaz qılmayan gəncin günahına valideynlər də şərikdir. Quran belə buyurur:

﴿قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ﴾

**“Mömin kişilərə de ki, gözlərini harama baxmaqdan qorusunlar”.**[84]

Gözlərini haramdan saxlasınlar, yəni günah şəraitini yaratmasınlar. İnsan baxmasa, günah dalınca getməz, baxmasa, ürəyini başqasına verib ailəsini pərişan etməz.

İnsan hətta, yerişi ilə belə, günah şəraiti yaratmamalıdır. Quran, həzrət Şüeybin (ə) qızlarını belə vəsf etdi:

﴿جَاءَتْهُ إِحْدَاهُمَا تَمْشِي عَلَى اسْتِحْيَاءٍ﴾

**“Bir qədər sonra qızlardan biri utana-utana onun yanına gəldi”!**[85]

Evində azyaşlı qızı və oğlu olan valideynlər geyimlərinə fikir verməlidirlər. Uşaqlar çox şeyi başa düşürlər.

---

*83 Biharul-ənvar, c.75, s.82; Kəşfül-Ğummə , c.2, s.349*
*84 Nur,30*
*85 Qəsas,25*

## 3. Münkərin qarşısını almaq

Ailədə və cəmiyyətdə xeyiri artırıb, şəri azaltmağın üçüncü yolu dostcasına münkərin qarşısını almaqdır.

İmam Sadiq (ə) buyurur: "Yaxşılığı əmr edib, pislikdən çəkindirmək istəyənlər bu üç xüsusiyyətə malik olmalıdırlar:

عاملٌ بِما يَأْمُرُ بِهِ تارِكٌ لِما يَنْهَى عَنهُ

1-"Söylədiyi yaxşı əməli özü yerinə yetirmiş, söylədiyi pis işdən də çəkinmiş olsun". Namaz qılmayan ata oğluna namaz qılmağı əmr edə bilməz. Örtünməyən ananın qızına hicabı əmr etməsi nə dərəcədə doğru və təsirli ola bilər?

عادلٌ فيما يَأْمُرُ عادلٌ فيما يَنْهَى

2- "Əmr və qadağan etdiyi işlərdə ədalətli olmalıdır".

Dəvətində mötədil, çox gözləntisi olmayan və dinin istədiyini söyləməlidir. Bəzi valideynlər övladlarının edə bilməyəcəyindən artığını gözləməməli, tədricən onları öyrətməlidirlər.

رَفيقٌ فيما يَأْمُرُ رَفيقٌ فيما يَنْهَى

**3.** "Yaxşılığı əmr edib, pislikdən çəkindirəndə dostca və sevgilə hərəkət etməlidir".

Uşaqlarına təsir edəcək insanları axtarıb tapmalı və onların vasitəsi ilə pis işlərdən çəkindirməlidir. Valideynlər övladına təsir etmirsə, övladının sözünü dinləyən dostunu vasitəçi tutmalıdırlar.

## 4. Mərufun (yaxşı işlərin) yayılması

Ailədə və cəmiyyətdə yaxşılığı artırıb, pisliyi azaltmağın dördüncü yolu yaxşılığı yaymaqdır. Yəni ata-ana, bacı-qardaş həmişə bir-birinin gözəlliyindən danışmalıdırlar.

Quran şəxslərdən söz açdıqda, onların yaxşılığından bəhs edir. Həzrət Zəkəriyyə, Yəhya və həyat yoldaşını təsvir edərkən belə buyurur:

﴿فَاسْتَجَبْنَا لَهُ وَوَهَبْنَا لَهُ يَحْيَىٰ وَأَصْلَحْنَا لَهُ زَوْجَهُ﴾

**"Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona (uşaq doğmağa) qadir etdik".**

﴿إِنَّهُمْ كَانُوا يُسَارِعُونَ فِي الْخَيْرَاتِ وَيَدْعُونَنَا رَغَباً وَرَهَباً وَكَانُوا لَنَا خَاشِعِينَ﴾

**"Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti (qullar) idilər".**[86]

Ayədə onların üç xüsusiyyətindən bəhs edilir: Onlar xeyirxah insanlar idilər, ümidlə yaşayırdılar və Allah qarşısında sadiq idilər.

Uca Allah, həzrət İsmayılı (ə) yad edərək belə buyurur:

﴿إِنَّهُ كَانَ صَادِقَ الْوَعْدِ﴾

**"Həqiqətən, o öz vədinə sadiq idi"**[87]

Həzrət Əyyub (ə) haqqında isə söz açaraq belə buyurur:

﴿إِنَّا وَجَدْنَاهُ صَابِراً نِعْمَ الْعَبْدُ إِنَّهُ أَوَّابٌ﴾

**"Həqiqətən, Biz onu səbr edən gördük. Necə də gözəl qul idi! O, daima Allaha üz tutardı".**[88]

---

*86 Ənbiya,90*
*87 Məryəm,54*
*88 Sad,44*

Atalar və analar, Quranın bizə verdiyi bu mesajları örnək götürməliyik. Hər kəsin gözəl tərəfi və cəhəti var, hər zaman insanların yaxşı cəhətlərinə, müsbət yönlərinə baxmaq lazımdır.

İmam Hüseyn (ə), Aşura günü Hürr ibn Yezid Riyahinin hansı cəhətinə baxdı? İmam Hüseyn Hürrə "sən bizim yolumuzu kəsmisən, artıq Bəni-Üməyyənin xidmətindəsən",- demədi. Əksinə, "anan sənə necə gözəl ad qoyub",- dedi. Yəni İmam Hüseyn (ə) onun gözəl tərəfinə baxdı.

Peyğəmbər məsciddə keçmişi pis olan bir gəncin namaz qıldığını görüb, namazı bitdikdən sonra ona: "Afərin, çox gözəl namaz qılırsan"-deyə buyurdu.

Allahın sifətlərindən biri də gözəllikləri aşkara çıxarması, pislikləri gizlətməsidir. Necə ki, bir çox dualarda belə gəlmişdir:

يا مَن أَظْهَرَ الجَمِيلَ و سَتَرَ القَبِيح

**"Ey gözəllikləri aşkar edən və pislikləri gizlədən"**89

Bir gün Peyğəmbərimiz (s) dəfn mərasiminə dəvət olundu. Namaz qılmaq üçün qabağa keçdi və camaat bir-birinə mərhumun pisliklərini danışmağa başladılar. Peyğəmbərimiz (s) üzünü camaata tutub soruşdu: "Sizdən heç kim bu adamın bir yaxşılığını görmədimi?"

Bir kişi: "Ya Rəsulallah, bir gün mənim əvəzimə gözətçilik etdi"- dedikdə, Peyğəmbərimiz (s): "Bu kifayətdir"- dedi və namazını qıldı.

Bizlər də, xüsusilə gənclərin yaxşı tərəflərinə baxmalıyıq. Kiminsə hicabı pis ola bilər, heç olmaya da bilər, amma namaz qılır, oruc tutursa, afərin deyərək ruhlandırmalıyıq, bununla yanaşı etdiyi səhvini də xoş dillə deməliyik.

### 5. Müsbət zəmin yaratmaq

---

*89 Usuli-Kafi, c.2, s.578*

Ata-analar! Bütün gücümüzlə günaha, xətaya olan meylləri haqqa və onun gözəlliyinə yönəltməliyik.

Həzrət Lut (ə) qövmünün günaha bulaşdığını görəndə:

﴿قَالَ يَا قَوْمِ هَٰؤُلَاءِ بَنَاتِي هُنَّ أَطْهَرُ لَكُمْ﴾

**"O, dedi: "Ey qövmüm! Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər".**

Ailə və cəmiyyət bir pisliyi aradan qaldırmaq üçün alternativlər yaratmalıdır. Valideynlər evdə nəyisə qadağan etmək istədikdə mütləq o qadağan olunanın yaratdığı boşluğu daha faydalı bir şeylə doldurmalıdırlar.

# TƏLİMDƏKİ SƏHVLƏR

Uşaqların təlim məsələsi dövrümüzün ən vacib məsələlərindən biridir. Övladlarımızı necə namaz qılan, təqvalı və zəhmətkeş insanlar kimi yetişdirə bilərik? Təbii ki, onları öyrətmək və təlim-tərbiyə etməklə.

### Təlim və tərbiyə nədir?

Maarifləndirmək, öyrətmək istedadları üzə çıxarmaq, tozlu fitrətin tozunu təmizləmək deməkdir. Hər kəsin saf və pak fitrəti var, hər kəs günahsız yaradılıb və heç kim günahkar, üsyankar kimi doğulmayıb. Zamanla insanlar bütpərəstliyə yönəldi, zamanla həqiqət yalana, mərhəmət zülmə, sevgi isə zorakılığa çevrildi.

Övladlarımızı və ətrafımızı təmiz fitrətə qaytardığımız zaman təlim və tərbiyə borcumuzu yerinə yetirmiş olarıq. Əslində ərəbcə toxum səpmək, onun çürüməməsi və yaşıllaşması üçün görülən işlərə təlim və tərbiyə deyilir.

# TƏLİMİN MƏQSƏDİ

Təlimin məqsədi nədir? Təlim nə üçündür?

Cavabı tək kəlmə ilə: "Özümüz və ətrafımızla problem yaşamamaq və sülh yaratmaqdır". Təlim və tərbiyəli insan Allah qarşısındakı borcunu, özünə və ətrafına qarşı vəzifələrini bilərək, Allahın bəndəsi olduğunu dərk edər. Belə olan halda sübh oyanıb namaz qılmaq, qızmar yayda oruc tutmaq, xüms və zəkat vermək çətin olmayacaq.

Quranda təlim edən mənasını verən "Rəbb" sözü çox işlənir:

﴿وَاعْبُدُوا رَبَّكُمْ﴾

**"Rəbbinizə ibadət edin"**[90]

---

*90 Həcc,77*

﴿يَا أَيُّهَا النَّاسُ اعْبُدُوا رَبَّكُمُ﴾

**“Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə (Allahdan) qorxasınız”.**[91]

Təlim-tərbiyəsi olan adam pis sözlər danışmaz, ata-anasına üsyan etməz, qonşuya işgəncə verməz, ətrafı çirkləndirməz. Bir sözlə, insanlara və ətrafına heç bir zərəri toxunmaz. Təlim - tərbiyə təmiz və saf fitrətin çirklənməsinin qarşısını almaq deməkdir. Təlim- tərbiyə iki cürdür: doğru və yanlış.

Məsələn: Bir gəncin məsuliyyətini daşıyan ata-ana, müəllim, onun xətasını gördükdə nə edəcək? Ya doğru bir formada tərbiyə edər, ya da yanlış bir hərəkətlə vəziyyəti daha da pis həddə gətirər.

Hər kəsin gözü qarşısında səhvini söyləyib onu rəzil etmək, yanlış tərbiyədir. Məsələn, şagirdini tənbeh etmək, valideynlərinə xəbər vermək və s. amma səhvini özünə deyərsə, bir də bunu etmə - deyib, səhvini görməməzlikdən gələrsə, onunla yaxından maraqlanmağa başlayarsa, bu artıq düzgün tərbiyədir.

Ata-anaların, ümumiyyətlə tərbiyəçilərin problemi məhz tərbiyə yollarını bilməməsindən qaynaqlanır.

### Hüzeyfənin uğuru

Bir gün səhabələrdən olan Hüzeyfədən uğurunun sirrini soruşdular. Hüzeyfə dedi: “Peyğəmbərin (s) hüzuruna gələn hər kəs yaxşılıq və savab əməllər haqqında soruşardılar, lakin mən hər dəfə Rəsulullahı görəndə pis və şər işlərdən soruşardım”.

Peyğəmbərdən sonra Hüzeyfənin iştirak etmədiyi dəfn mərasimlərində deyirdilər ki, Hüzeyfə gəlmədisə, deməli bu adam pis adamdır.

---

*91 Bəqərə,21*

Hədislərdə belə buyurulur: “Ağıllı o kəsdir ki, xeyir və şəri tanıyır, onlardan ən pisini və ən şərrini ayrıd edir”.

Şəri və pislikləri tanıyan şəxs xeyiri və yaxşılığı da tanıyacaq.

## Peyğəmbərin pis  adlara münasibəti

Peyğəmbərimiz insanları irşad və hidayət etməyə başladığı andan etibarən etdiyi mühüm işlərdən biri də pis və mənasız adları dəyişdirmək olmuşdur.

اَنَّ رسولَ اللهِ كان يُغَيِّرُ الاَسماءَ الْقَبِيحَةَ فى الرِّجالِ و البُلْدان

“Peyğəmbər məbus olduqdan sonra pis adları olan insan və şəhərlərin adlarını dəyişdirdi”.[92]

Məsələn, adı Asi olan şəxsə Cəmilə adını qoydu. Bir Nəsrani Peyğəmbərin yanına gəldi. Peyğəmbər ondan soruşdu: "Adın nədir?", kişi Əbdüş-Şəms deyəndə Peyğəmbərimiz onun adını Əbdül-Vəhhab qoydu. Atalar, analar, böyük bacı-qardaşlar uşaqlara pis adlar, ləqəblər və heyvan adları qoymamalıdırlar. Adlar dəqiq və tam tələffüz edilməlidir.

Gözəl adların qoyulması ilə bağlı onlarla hədis vardır. Peyğəmbərimiz (s) buyurur:

سَمُّوا أَاوْلادَكُم أَسماءَ الاَنْبياءِ

“Övladlarınıza peyğəmbərlərin adlarını qoyun”[93]

---

*92Vəsailüş-şiə, c.21, s.390; Biharul-Ənvar, c.101, s.271*
*93Biharul-Ənvar, c.101, s.92; Məkarimul-Əxlaq, s.220*

## Peyğəmbər və gözəl ləqəblər

İmam Hüseyn hələ kiçik yaşlarında olarkən Peyğəmbər (s) ona Əbu Abdullah deyərdi. Übey ibn Kəb belə nəql edir: Biz Peyğəmbərin (s) yanında oturmuşduq, birdən imam Hüseyn (ə) içəri daxil oldu, Peyğəmbər (s) ona tərəf dönüb dedi:

مَرْحَبا بِكَ يا ابا عبدِ الله يا زَينَ السموات والارضين

“Xoş gəldin, ey Əbu Abdullah, ey yerin və göyün zinəti”.[94]

Bəzən valideynlər uşaqlarını təhqiramiz adlarla çağırarlar. Onları sübh namazına zəhərli sözlərlə oyadarlar. Bəs harda qalır sevgi və mərhəmət?

## Pis ləqəblər və adlar uşaqlar üçün təsirlidir!

Bir gün Əbuzər Peyğəmbərin (s) yanında olan bir kişiyə səsləndi: "Ey zənci qadının oğlu!". Peyğəmbər (s) bunu eşidəndə narahat olaraq belə buyurdu: "Ey Əbuzər, nə dedin?" Əbuzər: "Ya Rəsulullah, səhv etdim, diqqətsiz oldum"- dedi və dərhal o kişidən üzr istədi.

Bir gün Müaviyənin yanına Şərik ibn Avər adlı bir şəxs gəlir. Müaviyə bəzən insanları məsxərəyə qoyar, lağ və tənə edərdi. Şərik ibn Avərin atasının gözləri çəp idi. Müaviyə Şərik ibn Avərə dedi: “Necə də pis adın var”. Şərik ibn Avər hazırcavab olduğu üçün dərhal dedi: "Ey Müaviyə ibn Hərb Sağr! Mənim adımda bir eyib varsa, sənin adında üç eyib var; Müaviyə hürən it, hərb müharibə, sağrsa qayalıq deməkdir”. Müaviyə utanaraq başını aşağı salıb dedi: “İnsanın öz dilinə hakim olmaması necə də pisdir”.[95]

---

*94Biharul-Ənvar, c.36, s.204.*
*95Hezaru Yek Hekayəti Əxlaqi, s.108*

**Təhqir və kiçiltmək**

Yanlış təlim-tərbiyənin bir digəri də təhqir və alçaltmaqdır. Ailədə təhqir və alçaltmaq ailənin səmimiyyətinə və əmin-amanlığına xələl gətirir.

Hədis kitablarımızda insanları təhqir etmək, alçaltmaq haqqında yüzlərlə rəvayət nəql edilmişdir. Rəsulullah (s) buyurur:

لاتُحَقِّرَنَّ اَحَداً مِن المُسلِمينَ فَاِنَّ صَغِرَهُم عِنْدَ الله كَبير

"Müsəlmanlardan heç birini təhqir etmə. Sizin nəzərinizdə kiçik olan Allah yanında böyük ola bilər. Təəssüf ki, Allahın qəbul etdiyini qəbul etməkdə çətinlik çəkirik. Ata-analar və ailə üzvləri bir-birlərini bağışlamağı Allahdan, Peyğəmbərdən (s) və onun Əhli-beytindən öyrənməlidirlər. Necə ki, Quranda buyurulur:

﴿قُلْ يَا عِبَادِيَ الَّذِينَ اَسْرَفُوا عَلَى اَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللهِ اِنَّ اللهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعاً﴾

**“Qullarıma mənim bu sözümü de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir”!”**[96]

Diqqət etsək, Peyğəmbərimiz (s) məkkəlilərin tövbəsini qəbul etdi. İmam Hüseyn Kərbəlada Hürrü bağışladı və qəbul etdi. Biz nə üçün bağışlanma və əfv yolunu seçmirik? İnsanları təhqir edib alçaldanlar, əslində, Allaha qarşı müharibə elan etmişlər. İmam Sadiq (ə) buyurur:

قالَ اللهُ عزوجل لِيأذَنْ بِحَربٍ منّي مَن آذى عَبديَ المؤمنَ

“Allah-taala buyurmuşdur: “Mömin bəndəmi təhqir edən kəs, mənimlə döyüşə qalxmışdır.”

---

*96Zümər,53*

Bir kişi imam Sadiqin (ə) yanına gəlib dedi:

“Bir kasıb var, biz ona zəkatımızı veririk, amma ona bu zəkatdır-desək, narahat olar”. İmam buyurdu:

اَعْطِهِ ولا تُسَمِّ لَهُ ولا تُذِلَّ الْمُؤْمِنَ

“Kömək et, amma ona bir ad qoyma və mömini rüsvay etmə.”[97]

Yəni ona kömək etməyə davam et, amma bunun zəkat və sədəqə olduğunu demə, bunun uşaqlar üçün hədiyyə olduğunu de.

Bir kişi imam Rzanın (ə) yanına gələrək kömək istəyir, imam heç nə demədən əlini qapının arxasından uzadıb ona "bu dinarları, götür"-deyir.

Ravi Süleyman deyir: “Soruşdum ki, ey ağam, bəs niyə pul verən zaman özünü göstərmədin, qapının arxasından verdin?” İmam cavabında belə buyurdu: “Ondan qorxdum ki, hacətini yerinə yetirdiyim üçün xəcaləti onun üzündə müşahidə edəm. ”

Ata- analar, ailələr bilməlidirlər ki, həyat yoldaşını, övladını, qohum-əqrəbasını təhqir etmək təlim-tərbiyədə çox pis və çirkin bir üsuldur.

## İstehza və məsxərə

İmam Səccad (ə) buyurur:

"Qiyamət günü üzlərində ət olmayan bir dəstəni məhşərə gətirəcəklər. (ətsiz üzün çirkinliyi haqqında fikirləşin.) Məhşər əhli soruşar: "Bunlar kimlərdi, günahları nədir?" Onlara belə cavab verilər:

---

*97Usuli-Kafi, c.3, s.563; Mən lə yəhzəruhul fəqih, c.2, s.13; ət-Təhzib, c.4, s.103*

"Bunlar, möminlərə işgəncə verən və istehza edənlərdir. Sonra əmr olunar ki, onları Cəhənnəmə aparsınlar."[98]

Hədislərdə belə buyurulur:

"Bu cür insanlara Qiyamət günü deyiləcək, qaçın cənnətə. Onlar qaçaraq cənnətin qapısına çatacaqlar, ancaq qapılar onların üzlərinə açılmayacaq. Yenə qayıdarlar və yenə deyərlər: cənnətə tərəf qaçın, yenə çatdıqları vaxt qapılar onların üzlərinə çırpılar. Bu hərəkət onlar yorulana qədər belə davam edər".

Quran buyurur:

﴿اَللّٰهُ يَسْتَهْزِئُ بِهِمْ﴾

**"Allah da onlara istehza edər."**[99]

Quran məsxərə və istehza etməyi açıq şəkildə qadağan edir:

﴿لَا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ﴾

**"Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın".**[100]

Bu ayə Sabit ibn Qeys ibn Şəmmas haqda nazil olmuşdur. Sabitin qulaqları ağır eşidirdi. Məscidə daxil olanda Peyğəmbərin (s) mübarək kəlamlarını eşitmək üçün ona minbərin yaxınlığında oturmağa yer verirdilər.

Bir gün o, yenə məscidə gəldi. Camaat sübh namazını artıq qılıb qurtarmış, hərə bir yerdə oturmuşdu. Sabit də başqa günlərdə olduğu kimi Peyğəmbərin (s) yaxınlığında oturmağa cəhd göstərirdi. Buna görə də: "Yol verin, yol verin, qoyun Peyğəmbərin (s) yanında əyləşim", - deyə adamları yararaq minbərə tərəf irəliləyirdi.

Nəhayət, məsciddəkilərdən biri ona: "Elə buradaca otur" - dedi.

---

*98Usuli- Kafi, c.2, s.351; Vəsailüş-şiə, c.12, s.264; Biharul-ənvar, c.7, s.201*
*99Bəqərə,15*
*100Hucurat , 11*

O da orada əyləşdi, lakin Peyğəmbərin (s) yanında oturmaq üçün ona yol vermədiklərinə görə çox narahat oldu. Hava işıqlaşandan sonra o soruşdu: “Sən kimsən?”

Həmin şəxs cavab verdi: “Mən filankəsəm.”

Sabit: “Filan arvadın övladı?!” - deyə onun anasının adını elə çəkdi ki, (cahiliyyət dövründə belə bir təbiri tənə kimi qəbul edirdilər) sonra bu ayə nazil oldu.

لَا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ

**“Bir qövm digərini məsxərəyə qoymasın”.** [101]

Əxlaq alimləri deyirlər: “Gəlin birlikdə gülək, amma bir-birimizə gülməyək”. Birlikdə gülmək ilə bir-birinə gülmək arasında böyük fərq vardı.

## Söyüş söymək

Bir çox qadın və kişilər həyat yoldaşlarının söyüşlərindən şikayətlənirlər. İmam Əli (ə) söyüş söyənlər haqqında belə buyurur:

“Söyüş söyən müsəlman ola bilməz”. Hədislərimizdə belə buyurulur: “Küfr və söyüş söyən insanların həyatına aşağıdakı üç mənfi hal girər:

نَزَعَ اللهُ مِنْهُ بَرَكَةَ رِزْقِهِ

1. “Allah ruzisindən bərəkəti qaldırar”.

وَوَكَلَهُ الى نَفْسِهِ

2- “Allah onu özbaşına buraxar”.

وَاَفْسَدَ عليه مَعِيشَتَهُ

*101Təfsir-Nümunə, c.22, s.177*

3- “Həyat və dolanışıq nizamını pozar”.

## Söyüşcül və pis ifadələri tez-tez işlədən kəslərə Peyğəmbərimizin münasibəti

Mədinədə ağzıyırtıq iki kişi vardı, davamlı küçədə və məhəllədə qızlara söz atar, arxalarınca - bu belədir, o da elədir,- deyib əylənərdilər.

Bir gün Peyğəmbər (s) küçədən keçərkən o iki kişinin hər zamankı kimi söyüşlə danışdığını eşidib onları Mədinədən sürgün etdi.

Möminin ağzında söz-söhbəti təmiz və mənalı olar. Söyüş insan olan yaradılışa yaraşmaz.

## Yaxşılığı başa qaxmaq

İmam Sadiq (ə) buyurur:

وَمَنْ عَيَّرَ مُؤمِناً بِشَيءٍ لَمْ يَمُتْ حَتى يَرْكَبَهُ

“Kim bir mömini səhv və ya xətasına görə qınayıb, məzəmmət edərsə, ölməzdən əvvəl özü həmin xətaya düçar olar”.102

Ata və analar övladlarını etdikləri səhvlərinə görə ağır sözlərlə danlayıb qınamamalıdırlar. Allah Rəsulu (s) buyurur:

اَكْرِمُوا اوْلادَكُم

"Övladlarınıza hörmət edin."[103]

---

*102Usuli Kafi, c.2, s.356; Vəsailüş-şiə, c.12, s.276;*
*103Müstədrəkül-Vəsail, c.15, s.168*

# ƏDALƏTSİZLİK VƏ AYRI-SEÇKİLİK

Ailə üzvləri arasında ədalətsizlik və ayrı-seçkilik səmimi və isti ailə münasibətlərini pozan, kin və nifrət yaradan amillərdəndir.

Ata-analar və böyüklər! Uşaqlar arasında ədalətsizlik təlim-tərbiyəyə sarsıdıcı və mənfi təsir göstərir. Valideynlər övladları arasında ədalətli olmalıdırlar ki, uşaqlar haqsızlıq və ayrı-seçkilik hissinə qapılmasınlar.

Quran buyurur:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ لِلّٰهِ شُهَدَاءَ بِالْقِسْطِ﴾

**"Ey iman gətirənlər! Özünüzün, atan-anızın və ya qohumlarınızın əleyhinə olsa belə, daim ədaləti təmin edən və) Allah üçün şahidlik edən kimsələr olun"**[104]

Yenə belə buyurur:

﴿ وَلَا يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ عَلَى أَلَّا تَعْدِلُوا اعْدِلُوا هُوَ أَقْرَبُ لِلتَّقْوَى ﴾

**"Ey iman gətirənlər, Allah üçün ədaləti təmin edən şahidlər olun! Bir qrup insana qarşı bəslədiyiniz kin sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır".** [105]

Yəni müsəlmanam deyib yalnız sözdə müsəlman olmayaq. Qohum-əqrəbanın, dost-tanışın səhvlərini görməməzlikdən gəlib, digərlərinə qarşı olan kininizi göstərmək, sizin səhv yolda olduğunuzun göstəricisidir. Valideynlərin övladlarından birinə qarşı qəzəbi onu haqsızlığa sürükləyə bilər.

---

*104Nisa,135*
*105Maidə,8*

## Heç bir şey ədalətə maneə deyil!

Biz imamlarımızdan belə gördük və belə öyrəndik: heç vaxt ədalətdən dönməmiş, dönməyə də cəhd etməmişlər.

Übeydullah ibn Hürr Cufi Siffeyn döyüşündə Müaviyənin tərəfini tutan və İmam Əliyə (ə) qılınc çəkən şəxslərdən idi. Onun müharibədə öldüyü xəbəri yayılır ancaq xəbər təsdiqini tapmadan arvadı Küfədə başqası ilə evlənir. Übeydullah Şamda bu xəbəri eşidən kimi Kufəyə gələrək İmam Əlinin (ə) qapısını döyür. İmam qapını açıb:

-Übeydullah, sən Siffeyndə bizə qarşı döyüşmədinmi?

-Bəli, dedi. Amma bir çətinliyim var. Həyat yoldaşım məni ölü bildi və başqası ilə evləndi, indi mənə kömək edin”.

Biz olsaydıq nə edərdik?

Bəlkə qəzəblə, nifrətlə “Bizə pislik etdin, qanımızı tökdün!” və nalayiq sözlərlə qapımızdan qovardıq.

İmam Əli (ə) qapısına imdada gələn düşməninin keçmişinə məhəl qoymayaraq dərhal onun arvadının gətirilməsini əmr edir. Übeydullahın arvadı hamilə olduğu üçün ona Beytülmaldan bir ev tutub və uşaq doğulana qədər orada qalmasını və doğulduqdan sonra Übeydullahın yanına qayıtmasını əmr edir.

Övlad sevgisi, qohumluq sevgisi, pul və hakimiyyət insanları ədalətdən yayındırmamalıdır. Hüquq daima ali olduğu yerdə qalmalıdır.

Ədalət Quranın açıq-aydın əmridir:

﴿إِنَّ اللهَ يَأْمُرُ بِالْعَدْلِ﴾

**“Şübhəsiz ki, Allah ədalətli olmağı əmr edir”**[106]

Ədalət humanist, vicdanlı və ümumbəşər bir prinsipdir. Peyğəmbərimiz (s) buyurur:

---

*106Nəhl,90*

وَأُمِرْتُ لِأَعْدِلَ بَيْنَكُمُ

“Mənə sizin aranızda ədalətli olmaq əmr olundu.” Peyğəmbərimiz ədalətə hökm edilməmişdən əvvəl ədalətli, səbirli, özünə inamlı və əmin bir insan idi.

**Uşaqlar arasında ədalət**

Uşaqlar arasında ədalət və ayrı-seçkilik etməmək haqqında yüzlərlə hədis vardır. Ata və ana övladlarından birini çox sevə bilər, amma digər uşaqlarına bunu hiss etdirməməlidirlər. Uşaqlar valideynlərinin hamısını eyni dərəcədə sevdiyini görməlidirlər.

İmam Sadiq (ə) buyurur: “Biz bəzi övladlarımızı daha çox sevirik, amma onu da digər övladımızı da dizlərimizin üstə alıb fərq qoymadan sığal çəkib, oxşayırıq”.

Əgər övladlarınızdan birinin ad gününü qeyd edirsinizsə, eyni şeyi digəri üçün də edin. Birinin evinə gedəndə digərinin də evinə gedin. Səfərdən gələndə fərq qoymadan eyni hədiyyələr gətirin.

Allahın Rəsulu (s) buyurur:

سارُوا بَيْنَ أَوْلادِكُم فِي العَطِيَّه

“Hədiyyə alarkən övladlarınız arasında ədalətli olun”.[107]

Bu gün olduğu kimi keçmişdə də qız və oğlan övladı arasında fərq qoyulurdu. Peyğəmbərimiz (s) buyurur:

“Qız və oğlan övladı arasında fərq qoymayan valideyni Allah cənnətlə müjdələyər”.[108]

Yusifin qardaşları niyə həzrəti Yusifi quyuya atdılar? Bu barədə ayədə buyurulur:

---

*107 Mizanul-Hikmə, c.11, s.4882; Nəhcül-Fəsah, s.517, h.1728*
*108 Müstədrəkül-Vəsail, c.15, s.118; Availul-Aləm, c.1, s.181*

﴿إِذْ قَالُواْ لَيُوسُفُ وَأَخُوهُ أَحَبُّ إِلَى أَبِينَا﴾

**“Biz bütöv bir dəstə olmağımıza baxmayaraq, Yusif və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir.**[109]

Bəlkə də həzrət Yəqub (ə) övladlarına olan məhəbbətində onları bir qədər şübhəyə salmışdı.

Ayə açıq şəkildə ata-analara, müəllimlərə, övladlar arasında ayrı-seçkilik etməməyi, ədalətlə rəftar etməyi əmr edir. Peyğəmbərimiz, səhabələrinə diqqətdə, qayğıda və hətta onları dinləməsində belə bərabər davranırdı.

Hətta imam Həsən və imam Hüseynin bərabərliyini belə pozmadı. Peyğəmbərimizin sözlərində bunu açıq şəkildə görə bilərik.

“Həsən və Hüseyn cənnət cavanlarının ağalarıdır”.
“Həsən və Hüseyn iki imamdır”.
“Həsən və Hüseyn mənim güllərimdir”.

Uşaqlar böyüyüb ailə qursalar, uşaq sahibi olsalar belə, valideynlər yenə də bu qaydaya əməl etməlidirlər.

---

*109 Yusif,8*

# MƏCBURİYYƏT VƏ İKRAH

Əvvəllər ailədaxili təzyiqlər, valideynlər tərəfindən məcburiyyət adi hal idisə, bu gün ailələr belə qənaətə gəliblər ki, məhkumluq və məcburiyyətlə heç bir yerə çatmaq mümkün deyil.

Uca Allah da Peyğəmbərinə (s) buyurmuşdur: "Sən heç kimi müsəlman olmağa, onları öz əqidə və inancını dəyişməyə məcbur edə bilməzsən".

﴿فَذَكِّرْ إِنَّمَا أَنتَ مُذَكِّرٌ لَّسْتَ عَلَيْهِم بِمُصَيْطِرٍ﴾

**"Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən.**[110]

Yəni insanları məcbur edərək imana və dinə gətirə bilməzsən.

﴿فَإِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا﴾

**"Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun".**[111]

## Quranda məcburiyyət yoxdur!

Hamımız bu ayəni təkrar-təkrar eşitmişik və oxumuşuq:

﴿لَا إِكْرَاهَ فِي الدِّينِ قَدْ تَبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ﴾

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir.**[112]

Bu ayənin nazil olmasının səbəbi olduqca diqqətə layiqdir. Mədinədə Əbu Həsin adlı bir səhabə var idi. Bu səhabənin də iki oğlu var idi. O vaxt xristianlıq bugünkü kimi müxtəlif vəsilələrdə təbliğ olunurdu. Şamdan gələn ticarət karvanları Mədinəyə gəlib alış-veriş bəhanəsi ilə gənclərə xristianlığı təbliğ edirdi.

---

*110 Ğaşiyə, 21-22*
*111 İnsan,3*
*112 Bəqərə,256*

Nəhayət, Əbu Həsinin oğulları xristianlığı qəbul etdi və xristianlar onları özləri ilə Şama apardılar. Əbu Həsin kədərli və qəmgin halda Rəsulullahın (s) yanına gəlib dedi:

"Ey Allahın Rəsulu! Oğullarım xristian olub Şama getdilər. Nə etməyimi istəyirsiniz? “Şama gedib onları gətirəcəyəm və müsəlman olana qədər döyəcəyəm” dedi. Bu zaman yuxarıda qeyd olunan ayə nazil oldu.[113]

Peyğəmbərimiz Nəcran xristianları ilə etdiyi mübahilədə onları müsəlman olmağa məcbur etməmiş və belə demişdir:

“Cizyə vermək şərti ilə öz inancınızda qalıb burada yaşaya bilərsiniz”.

## TƏLİM-TƏRBİYƏDƏ DÜZGÜN METODLAR

Təlim - tərbiyənin düzgün və əsaslı yollarını aşağıdakı kimi ümumiləşdirə bilərik:

### 1. Doğru və yanlışı birlikdə söyləmək

Valideynlər övladlarına bir şeyi qadağan etmək istədikdə, o qadağanın səbəbini də izah etməlidirlər. Alkoqol, siqaret, qumar və s. qadağaların zərərlərini də izah etmək vacibdir.

Quran orucun hökmünü açıqlayarkən onun fəlsəfəsini də izah edir:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾

**“Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz”.**[114]

Namazı vacib edərkən onun fəlsəfəsini də qeyd edir:

---

*113 Təfsir-Nümunə c.2, s.278*
*114 Bəqərə,183*

﴿وَاَقِمِ الصَّلٰوةَ اِنَّ الصَّلٰوةَ تَنْهٰى عَنِ الْفَحْشَاۤءِ وَالْمُنْكَرِ﴾

**"Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə (ibadətlərin) ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir".**[115]

Müəllimlər, valideynlər bu məsələyə diqqət yetirməlidirlər. Əmr və qadağanın fəlsəfəsini izah etmək çox təsirlidir.

## 2. Bacarıqlara diqqət yetirmək

Bunununla bağlı imam Əli (ə) buyurur:

إِنَّ لِلقُلوبِ شَهوَةً وَكَراهَةً وَإقبالاً وَإدبارً فَتوها مِن إقبالِها وَشَهوَتِها، فَإِنَّ القَلبَ إِذا أُكرِهَ عَمِيَ

"Qəlblərin iradəsi, meyli və üz döndərməsi vardır, ona görə də qəlblərə onların meylinə və istəyinə uyğun yaxınlaşın, çünki qəlb bir işə məcbur olanda kor olar".[116]

Duyğular, hisslər, vərdişlər və istəklər müxtəlifdir, hər kəs eyni şəkildə islah olunmaz. Bəziləri hədiyyələrlə, bəziləri həvəslə, bəziləri sevgi və məhəbbətlə, bəziləri qəzəblə və s. əxlaqi vasitələrlə islah olunarlar. İmam Əlinin (ə) buyurduğunu sadə şəkildə belə şərh etmək olar: "Hər kəsə öz xasiyyətinə və daşıya biləcəyi yükə görə təbliğ etmək lazımdır. Yəni hər kəsin nəbzinə uyğun şərbət verilməlidir".

İmam Sadiq (ə) buyurur: "Hər kəsin imandan bir, iki, üç və ya yeddiyə qədər payı vardır". İmam əlavə etdi: "İmandan bir payı olanlara iki pay yükləyə bilməzsiniz, çünki onlar buna dözə bilməzlər". Bir litrlik vedrəyə iki litr su qoysanız, bir litr yerə töküləcək. Övladların qabiliyyəti də belədir. Valideynlər buna diqqət yetirməlidirlər. Bəzən tövbə edib namaza başlayanlar, xəta edib qəza namazına da eyni anda

*115 Ənkəbut,45*
*116 Nəhcül- bəlağə,hikmət 193*

başlayırlar. Bu da tezliklə onların namazdan soyumasına və tamamilə tərk etməsinə səbəb olar.

### 3. Nəzarət etmək, hər şeyə müdaxilə etməmək

Təlim və tərbiyədə diqqət yetirilməli olan mühüm məsələlərdən biri də uşaqlara nəzarətdir. Təəssüf ki, valideynlər övladlarına lazım olduğundan daha çox müdaxilə edirlər. Məsələn, bir gün Peyğəmbər (s) Fatimənin (s.ə) evinə gəldi və gördü ki, qapıda təzə pərdə asılıb. Rəsulullah (s) hal-əhval soruşub dərhal çıxdı. Fatimə (s.ə) atasının bu vəziyyətdən narahat olduğunu anladı və pərdəni çıxarıb Peyğəmbərə (s) göndərdi. Rəsulullah (s) qızının bu həssas davranışı qarşısında belə buyurmuşdur: "Atası ona fəda olsun".

Nəzarət buna deyilir, Peyğəmbərimiz (s) danlamadı, hirslənmədi, səsini yüksəltmədi.

Bir gün Peyğəmbərimizə (s) sədəqə olaraq bir miqdar xurma gətirdilər, imam Həsən və imam Hüseyn o xurmanı ağızlarına aparmaq istədikdə Rəsulullah (s) dərhal onların ağızlarından xurmanı çıxarıb: "Sədəqə bizə haramdır" deyə buyurdu. Peyğəmbərin (s) bu hərəkətinə nəzarət deyilir.

Ravi deyir: "Biz İmam Baqirin (ə) hüzurunda idik. İmam Sadiq (ə) hələ o vaxt gənc idi, otaqdan bayıra çıxmağa hazırlaşırdı ki, imam Baqir (ə) oğlundan soruşdu: "Paltarını yoxlayıb düzəltdinmi?" Mən soruşdum. "Ağa, onun paltarında bir nöqsan yoxdur, niyə belə dediniz?" İmam buyurdu: "Onun paltarı uzundur, yerlə sürünür." İmama dedim: "Ağa, niyə onun paltarının uzun olduğunu birbaşa söyləmədiniz?" İmam buyurdu: "Mən istədim ki, bunu özü başa düşsün". Təlim və tərbiyədə dolayı xəbərdarlığın nə qədər vacib və təsirli olub-olmaması müzakirə edilir.

İmam barmağını birbaşa səhvə qoymur, dolayısı ilə xəbərdarlıq edir. Bu gün artıq uşaq otağında internet, telefon var. Valideynlər nəzarət məqsədi ilə vaxtaşırı uşaqlarının otağına girib-çıxmalıdırlar.

### 4. Səhv və yanlışın əsasını aradan qaldırmaq

Hər səhvin bir zəmini vardır, diqqət etsək, işsizliyin çox olduğu yerlərdə oğurluq, dava-dalaş, hay-küy çox olar, cavanlar daha çox kafelərdə vaxt keçirərlər. İş, fabrik olan yerlədə isə gənclər  çörək və iş arxasınca qaçarlar.

Evlilik yaşı 25-30 olarsa, artıq şəhvət günah zamininə çevrilər.

﴿وَلْيَسْتَعْفِفِ الَّذِينَ لَا يَجِدُونَ نِكَاحاً﴾

**Qoy evlənməyə imkanı olmayanlar, ismətlərini qorusunlar.**[117]

Ana 20 yaşlı oğlunun yanında geyiminə, ata isə qızının yanında oturub-durmağına fikir verməlidir. Bunonla da bir çox günah zəmininin qarşısını almaq olar.

## Uşaqlara dəyər və şəxsiyyət vermək

Valideynlər yeniyetmə övladlarına hörmət etməli, onlara şəxsiyyət verib, ucaltmalıdırlar. Çünki Allah Quranda insan oğluna dəyər və üstünlük vermişdir.

﴿وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ﴾

**"Biz, Adəm oğullarını hörmətli etdik"**[118]

### Hədislərdə dəyər və üstünlük

Peyğəmbərimizdən və imamlarımızdan nəql olunan hədislərdə insana böyük dəyər verilir. İmam Əli (ə) buyurur:

مَنْ كَرُمَتْ عليهِ نَفْسُهُ لَمْ يُهِنْها بالْمَعْصِيَةِ

"Özünü dəyərli bilənlər günaha yaxınlaşmazlar"[119]

---

*117 Nur,33*
*118 İsra,70*
*119 Müstədrəkül-Vəsail, c.11, s.339; Ğürərul- Hikəm, h.4610*

Hədis bizə bunu demək istəyir; bir az ləyaqəti, şərəfi, şəxsiyyəti olan insan özünü rüsvay edib günah dalınca getməz. Yalan danışmaq şəxsiyyətsiz adamın işidir, həsəd aparmaq nəfs sahibinin işidir, qeybət etmək zavallı və alçaqların işidir.

Valideynlər gənc övladlarının özlərini küçəyə, bazara təslim etmələrinin, mənəvi dəyərləri tapdalamalarının səbəbini axtarmalıdırlar.

Görəsən evdə sevgi və məhəbbətdən kənardamı qalıblar? Görəsən onları daim alçaldıb, təhqirmi ediblər? Bəlkə də onlar evdə tapa bilmədikləri şəxsiyyəti, dəyəri küçələrdə, məhəllələrdə axtarırlar?

İmam Səccad (ə) buyurur:

مَنْ كَرُمَتْ عليهِ نَفْسُهُ لَمْ هانَتْ عليهِ الدُّنْيا

"Dünya özünü dəyərli hesab edənin yanında kiçik olar."

Ata və analar! Peyğəmbərimizin (s) bu əmrinə diqqət edək:

اَكْرِموا اَوْلادَكُمْ

"Uşaqlarınıza dəyər və şəxsiyyət verin."[120]

**Dəyərlər nədir və uşaqlara necə şəxsiyyət vermək olar?**

### a) Uşaqdan icazə almaq

Uşaqlara dəyər və şəxsiyyət vermənin ilk yolu, haqqı olduğu yerdə onlardan icazə almaqdır.

Hədislərimizdə belə nəql olunur:

*120 Müstədrəkül-Vəsail, c.15, s.168; Peyam-e Peyğəmbər, s.726*

"Uşaqların hüquqlarından istifadə etmək istəyəndə onların icazəsini alın".

Məsələn, camaat namazında uşaqlar ön sırada otururlarsa, kim gəlirsə gəlsin, Ayətullah gəlsə belə, onu oradan uzaqlaşdırmağa heç kimin haqqı yoxdur. Ora uşağın haqqıdır, ona hörmət edilməlidir.

İmam Baqirdən (ə) soruşduqda ki: "Əgər uşaqlar camaat namazında ön cərgədə oturarsa, biz nə etməliyik?" O, həzrət buyurdu:

قال: لا تُؤَخِّرُوهُم عن الصلاةِ وَفَرِّقُوا بَيْنَهُم

"Onları yerlərindən qaldırmayın, böyüklər onların arasında dursun."

Məsciddəki ağsaqqalların səhv və xətaları ucbatından xəbəriniz varmı nə qədər uşaq məsciddən qaçır? Bunun günahını kim öz üzərinə götürəcək? Bu uşaqlar məscidin və cəmiyyətin gələcəyidirlər.

### Rəsulullah (s) gəncdən icazə alır!

Bir gün Peyğəmbər (s) məsciddə və ya məclislərin birində içəcək paylayırdı. Növbə bir uşağa yetişdi. Peyğəmbər (s) bir neçə ağsaqqal kişinin gözlədiyini gördü və növbəsi olan uşağa dedi: "İcazə verirsən, birinci qocalara verim?" Uşaq "Yox, mənim növbəmdir" dedikdə, Rəsulullah (s) onu uşağa verdi.

Burada uşağın ədəb və ya ədəbsizlik məsələsini qeyd etmirəm. Diqqətinizi həzrət Peyğəmbərin (s) ciddiliklə, hüquq və qanunlara əməl etməyinə çəkmək istəyirəm. Peyğəmbərimiz (s) uşaq hüquqlarına bu qədər diqqət yetirdiyi halda biz necə davranırıq?

### b) Uşaqların oyunlarında yoldaşlıq etmək

Uşaqlara dəyər və şəxsiyyət vermənin ikinci yolu böyüklərin onların oyununda iştirak etməsidir.

Peyğəmbərimiz (s) məscidə gedərkən uşaqlar onu mühasirəyə alardılar. Çünki onlar görmüşdülər ki, Peyğəmbər (s) gah imam Həsəni, gah da imam Hüseyni mübarək çiyinlərinə götürür. Uşaqlar Peyğəmbərin paltarından tutub dedilər: "Bizimlə oynayarsanmı?" Peyğəmbər (s) uşaqlarla oynamağa başladı, bu vaxt Bilal qaçaraq gəlib dedi: "Ya Rəsulullah! Namazın fəzilətli vaxtı keçir."

Peyğəmbərimiz (s) buyurdu: "Qoy namazın fəzilətli vaxtı keçsin, istəmirəm bu uşaqların qəlbi qırılsın" sonra belə dedi: "Get gör evdə qoz varmı?" Evdən bir az qoz gətirdilər, beləliklə Peyğəmbər (s) qozu uşaqlar arasında paylayıb onları sevindirdi, daha sonra isə məscidə getdi.

Bu rəvayətdə ata-analar, tərbiyəçilər və bizlər üçün çox mənalı və tərbiyəvi mesajlar, dərslər var.

Biz valideyn olaraq uşaqlarımıza nə qədər vaxt ayırırıq, onlarla nə qədər maraqlanırıq? Onların proqramlarında və oyunlarında nə dərəcədə iştirak edirik?

## c) Uşaqları müdafiə etmək

Uşaqlara dəyər və şəxsiyyət vermənin üçüncü yolu onları müdafiə etməkdir.

Valideynlərin səhvlərindən biri də övladlarını dinləmədən, onları danlayıb, mühakimə etmələridir. Bu səhvə yol verməmək üçün, əvvəlcə övladlarını dinləməli, sonra mühakimə etməlidirlər. Bir gün Əbu Hənifə imam Kazimdən (ə) şikayət etmək üçün imam Sadiqin (ə) yanına gəlib imama dedi: "Mən izdihamlı bir yerdən keçirdim, oğlunuz imam Kazim orada namaz qılırdı. Namazı izdihamlı, səs-küy az olan yerdə qılmaq lazımdır". İmam Sadiq (ə) buyurdu: "İmam Kazimi mənim yanıma çağırın". İmam Kazim (ə) atasının yanına gəlib, salam verdi və əyləşdi.

İmam Sadiq (ə) buyurdu:

- "Oğlum, Əbu Hənifə deyir ki, sən izdihamlı və səs-küylü bir yerdə namaz qılmısan?"

- İmam Kazim (ə): "Bəli ata, amma, mən elə bir şəxslə danışırdım ki..." Danışdığım Özü mənə belə buyurur:

﴿وَنَحْنُ اَقْرَبُ اِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ﴾

**Biz ona şah damarından da yaxınıq.**[121]

-Ata, mənim camaatın səs-küyündən xəbərim yox idi. O, mənə insanlardan daha yaxındır. İmam Sadiq (ə) Əbu Hənifəyə dedi: "Cavabını aldınmı?"

Diqqət etsək, İmam Sadiq (ə) dərhal oğlunu danlamadı, onu yanına çağırdı, hadisəni soruşdu və onu sona qədər dinlədi.

## d) Uşaqların dini dünyagörüşünün təkmilləşdirilməsi

Uşaqlara dəyər və şəxsiyyət vermənin dördüncü yolu onların dini dünyagörüşünün formalaşmasında dini proqramlarda iştirakına şərait yaratmaqdır. İmam Baqir (ə) buyurur: "Atam müsibət və sıxıntı ilə üzləşdikdə, bütün ailəsini toplayıb namaz qılar və bizdən duasına amin deməyimizi istəyərdi". Peyğəmbərimiz (s) cümə günü ailəsini yığıb dua edərdi və ailəsinə: "Cümə günü dualar qəbul olar, siz də amin deyin" deyə buyurardı.

Bəli, uşaqlara sevgi, məhəbbət və hörmət göstərmək onların tərbiyəsində çox təsirlidir.

Necə ki, İmam Əli (ə) buyurur: "Ağıllılar söz və əməllə, heyvanlar isə döyülməklə yetişdirilir (tərbiyə olunur)".

---

*121 Qaf,16*

# AİLƏ ƏLAQƏLƏRİNİ MÖHKƏMLƏNDİRƏN AMİLLƏR

Ailədə ixlas və nizam-intizamı gücləndirən, əvəzedilməz olan mühüm amillər vardır.

İslamda ailənin mövqeyi çox önəmlidir. Quran, həyat yoldaşlarını bir- birinin libası, əmin-amanlıq mənbəyi, göz nuru və s. olduğunu vurğulayır. Sual budur ki, hansı ailə nizamı bunları ehtiva edir?

Ailə səmimiyyətinin və nizamının möhkəmlənməsinə səbəb olan amillər aşağıdakılardır:

## 1- Qarşılıqlı ehtiram

Qarşılıqlı təqdir və təşəkkür ailədə səmimiyyəti və sevgini artıran amillərdəndir. Allahın sifətlərindən biri də zəhmətləri qarşılıqsız qoymayan, mükafatlandıran mənasını verən "şəkür" sifətidir.

Gördüyünüz kimi, Allah da şükür edəndir.

﴿إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ﴾

**"Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir".**[122]

Bəndəsi əməlisaleh bir iş görəndə Allah ona necə təşəkkür edir?

Allahın bizim namazımıza, orucumuza təşəkkür etməsi bizə bol ruzi verməsi, üzərimizə rəhmətini şamil etməsi, dualarımızı qəbul edib cənnətə göndərməsidir.

﴿رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ﴾

*122 Şüra,23*

**“Ey Rəbbimiz! Bizə həm (bu) dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi od əzabından qoru!”– deyənləri də vardır.**[123]

Allahın təşəkkürü yaxşılığın qarşılığında təmənnasız yaxşılıq etməkdir:

﴿هَلْ جَزَاءُ الإِحْسَانِ إِلا الإِحْسَانُ﴾

**“Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi?”**[124]

Gəlin, Allahın bu sifətini ailələrdə yayaq. Valideynlərinə təşəkkür etməyən uşaq, Allaha şükür etməmişdir.

Quran bunun izahında belə buyurur:

﴿وَاعْبُدُواْ اللّهَ وَلاَ تُشْرِكُواْ بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا﴾

**Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə yaxşılıq edin!**[125]

İmam Sadiq (ə) buyurur:

"Sənə ehsan və xidmət edənə təşəkkür et, sənə təşəkkür edənə də ehsan et. Nemətlər nankorluqla azalar, şükürlə isə əldə saxlanılar. Şübhəsiz ki, nemətlər şükürlə artar və yoxsulluqdan amanda qalınar."[126]

Bəziləri deyir ki, “Bu evin çölü üçün keçərlidir, evdə olmaz”.

Xeyr, bir kişi ədəbli arvadına görə onun ata-anasına təşəkkür etməlidir ki, ona bu neməti veribdi. Eləcə də qadın mömin yoldaşına görə ərinin valideynlərinə təşəkkür etməlidir.

---

*123 Bəqərə,201*
*124 Rəhman,60*
*125 Nisa,36*
*126 Usuli- Kafi, c.2, s.94; Vəsailüş-şiə, c.15, s.315; Biharul-ənvar, c.13, s.360*

Təəssüf ki, bəziləri təşəkkür etmək bir yana, hələ üstəlik, təhqir də edirlər. Hətta bəziləri yoldaşının dünyadan getmiş valideynlərini də söyürlər.

Peyğəmbərimiz (s) buyurur:

**لاتَسُبُوا الاَمْواتَ فَتُؤْذُوا الاَحْياء**

“Ölüləri söyməklə dirilərə işgəncə verməyin.”[127]

Bu gün həyatınıza ortaq etdiyiniz həyat yoldaşınızın anası ona süd verib, atası isə əziyyət çəkibdir.

Peyğəmbərin (s) maddi vəziyyəti bir az yaxşılaşdıqda süd anası Həliməyə hədiyyə olaraq 40 qoyun göndərdi. Səhabələr: "Ya Rəsulullah! Bu çox deyilmi?" O, “Mənə süd verib” deyə cavab verdi.

Həyat yoldaşları qarşılıqlı təşəkkürü bir-birlərinə borc və vəzifə bilməli, bir-birlərinin fədakarlıq və zəhmətlərini unutmamalıdırlar.

Ərinin yoxsulluğuna, işsizliyinə səbr edən, yoldaşı ilə birlikdə işləyib, uşaqları böyüdən və s. kimi zəhmətlərə dözən qadınlar olsa da, ancaq maddi vəziyyəti bir az düzəldikdən sonra, bütün bunları görməməzlikdən gəlib onu kiçildən kişilər də vardır. Bu, insafsızlıq və nankorluqdur.

## Peyğəmbər və İmamların həyat yoldaşına dəyər verib əziz tutması

Sevgili Peyğəmbərimizin (s) sadiq həyat yoldaşı həzrət Xədicə vəfat etdikdən sonra onun haqqında həmişə belə deyərdi:

*127 Əd-Dəavət, 278; Camiul-Əxbar, s160; Nəhcül-Fəsahə, h.2453*

“Hamı məni yalanladıqda, o, məni əmin bildi. Hamı məndən hər şeyini əsirgəyəndə o, malını mənim ixtiyarıma buraxdı. Heç kimin inanmadığı gün o, mənə iman gətirdi.”[128]

Mərhum Feyzi Kaşani "Mehəccətul Beyza" kitabında belə nəql edir:

Həzrət Zəhranın (s) şəhadətindən bir gün sonra imam Əli (ə) bir şəxsə belə dedi:

-Fatimənin kim olduğunu və nə etdiyini bilirsinizmi?

Kişi: -Xeyr, ağam- dedi.

- O, evimə o qədər su daşıdı ki, kəndir bədənində iz buraxdı. O qədər buğda dəyirmanını çevirdi ki, əlləri qabar bağladı, ocağıma o qədər odun qoydu ki, paltarından tüstü, his iyi gəldi. Diqqət etsək, imam Əli (ə) zövcəsinin zəhmətlərini xatırlamaqla ona təşəkkür edirdi.

## 2. Mötədil (orta) olmaq

Ailə səmimiyyətinin və nizamının möhkəmlənməsinə səbəb olan ikinci amil həyat yoldaşlarının bir-birinə qarşı mötədil olmalarıdır. Yəni, həyatlarında hər cür ifrat və təfritdən çəkinməlidirlər. Quran bu məsələni xüsusi vurğulamışdır.

Peyğəmbərə (s): “Nədən infaq edək?”- soruşulduqda, onlara cavab olaraq bu ayə nazil oldu:

﴿يَسْـَٔلُونَكَ مَاذَا يُنْفِقُونَ قُلْ مَا اَنْفَقْتُمْ مِنْ خَيْرٍ﴾

**“Səndən nə infaq edəcəklərini soruşurlar. De ki: “Malınızdan verəcəyiniz hər bir xeyir**[129]

Digər ayədə belə buyurulur:

---

*128Biharul-ənvar, c.16, s.8; Kəşful-Ğummə, c.1, s.508*
*129Bəqərə 215*

﴿وَالَّذِينَ اِذَا اَنْفَقُوا لَمْ يُسْرِفُوا وَلَمْ يَقْتُرُوا وَكَانَ بَيْنَ ذٰلِكَ قَوَاماً﴾

**“Həmçinin (Allahın xalis qulları) o kəslərdir ki, xərclədikləri zaman nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar”.**[130]

Onlar orta səviyyədədirlər; nə səpələyərlər, nə də xəsislik edərlər. Həmişə orta həddi saxlamalı, nə tamamilə simic, nə də tamamilə israfçı olmalıyıq. Biz bu qaydanı ailə iqtisadiyyatına hakim etməliyik.

Ailəni alış-veriş və ehtiyaclarını ödəməkdə nə çox sıxmalı, nə də israf edib ailəyə hər şeyi ala biləcək düşüncəsi yaratmalıyıq.

İmam Əli (ə) buyurur: “Mömin öz həyatında mötədildir”.[131]

Ailədə mötədilliyə riayət edilməlidir, ana qızı ilə nə qədər səmimi olsa da, oğul atası ilə top oynamağa, gəzməyə getsə belə, ata və ana atalıq və analıq vəzifəsini yerinə yetirməlidirlər. Övladlar da övlad olduqlarını unutmamalıdırlar.

Həyat yoldaşları bir-birinə nə qədər səmimi və hörmətli olsalar da, arvad ərinin kişi, kişi də onun qadın olduğunu unutmamalı, sevgi və hörmət həddini aşmamalıdırlar.

## Valideyn və həyat yoldaşı arasında tarazlıq

Ailənin nizam və səmimiyyətində valideynlərlə həyat yoldaşı arasında mötədilliyi və tarazlığı qorumaq çox vacibdir. Nə valideynlər unudulmalı, nə də həyat yoldaşının hüquqları əldən getməlidir. Valideynlər övladlarının həyatına nəzarət etməlidirlər, lakin lazımsız yerə müdaxilə olunmamalıdır. Bu gün boşanmalarda rol oynayan mühüm amillərdən biri də valideynlərin övladlarının həyatına həddindən artıq qarışmasıdır.

---

*130Furqan 67*
*131Ğürərul-Hikəm, h.8052*

Peyğəmbərimiz (s) qızının evinə nəzarət edirdi, amma heç vaxt qarışmazdı. Yol göstərmək, təcrübə ötürmək və məsləhət vermək müdaxilə deyil. Əksinə, evliliyin səmimiyyəti və davamlılığında yaxşı bir bələdçidir.

## 3- Əhdə vəfa

İmam Əli (ə) buyurur: "Allahın vacib buyurduqları arasında əhd-peymanlara sadiq olmaq kimi ehtiram göstərdikləri, qəti şəkildə razılaşdıqları heç bir şey yoxdur. Hətta müşriklər də öz aralarında ona itaət edir və sədaqəti hər şeydən üstün tuturdular.[132]

Yenə İmam Əli (ə) buyurur: "Dinin mahiyyəti iki şeydir: əmanətçilik və əhdə vəfa."[133]

Yaşadığımız dünyada və xüsusən də ailə mühitində əhdə vəfalı olmasaq, ailə rahatlıq və xoşbəxtlik tapa bilməz. Ailədə hər kəs sözünün üstündə durmağı bacarmalıdır.

### Əhdə vəfalı olmağın əsas yolları

Ailədə səmimiyyət və mənəvi rahatlıq naminə hər kəs öz əhdinə sadiq olmalı, verdiyi sözün üstündə durmağa çalışmalıdır. İnsanların verdiyi müəyyən vədlər və əhdlər vardır. Onlar:

**a) Allahın əhdinə sadiqlik**

Quranda Allaha verilən vəd haqqında belə buyurulur:

﴿الَّذِينَ يُوفُونَ بِعَهْدِ اللهِ﴾

*132Nəhcül-Bəlağə, Məktub, 53*
*133Ğürərul-Hikəm, h. 1407*

**"Onlar Allaha verdikləri vədi yerinə yetirən və əhdi pozmayan kimsələrdir".[134]**

Allahla bağlanan əhdin mənası Allaha itaət etməkdir.

﴿إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ﴾

**"Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik".135**

Yasin surəsində belə deyilir:

﴿اَلَمْ اَعْهَدْ اِلَيْكُمْ يَا بَنِي اٰدَمَ اَنْ لَا تَعْبُدُوا الشَّيْطَانَ اِنَّهُ لَكُمْ عَدُوٌّ مُبِينٌ وَاَنِ اعْبُدُونِي هٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ﴾

**"Ey Adəm oğulları! Mən sizə: "Şeytana ibadət etməyin! O, sizin açıq-aşkar düşməninizdir", - deyə əmr etmədimmi?! Mənə ibadət edin. Doğru yol budur!"**136

Allahla bağlanmış əhdə vəfalı olmaq; ailədə səmimiyyət, sevgi, cəmiyyətdə hörmət və s. kimi gözəlliklər olaraq qulun özünə qayıdar.

**b) İmamla əhd-peymana sadiqlik**

Biz də imamla bağladığımız əhdə sadiq olmalıyıq. İmam Rza (ə) buyurur:

إِنَّ لِكُلِّ إِمَامٍ عَهْدًا فِيْ عُنُقِ أَولِيَائِهِ وَ شِيْعَتِهِ وَ إِنَّ مِنْ تَمَامِ الوَفَاءِ بِالْعَهْدِ وَ حُسْنِ الْأَدَاءِ زِيَارَةُ قُبُوْرِهِمْ، فَمَنْ زَارَهُم رَغْبَةً فِيْ زِيَارَتِهِمْ و تَصْدِيْقًا بِمَا رَغِبُوْا فِيْهِ كَانَ أَئِمَّتُهُم شُفَعَائَهُمْ يَوْمَ القِيامَةِ

"Hər bir imamın onu və şiəsini sevənlərlə əhd-peymanı və vəzifəsi vardır. Bu vəzifəyə tam sadiq olmaq, onların məzarlarını tələb olunduğu kimi ziyarət etməkdir. Kim ki, (onları) böyük maraqla ziyarət edər və maraqlarını qəbul edərsə, İmamlar da Qiyamət günü onlara şəfaətçi olar."[137]

---

*134Rəd, 20*
*135Fatihə,6-7-8*
*136Yasin,60-61*
*137Usuli- Kafi, c.4, s.567; ət-Təhzib, c.6, s.78; Biharul-ənvar, c.97, s.117*

### c) Xalqla əhd-peymana sadiqlik

İnsanlar öz aralarında verdikləri vədlərə və əhdlərə sadiq olmalıdırlar. Ata-analar, uşaqlar, böyüklər, hər kəs vədinə sadiq olmalıdır. Bu, dinimizin əmridir. Necə ki, Peyğəmbərimiz (s) buyurur:

لاَ إِيمَانَ لِمَنْ لاَ أَمَانَةَ لَهُ، وَلاَ دِينَ لِمَنْ لاَ عَهْدَ لَهُ

“Əmanətdar olmayanın imanı olmaz, əhdinə sadiq olmayanın isə dini olmaz”.[138]

Quran, həzrət İsmayılı (ə) vəsf edərkən belə buyurur:

﴿وَاذْكُرْ فِي الْكِتَابِ اِسْمٰ"عِيلَ اِنَّهُ كَانَ صَادِقَ الْوَعْدِ وَكَانَ رَسُولاً نَبِيّاً﴾

**Kitabda İsmaili də an! Həqiqətən, o, sözünə sadiq idi. O, həm Rəsul, həm də nəbi idi.**[139]

Peyğəmbərlər öz əhdlərinə sadiq idilər. Peyğəmbərlərimiz və imamlarımız əhdə vəfa baxımından ən gözəl nümunədirlər.

Valideynlər vədlərinə əməl edərək övladlarını tərbiyə etməlidirlər. Ailədə böyüklər uşaqları "başlarından etmək" üçün tutmayacaqları və edə bilməyəcəkləri vədlər verməməlidirlər. Çünki uşaqlar valideynlərinin etdikləri və dedikləri hər şeyi düzgün qəbul edirlər.

### 4. Nəsihəti qəbul etmək

Nəsihətlərə qulaq asmaq ailədə səmimiyyət və nizamın möhkəmlənməsinə təsiri inkar edilməyəcək qədər açıq-aşkardır.

Peyğəmbərimiz (s) üç dəfə belə buyurdu:

---

*138Müstədrəkül-Vəsail, c.16, s.96; Biharul-ənvar, c.69, s.197; Camiul-əxbar, s.74.*
*139Məryəm,54*

اِنَّ الدِّينَ النَّصِيحَةُ اِنَّ الدِّينَ النَّصِيحَةُ اِنَّ الدِّينَ النَّصِيحَةُ

"Din nəsihətdir, din nəsihətdir, din nəsihətdir."[140]

Hər kəs bir-birinin xeyirini, gözəlliyini istəməli və pis əməlləri haqqında nəsihət etməlidir. Peyğəmbərimizin (s) dəfələrlə həzrət Cəbrayilə: "Qardaşım, mənə nəsihət et"- dediyi nəql edilmişdir. Peyğəmbər (s) kimi birinin nəsihətə ehtiyacı varsa, bizim nəsihətdən uzaq durmağımız haramdır.

Nəsihət edərkən üslubu düzgün seçməliyik. Nəsihəti bəzən birbaşa, bəzən də dolayı yolla etmək lazımdır. Ailələr bu məsələyə önəm verməli, bir-birlərinin nəsihətini qəbul etməlidirlər.

İmam Həsən (ə) və imam Hüseyn (ə) yanlış dəstəmaz alan yaşlı adamı gördükdə yanına gedib –"Əmi, biz dəstəmaz mövzusunda mübahisə edirik: biz dəstəmaz alaq, sən bax, hansımız doğru dəstəmaz alırıq"- deyərək dolayı yolla o yanlışı düzəldirlər.

Bir hədisdə belə buyurulur:

الْمُؤْمِنُ يَحْتَاجُ إِلَى ثَلَاثِ خِصَالٍ

**"Möminin üç xüsusiyyətə ehtiyacı vardır:**

تَوْفِيقٍ مِنَ اللهِ عَزَّ وَجَلَّ،

**1-Allahdan bir qələbə:** Allah insana uğur verməzsə, heç bir şey edə bilməz. İmam Zaman duasında belə oxuyuruq:

"Rəbbimiz, özümüzə zülm etdik."

اَللّٰهُمَّ ارْزُقْنا تَوْفيقَ الطّاعَةِ

"Allahım bizə itaətdə uğur ver".

وَوَاعِظٍ مِنْ نَفْسِهِ

*140Ravzatul-Vaizin, c.2, s.424*

**2. Nəsihət edən bir nəsihətçi:** Kimsə başqa birinə nəsihət etdimi? İnsan qürur və təkəbbürə qapılmamalı, nəsihəti qəbul etməlidir. Alimlərdən biri belə deyir: Adəmlə şeytanın fərqi bu idi: Adəm xətasının fərqinə vararaq dedi:

﴿رَبَّنَا ظَلَمْنَا أَنفُسَنَا﴾

**"Rəbbimiz, özümüzə zülm etdik"**[141]

Şeytan da xətasının fərqinə vardı, ancaq belə dedi:

﴿رَبِّ بِمَآ أَغْوَيْتَنِي﴾

**"Rəbbim! Məni azdırdın."**[142]

وَقَبُولٍ مِمَّنْ يَنْصَحُهُ

**3.Edilən nəsihəti qəbul etmək:** İnsan bəzən oturub öz-özünü nəsihət etməlidir.

**5. Dini duyğuları gücləndirmək**

Ailədə mənəviyyatı və dini duyğuları gücləndirmək ailəyə səmimiyyət, sevgi və hüzur gətirir. Müqəddəs İslam dini ailənin mənəviyyatına çox önəm vermişdir. Uşaq dünyaya gələndə sağ qulağına azan, sol qulağına iqamə oxunması, qurban kəsilməsi, saçının qırxılıb ağırlığında sədəqə verilməsi, gözəl ad qoyulması, uşağa namaz və Quran öyrədilməsi, bunların hamısı doğru, səmimi və dindar bir ailə olmaq üçün edilən tövsiyələrdir.

Quran belə buyurur:

﴿يا اَيُّهَا الَّذينَ اٰمَنُوا قُوا اَنْفُسَكُمْ وَاَهْليكُمْ نَاراً وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ﴾

**"Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və**

---

*141-Əraf, 23*
*142-Hicr, 39*

**daşlar olan oddan qoruyun!. ”[143]**

Ayəni oxuyan səhabələrdən biri dayana bilməyib yerə yıxıldı, yüksək səslə ağlamağa başladı və dedi: “Ya Rəsulallah! Mən özümü atəşdən qurtarmaq gücünə sahib deyiləm, ailəmin məsuliyyətini necə üzərimdən qaldırım?”

Allah Rəsulu (s) belə buyurdu:

حَسْبُكَ اَنْ تَأْمُرَهُمْ بِما تَأْمُرُ بِهِ نَفْسَكَوَتَنْهاهُم عَمّا تَنْهى عَنْهُ نَفْسَكَ

"Öz nəfsini yaxşılığa əmr edib, pislikdən çəkindirdiyin kimi, ailənə də yaxşılığı əmr edib pislikdən çəkindirməyin kifayət edər."[144]

Ata və analar övladlarına ilk gündən bəzi İslami və insani dəyərləri öyrətməlidirlər. Yalan danışmamağı, insanların şəxsiyyəti ilə oynamamağı, sözündə durmağı, böyüklərə hörmətsizlik etməməyi və başqa dəyərlər ailədə tətbiq edilərək göstərilməlidir.

Məxsusən, Avropa kimi yerlərdə yaşayan analar övladları üçün halal və haram mövzusunda həssas olmalıdırlar. Yemək və içkilərə qatılmış; jelatin, alkoqol və s maddələrin zərərli olduğunu başa salmalıdırlar.

Əsirlər Kufəyə gətiriləndə həzrət Zeynəb (s.ə) verilən sədəqələri uşaqların əlindən alaraq belə buyurdu: “Bizə sədəqə haramdır”.

Həzrət Zeynəbin bu hərəkəti uşaqlara halal və haramı öyrətmək idi.

Bəziləri deyir ki, “Uşaqlarımıza namaz qıl,-deyirik amma qılmırlar, namazı sevib qılmaları üçün nə etməliyik?

Bunları edə bilərik:

- Bəzən namaz fərqli yöntəmlərlə təşviq edilməlidir;
- Bəzən namazın önəmi və faydaları izah edilməlidir;

---

*143-Təhrim, 6*

*144-Usuli- Kafi, c.5, s.62; ət-Təhzib, c.6, s.178; Vəsailüş-Şiə, c.16, s.247*

- Bəzən dostları vasitəsi ilə təsir dairəsinə salınmalıdır;
- Bəzən ata və ana narahatlığını hiss etdirməlidir;

### 6. Süni və saxta görünmək

Ailə fərdləri süni və saxta hərəkətlərdən uzaq durmalıdırlar.

Zəhmətli və çətin olsa da insan bir sıra ibadətləri və əməlləri etmək məcburiyyətindədir: namaz qılmaq, oruc tutmaq, çalışmaq, öyrənmək və öyrətmək, mənən ibadəti pak tutmaq və s.

"Təkəllüf" yəni özünü zəhmətə salmaq, riyakarlıq etmək, özündən zəhmətkeş obrazı düzəltmək.

Peyğəmbərimizin (s) ən çox işlətdiyi sözlərdən biri bu idi:

﴿وَمَا أَنَا مِنَ الْمُتَكَلِّفِينَ﴾

"Mən düzənbazlardan (yalan yerinə peyğəmbərlik roluna girmişlərdən) deyiləm".[145]

Yenə belə buyurur: "Biz peyğəmbərlər və ümmətimin ən yaxşıları öz həyatlarında özünü zəhmətə salmaq, riya və süni hərəkət etmirik".

İnsan gücü çatmayan şeylərə məcbur edilməməlidir. Məsələn: birinin idarəçilik bacarığı yoxdursa, zorla özünü lider elan etməməlidir.

Valideynlər ailədəki nizam və səmimiyyətin aradan getməməsi üçün bir-birlərini edə bilməyəcəklərilə məcburiyyətə salmamalıdırlar.

Valideynlər, uşaqlarının bacarığı qədər gözləntidə olmalı, güc və bacarıqlarından artığını istəməməlidirlər, böyük olduqları üçün hər şeyi etdirə bilərik düşüncəsində olmamalıdırlar. Ailə fərdlərinin bütöv olduğunu, hər hansı birinin xətası hamıya təsir edəcəyini unutmamalıdırlar.

---

*145-Sad, 86*

**7. Hörməti qorumaq**

Ailə fərdləri, ailədə səmimiyyət və nizamın möhkəmlənməsi üçün bir-birlərinə sayğılı davranışı qorumalı, bir-birlərinin şəxsiyyət və hörmətinə kölgə düşürməməlidirlər. Çünki uca Allah insanlara şərəf və kəramət vermişdir.

Quran belə buyurur:

﴿وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ﴾

**"And olsun biz insanoğlunu şərəfli/dəyərli etdik".**[146]

Bu şərəf və kəramətə ağıl, şüur, dərk etmək və vicdan daxildir. Digər şərəf və kəramət insanların zəhmət çəkib qazandığı şəxsiyyət və qürurdur. Kəramət və şərəf Allahın sifətlərindən biridir. Quran belə buyurur:

﴿اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ﴾

**"Oxu və Rəbbin hədsiz kərəm sahibidir".**[147]

İmam Sadiq (ə) belə buyurur:

لا يَنْبَغِيلِلْمُؤْمِنِ أَنْ يَذِلَّ نَفْسَهُ

"Mömin özünü rəzil və cılız vəziyyətə düşürmək haqqına sahib deyildir".

Yəni ailə fərdləri bir-birlərinə qarşı elə hərəkət etməlidirlər ki, təhqir, alçaltmaq qoxusu gəlməsin. Məxsusən ər-arvad bir-birlərinin şəxsiyyət və dəyərini uşaqların yanında qorumalıdırlar.

İmam Baqir (ə) buyurur:

"Uşaqlar camaat namazında ön sırada oturanda onları qaldırmayın,

---

*146-İsra, 70*
*147-Ələq, 3*

aralarında böyüklər otursun".

Diqqət edək ki, bu çox önəmli bir mövzudur, çünki uşağı qaldırmaq onun şəxsiyyət və qüruruna toxuna bilər. Nəticədə onun məsciddən uzaqlaşmasına gətirib çıxarar.

Uşaqlarımıza şiddət, zor tətbiq etməklə Quran və elm öyrətmək yanlışdır. Uşağın səviyyəsinə və əxlaqına enilməlidir. Valideynlərin uşaqlarını təhqir edib onlara xoş olmayan adlar qoyması da onların şəxsiyyət və qüruruna zərər verən bir hal hesab olunur.

Peyğəmbərimiz (s) belə buyurur:

مَنْ كانَ عِنْدَهُ صبِيٌّ فَلْيَتَصابَ لَهُ

"Uşağı olan, uşaq əxlaqı ilə onunla irtibat qursun."[148]

Peyğəmbərimiz (s) uşaqları görəndə onlara salam verirdi, onlarla vaxt keçirib, oynayırdı.

İmam Sadiq (ə) belə buyurur:

إنَّ المَرءَ يَحتاجُ فِي مَنزِلِهِ وعِيالِهِ إلى ثَلاثِ خِلالٍ يَتَكَلَّفُها وإن لَم يَكُن فِي طَبعِهِ

"İnsan evinə və ailəsinə qarşı üç özəlliyi daşımalıdır. Bu özəlliklər onun təbiətində olmasa belə, əldə edilməlidir":[149]

مُعاشَرَةٌ جَميلَةٍ

**1-Gözəl keçinmək:** Gözəl bir yaşamın gözəl bir davranışa ehtiyacı vardır. Yəni danışıq və davranışlar gözəl olmalıdır.

Quran belə buyurur:

﴿وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ﴾

**"Onlarla yaxşı və gözəl keçinin".**[150]

---

*148-Mən Lə Yəhzəruhul –Fəqih, c.3, s.483; Vəsailuş-Şiə, c.21, s.486*
*149-Biharul-ənvar, c.75, s.235; Tuheful-Ukul, s.322, h.63*
*150-Nisa, 19*

İnsan necə yaxşı və gözəl keçinməlidir? Haradan başlamalıdır? İlk öncə özündən başlamalıdır. Peyğəmbərimiz saqqalını, saçını düzəldib, gözəl ətirlənib, özündən sonra bunların sünnət olmasını tövsiyə etmişdir.

Osman bin Məzunun xanımı Peyğəmbərin (s) hüzuruna gələrək: - ərim evə az gəlir, gecə namazı ilə məşğul olur, saçına, saqqalına diqqət etmir, - deyə şikayətləndikdə, bu ayə nazil oldu:

﴿لَا تُحَرِّمُوا طَيِّبَاتِ مَا اَحَلَّ اللّٰهُ لَكُمْ﴾

"Allahın sizə halal etdiyi tərtəmiz şeyləri haram etməyin".[151]

İnsan ailəsi və xanımı ilə gözəl keçinməli, məxsusən bir-birlərinə səslənərkən bir-birlərini aşağılayıcı və təhqiredici sözlərlə yox, gözəl, ədəblə və sayğı ifadə edərək səslənməlidirlər. Həzrət Fatimə, İmam Əliyə: "Əmimoğlu, Əbul Həsən" kimi gözəl sözlərlə xitab edirdi.

وسَعَةٌ بِتَقديرٍ

**2- Xərclərdə qənaətcil olmaq:** Yəni ailəsinin rifahını təmin etmək üçün hər cür israfdan uzaq olmaq.

Atalar uşaqlarına qarşı sərt olmamalı, məhdudiyyətlər həddi aşmamalıdır. Ailə arasında hücum və qısqanclıq olmamalıdır. Bəzən ailələr arasına basqı və məhdudiyyətlər sərhəddini aşaraq həyatı zəhər edəcək həddə çatdırır.

وغَيرَةٌ بِتَحَصُّنٍ

**3-Namusunu qorumağa düşgün olmaq:** Ailənin olmazsa olmazı namusdur. Kişilər və gənc oğlanlar arvadının, qızının və anasının hicab və örtüyünə qarşı həssas olmalıdır.

Təəssüf ki, cəmiyyətdə bu həssasiyyət yox olmağa başlayıb. Ata ailəsini zorla açıq geyinməyə məcbur edir. Günaha ortaq olmağın,

*151-Maidə, 87*

gözyumma və razı olmağın cəzası haqqında Peyğəmbərimiz (s) belə buyurmuşdur:

مَنْ اَطاعَ امْرَأَتَهُ اَكابَّهُ اللهُ على وَجْهِهِ فى النّار

"Kim yoldaşına itaət edərsə (əxlaqa zidd hərəkət etməsinə göz yumarsa) Allah onu oda atar".

Bəzən xanımlarımızın bunu al, onu al, qonaq gedək, ailə ziyarətlərinə gedək kimi istəkləri olur. Bu itaətdirmi?

Əshab soruşdu:

وَما تِلْكَ الطاعَةُ

"Atəşə aparan itaət hansıdır?" Rəsulullah (s) belə buyurdu:

تَطْلِبُ اِلَيهِ الذّهابَ الى الحَمّاماتِ والنّائحاتِوالعُرُساتِ الثّيابَ الِّقاقَ فَيُجِيبُها اَكابَّهُ اللهُ على وَجْهِهِ فى النّار

**"Qadın hamama getmək istəyər, incə və zərif paltarları ilə toya getmək istəyər, kişisi də buna icazə verər. Allah onu üzü üstə atəşə atar.**

Bu gün ata, ana, gənc oğlu, gənc qızı ilə bərabər necə dənizə gedə bilər? Qədimdəki qarışıq hamamlar misalı bu kimi addımlar özünü oda atmaqdır.

Tez-tez “uşaqlarımıza söz keçirə bilmirik”, – deyə şikayətlər eşidirik. Ailədə oğul və qızınızla dava etmək, bu konfliktin çözüm yolu deyil. Gəncləri çox qınamaq və üzərlərinə çox getmək onları daha da inadçı edər.

İmam Əli (ə) belə buyurur:

الافْراطُ فى المَلامَةِ يَشُبُّ نِيرانَ اللَّجاجه

"Aşırı qınama və nəsihət inad atəşini alovlandırır".[152]

Qızına və oğluna gözəl davranaraq tərbiyəni praktik olaraq təbliğ

---

*152-Biharul-Ənvar, c.72, s.212; Tüheful-uqul, s.82*

etməlisən. Evində halala, harama, İslam ədəbinə və əxlaqa diqqət edən ata ananı görən övladın onlardan təsirlənməməsi mümkün deyil. Ata və analar gənclərin səhvlərini onlara gözəl bir dillə, anlaya biləcəkləri üslubda söyləməlidirlər.

İmam Sadiq (ə) buyurur:

كُونُوا دُعَاةً لِلنَّاسِ بِغَيْرِ أَلْسِنَتِكُمْ لِيَرَوْا مِنْكُمُ الْوَرَعَ وَ الاِجْتِهَادَ وَ الصَّلَاةَ وَ الْخَيْرَ فَإِنَّ ذَلِكَ دَاعِيَةٌ

"İnsanları əməlinizlə dəvət edin. Sizdə  təqva, çaba, namaz, xeyir görsünlər. Bax əsl dəvətedicilər bunlardır".[153]

Uca Allah da Quranda belə buyurur:

﴿اَتَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ وَتَنْسَوْنَ اَنْفُسَكُمْ وَاَنْتُمْ تَتْلُونَ الْكِتَابَ اَفَلَا تَعْقِلُونَ﴾

**"Siz Kitabı (Tövratı) oxuyub durduğunuz halda, özünüzü unudub başlqalarına yaxşılığımı əmr edirsiniz? (etdiyiniz çirkinliyi) anlamırsınızmı?"[154]**

Peyğəmbərimizin (s) əməlini və gözəl əxlaqını görüb müsəlman olanların sayı, onun söhbətlərini və fəlsəfəsini dinləyənlərdən daha çox idi. Çünki Peyğəmbəri (s) doğru, əmin, güvənilən, ailəsinə bağlı, insanlara sayğılı, ədalətli olduğunu gördükdə aşiq olurdular. Peyğəmbərimizin (s) Məkkənin fəthində ona əziyyət edənlərin hamısını sahib olduğu o qədər gücə və qüdrətə rəğmən əfv etməsi hər kəsi təsirləndirirdi.

Gəncləri doğru yola yönəltmək üçün lazım olan şey onları yaxşı mənada təsirləndirəcək yolları tapmaq, onların anlayacağı dildə danışmaq və dua etməkdir.

## Quranda dörd ailədən söhbət açılıb

---

*153-Usuli- Kafi, c.2, s.78; Vəsailüş-Şiə, c.1, s.76; Biharul-ənvar, c.76, s.303*
*154-Bəqərə, 44*

Müqəddəs Quranda bəzi ailələrdən söhbət açılıb. Onlar:

**1-Əbu Ləhəbin bütün fərdləri ilə pis rəftar edən və pisliklə tanınan ailəsi:**

Əbu Ləhəbin ailəsi pis bir ailə idi; odun daşıyan arvadı və uşaqları Ütbə və Üteybə Peyğəmbərə həmişə əziyyət edirdilər.

Quran belə buyurur:

﴿تَبَّتْ يَدَا اَبِي لَهَبٍ وَتَبَّ﴾

**"Əbu Ləhəbin əlləri qurusun. Onsuz da qurudu".**[155]

Əbu Ləhəbin oğlu Ütbə Peyğəmbərimizə (s) çox əziyyət edirdi. Peyğəmbər ona belə dua etdi:

اللهُمَّ سَلِّطْ على كَلْباً مِنْ كِلابِكَ

**"Allahım,** (yırtıcı) **itlərindən birini ona musallat et!"**[156]

**2-Pis bir ərin olduğu ailə;** buna ən canlı nümunə Firounun arvadı həzrət Asiyadır. Firon zalım, allahlıq iddiasında olan azğın biriydi. Arvadı həzrət Asiyə isə Allahına təslim gerçək bir möminə idi.

﴿وَضَرَبَ اللهُ مَثَلاً لِلَّذِينَ اٰمَنُوا امْرَاَتَ فِرْعَوْنَ﴾

**"Allah, iman gətirənlərə isə, Fironun arvadını nümunə göstərdi".**[157]

**3-Atanın yaxşı, ana və uşağın pis olduğu ailə**; bunun ən canlı nümunəsi isə həzrət Nuhun arvadı və oğlu idi. Həzrət Nuh (ə) özü peyğəmbər olmasına baxmayaraq, xanımı və oğlu ona iman gətirməyərək həlak oldular.

---

*155-Məsəd, 1*
*156-Biharul-Ənvar, c.16, s.308; əl-Həraic, c.1, s.117*
*157-Təhrim, 11*

Quranda Allahın salam verdiyi öndər peyğəmbərlərdən biri də həzrət Nuhdur.

﴿سَلَامٌ عَلَى نُوحٍ فِي الْعَالَمِينَ﴾

**"Aləmlər içində Nuha salam olsun!"**[158]

O peyğəmbərlərin piri və şeyxi idi, amma Quran oğlu haqqında belə buyurur:

﴿قَالَ يَا نُوحُ اِنَّهُ لَيْسَ مِنْ اَهْلِكَ﴾

**"Allah: "Ey Nuh! O, əsla sənin ailəndən deyil''.**[159]

Xanımı haqqında isə belə buyurur:

﴿ضَرَبَ اللهُ مَثَلاً لِلَّذِينَ كَفَرُوا امْرَاَتَ نُوحٍ﴾

**"Allah, inkar edənlərə, Nuhun arvadını misal göstərdi".**[160]

**4.Bütünlükdə nümunəvi ailə;** burada ata, ana və uşaqlarının cəmiyyət üçün mükəmməl bir örnək olduğuna istinad edilir. Bu ailə İmam Əli (ə), həzrət Fatimə (s.ə), imam Həsən (ə), imam Hüseyn (ə), həzrət Zeynəb (s.ə) və həzrət Ümmü Gülsümdür. "İnsan" surəsi bu dəyərli ailənin fəziləti haqqında nazil olmuşdur.

---

*158-Saffat, 79*
*159-Hud, 46*
*160-Təhrim, 10*

# AİLƏ ÜZVLƏRİNİN MÜŞTƏRƏK VƏZİFƏLƏRİ

Bütün bunlarla yanaşı, ailə səmimiyyətinin və nizam-intizamın möhkəmlənməsində iki əsas vəzifəmiz var: müştərək vəzifə və xüsusi vəzifə.

## 1. Sevgi və məhəbbəti dilə gətirmək

İmam Sadiq (ə) bir gün səhabələri ilə oturmuşdu bu vaxt bir kişi yoldan keçirdi, səhabələrdən biri dedi:

"Ey peyğəmbər övladı! Mən bu adamı çox sevirəm". İmam buyurdu: "Qalx, get de ki, onu sevirsən. Bu, sevginin daimi qalması üçün yaxşıdır".[161]

Başqa bir hədisdə belə buyurur:

قولُ الرَّجُلِ لِلْمَرْأةِ إِنِّى أُحِبُّكِ لايَذْهَبُ مِنْ قَلْبِها أَبَداً

"Kişinin həyat yoldaşına dediyi bu söz: "Mən səni sevirəm", heç bir zaman qadının ürəyindən çıxmaz".[162]

Rəsulullah (s) imam Həsən və imam Hüseyni hər gördükdə öpər və bağrına basardı.

Bir gün Akra ibn Şər Təmimi Peyğəmbərə deyir: "Mənim on oğlum var. İndiyə kimi onların heç birini öpməmişəm". Həzrət Məhəmmədin (s) üzünün rəngi dəyişir və ona buyurur:

مَن لا يَرْحَمْلا يُرْحَمْ

*161 Mişkatul-Ənvar, s.332*
*162 Usuli- Kafi, c.5, s.569; Vəsailüş-şiə, c.20, s.23*

"Mehribanlıq göstərməyənə mehribanlıq göstərilməyəcək".[163]

Ailə üzvləri bir-birlərinə sevgi və məhəbbətlərini ifadə etməlidirlər.

Kişi arvadına, arvad da ərinə, onlar da uşaqlarına bir-birlərini sevdiklərini söyləməlidir. Bu, bütün ailə üzvlərinin ortaq vəzifəsidir.

## 2. Danışıq və davranış gözəl olmalıdır

Ailə daxilində müştərək vəzifələrdən ikincisi gözəl danışıq və davranışdır. Ailə üzvləri bir-biri ilə gözəl danışmalı və bir-birilərinə qarşı gözəl davranmalıdırlar. Təhqiredici, alçaldıcı, danlayıcı və istehzalı sözlərdən çəkinmək lazımdır.

Quran belə buyurur:

﴿وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ ۚ فَإِنْ كَرِهْتُمُوهُنَّ فَعَسَىٰ اَنْ تَكْرَهُوا شَيْئاً وَيَجْعَلَ اللَّهُ فِيهِ خَيْراً كَثِيراً﴾

**"Onlara əziyyət verməyin və onlarla yaxşı davranın! Ola bilsin ki, sizin xoşlanmadığınız bir şeydə Allah (sizin üçün) çoxlu xeyir nəzərdə tutmuşdur".[164]**

Qadının ərindən, ərinin də arvadından xoşu gəlməyə bilər, amma dərhal boşanmağı düşünməməlidirlər.

Peyğəmbərimiz (s) buyurur:

اَقْرَبُكُمْ مِنّى يَوْمَ القيامَةِ اَحْسَنِكُم خُلُقاً وَ أَلْطَفُكُم بِأَهْلِهِ

"Qiyamət günü mənə ən yaxın olanınız əxlaqı gözəl olan və ailəsinə ən şəfqətli olanınızdır".[165]

---

*163 Vəsailüş-şiə, c.21, s.485; Biharul-ənvar, c.43, s.314; Əl-Mənakib, c.3, s.384*
*164 Nisa,19*
*165 Vəsailüş-şiə, c.12, s.153; Biharul-ənvar, c.68, s.387; Uyuni- Əxbari'r-Riza, c.2, s.38*

Sonra belə əlavə edərək buyurdu: “Mən bu mövzuda sizin aranızda ən yaxşınızam”.

Həzrət Nuh (ə) kafir oğlu və arvadı ilə bir dam altında yaşayırdı. O, bir çarpayını və eyni stolu onlarla paylaşırdı.

Həzrət Asiyə ilahilik iddiasında olan Fironla bir yerdə yaşayırdı.

Peyğəmbərimiz (s) zövcələrinin bəziləri tərəfindən əziyyət və işgəncələrə məruz qalırdı. “Təhrim” surəsi bunun sübutudur.

Peyğəmbərimiz (s) o uca əzəməti ilə o qədər təvazökar idi ki, bəzən zövcəsinin yanında oturub “gəl, bir az danışaq”- deyərdi.

Günümüzdə isə həyat yoldaşları bir araya gələ bilmirlər, evə girən kimi təhqiramiz sözlər, ev mühitinə münasib olmayan söyüşlər hakim olur və yaxud hərəsi bir tərəfdə oturub internetdə vaxtlarını keçirirlər. Həyat yoldaşları arasında ciddi ünsiyyət çatışmazlığı və danışıq problemləri var. Bu da qəlblərin gündən-günə bir-birindən uzaqlaşmasına səbəb olur.

### 3. Qarşılıqlı yardım

İslamda fərdlərin bir-birinə qarşı müəyyən hüquq və vəzifələri vardır.

Söz gəlişi sizə deyirlər: “İnsanlara əl uzatma!” Əl açmaq insanın əsarətidir, amma biri də sənə əl açarsa, sən o uzanan əli boş çevirmə!" İmam Əli (ə) buyurur:

عَنْ عَلِيٍّ قَالَ دَخَلَ عَلَيْنَا رَسُولُ اللهِّ وَ فَاطِمَةُ جَالِسَةٌ عِنْدَ الْقِدْرِ وَ أَنَا أُنَقِّى الْعَدَسَ

“Bir gün Rəsuli-Əkrəm (s) bizim evimizə gəldi. Həzrət Zəhra qazanın yanında oturmuşdu, mən isə mərcimək təmizləyirdim.

قَالَ يَا أَبَا الْحَسَنِ قُلْتُ لَبَّيْكَ يَا رَسُولَ اللهِّ قَالَ اسْمَعْ مِنِّى وَ مَا أَقُولُ إِلَّا مَنْ أَمَرَ رَبِّى

Həzrət mənə buyurdu: Əlican, bu mətləbləri Allah tərəfindən sənə bəyan edirəm: “Hər kəs evdə həyat yoldaşına kömək etsə, Allah-taala onun bədənində olan hər tük qədər onun üçün bir illik ibadət yazar; gündüzlərini oruc tutub, gecələrini səhərə kimi ibadətlə məşğul olan bir il.

مَا مِنْ رَجُلٍ يُعِينُ امْرَأَتَهُ فِى بَيْتِهِ إِلَّا كَانَ لَهُ بِكُلِّ شَعْرَةٍ عَلَى بَدَنِهِ عِبَادَةُ سَنَةٍ صِيَامٍ نَهَارُهَا وَ قِيَامٍ لَيْلُهَا وَ أَعْطَاهُ اللّٰهُ تَعَالَى مِنَ الثَّوَابِ مِثْلَ مَا أَعْطَاهُ اللّٰهُ الصَّابِرِينَ وَ دَاوُدَ النَّبِىَّ وَ يَعْقُوبَ وَ عِيسَى

Həzrət Davud, Həzrət Yəqub və Həzrət İsa kimi peyğəmbərlərin savabını ona mərhəmət edər. Ey Əli, ürək yanğısı üzündən evdə öz ailəsinə kömək edən şəxsin adını Allah-taala şəhidlərin cərgəsində qərar verər.

يَا عَلِىُّ مَنْ كَانَ فِى خِدْمَةِ الْعِيَالِ فِى الْبَيْتِ وَ لَمْ يَأْنَفْ كَتَبَ اللّٰهُ تَعَالَى اسْمَهُ فِى دِيوَانِ الشُّهَدَاءِ وَ كَتَبَ اللّٰهُ لَهُ بِكُلِّ يَوْمٍ وَ لَيْلَةٍ ثَوَابَ أَلْفِ شَهِيدٍوَ كَتَبَ لَهُ بِكُلِّ قَدَمٍ ثَوَابَ حِجَّةٍ وَ عُمْرَةٍ وَ أَعْطَاهُ اللّٰهُ تَعَالَى بِكُلِّ عِرْقٍ فِى جَسَدِهِ مَدِينَةً فِى الْجَنَّةِ

Hər gecə-gündüz müqabilində min şəhidin əcrini yazar, bu yolda atdığı hər bir addıma həcc və ümrə ziyarətinin savabını verər, bu yolda axıdılan hər damla tər müqabilində onun üçün behiştdə bir şəhər tikilər. Ey Əli, əhli-əyala xidmət etməyin savabı min illik ibadətin savabından üstündür.

يَا عَلِىُّ سَاعَةٌ فِى خِدْمَةِ الْعِيَالِ خَيْرٌ مِنْ عِبَادَةِ أَلْفِ سَنَةٍ وَ أَلْفِ حَجٍّ وَ أَلْفِ عُمْرَةٍ وَ خَيْرٌ مِنْ عِتْقِ أَلْفِ رَقَبَةٍ وَ أَلْفِ غَزْوَةٍ وَ أَلْفِ عِيَادَةِ مَرِيضٍ وَ أَلْفِ جُمُعَةٍ وَ أَلْفِ جَنَازَةٍ وَ أَلْفِ جَائِعٍ يُشْبِعُهُمْ وَ أَلْفِ عَارٍ يَكْسُوهُمْوَ أَلْفِ فَرَسٍ يُوَجِّهُهَا فِى سَبِيلِ اللّٰهِ وَ خَيْرٌ لَهُ مِنْ أَلْفِ دِينَارٍ يَتَصَدَّقُ عَلَى الْمَسَاكِينِ وَ خَيْرٌ لَهُ مِنْ أَنْ يَقْرَأَ التَّوْرَاةَ وَ الْإِنْجِيلَ وَ الزَّبُورَ وَ الْفُرْقَانَ وَ مِنْ أَلْفِ أَسِيرٍ أَسَرَ فَأَعْتَقَهَا وَ خَيْرٌ لَهُ مِنْ أَلْفِ بَدَنَةٍ يُعْطِى لِلْمَسَاكِينِ وَ لَا يَخْرُجُ مِنَ الدُّنْيَا حَتَّى يَرَى مَكَانَهُ مِنَ الْجَنَّةِ

Həyat yoldaşına bir saat xidmət və hörmət etmək min ümrə və həccdən, min qul azad etməkdən və min cihadda iştirak etməkdən daha üstündür. Həmçinin, həyat yoldaşına kömək və xidmət etmək minlərlə xəstəyə baş çəkməkdən, cümə namazında iştirak etməkdən, cənazənin dəfn mərasimində iştirak etməkdən, acları-çılpaqları doyurmaqdan, daha artıqdır”.

Və bu, Tövrat, İncil, Zəbur və Quran oxumaqdan, min əsiri azad etməkdən, min dəvəni kasıba verməkdən yaxşıdır. Və dünyadan getməmişdən əvvəl cənnətdəki yerini görər”.

يَا عَلِيُّ مَنْ لَمْ يَأْنَفْ مِنْ خِدْمَةِ الْعِيَالِ دَخَلَ الْجَنَّةَ بِغَيْرِ حِسَابٍ

"Ya Əli! Kim öz həyat yoldaşının xidmətində olmaqdan yayınmazsa, sorğu-sualsız Cənnətə daxil olar".

يَا عَلِيُّ خِدْمَةُ الْعِيَالِ كَفَّارَةٌ لِلْكَبَائِرِ وَ يُطْفِئُ غَضَبَ الرَّبِّ وَ مُهُورُ حُورِ الْعِينِ وَ يَزِيدُ فِي الْحَسَنَاتِ وَ الدَّرَجَاتِ

"Ya Əli! Zövcəyə xidmət böyük günahların kəffarəsidir, Allahın qəzəbini söndürər, hurilərin mehridir, yaxşı əməlləri artırar və dərəcələri yüksəldər".

يَا عَلِيُّ لَا يَخْدُمُ الْعِيَالَ إِلَّا صِدِّيقٌ أَوْ شَهِيدٌ أَوْ رَجُلٌ يُرِيدُ اللهُ بِهِ خَيْرَ الدُّنْيَا وَ الْآخِرَة

"Ey Əli! Möminlərdən, şəhidlərdən Allahın dünya və axirət xeyirini istədiyi kimsələrdən başqa heç kəs öz zövcəsinə qulluq etməz".

Bütün peyğəmbərlər və imamlar öz evlərində ailələrinə kömək ediblər. Peyğəmbərimiz (s) buyurur:

"Evdə xanımı ilə oturub onu sevindirən şəxsin savabı məsciddə oturandan hec də az deyil".

Allah, ərinə qulluq edən qadına rəhmət gözü ilə baxar. (Bir halda ki,) "Allah şəhidlər, peyğəmbərlər və salehlərə rəhmət gözü ilə baxar".

İmam Sadiq (ə) buyurur:

مِنْ أَخْلاقِ الانبياء حُبُّ النِّساء

"Qadınları (arvadlarını) sevmək ənbiya əxlaqındandır".[166]

## 4. Çətinlik və sıxıntılara səbr etmək

Ailə üzvlərinin dördüncü müştərək vəzifəsi hadisələr qarşısında səbirli olmaqdır. Həyat enişli-yoxuşlu, acılı-şirinli, isti, soyuq, xoş və xoşagəlməz hadisələrlə doludur. Peyğəmbərlər də bu qanundan kənarda deyildilər.

Həzrət Əyyub (ə) xəstəlikləri ilə, həzrət Yəqub (ə) oğlunun həsrəti ilə, həzrət Lut (ə) həyat yoldaşı, həzrət Nuh oğlu və arvadı ilə sınaqdan keçmişdir. Təhrim surəsinin nazilolma səbəbinə nəzər salsaq, Peyğəmbərimizin də zövcələri tərəfindən əziyyətlərə məruz qaldığını görərik.

Həyatımız üç xoşagəlməzliklə qarşı-qarşıyadır:

### a) Maddi məhrumiyyətlər

Dünyanın zənginliyi və yoxsulluğu sünnətullahdır. Zənginlik və yoxsulluq dünya həyatında qaçılmaz bir həqiqətdir. Allah-taala

---

*166 Vəsailüş-şiə, c.20, s.22; Biharul-ənvar, c.100, s.236.*

bəzilərini yoxsulluqla, bəzilərini var-dövlətlə imtahan edər. Zəhra (s.ə) evlənəndə evlərinə qoyacaqları bir əşyası belə yox idi.

İmam Baqir (ə) buyurur: "İmam Əli buyurdu: "Mən Zəhra ilə evlənəndə evə sərgi olaraq qum tökürdük, bir qoyun dərimiz var idi. Gecələr onun üstündə yatıb, gündüzlər isə üstündə oturardıq".

Həzrət Zəhranın (s.ə) şəhadətindən sonra, İmam Əli (ə) Bəni Səd qəbiləsindən bir nəfərə belə dedi:

"Gəl sənə Zəhra ilə evliliyimizi danışım. Zəhranın əlləri evə su daşımaqdan, əl dəyirmanı çevirməkdən qabar bağlamışdı".

## b) Cismi xəstəliklər

Xəstəlik insan həyatında qaçılmaz bir faktdır.

Ayətullah Şeyx Mürtəzadan atası Ayətullah Şeyx Əbdülkərim Hairinin uğurunun sirri barədə soruşduqda, o, atasından belə nəql etdi: "Həyat yoldaşım Nəcəfdə iflic oldu, sonra onun gözləri görmə qabiliyyətini itirdi və ömrünün sonuna qədər ona xidmət etdim və o da mənə dua edirdi. Mən onun xəstəliyinə səbr etdim, Allah da bu uğuru mənə nəsib etdi".

Allah-taala Qurani-Kərimdə Peyğəmbərə (s) xitab edərək buyurur:

﴿فَاصْبِرْ كَمَا صَبَرَ أُوْلُوا الْعَزْمِ مِنَ الرُّسُلِ﴾

**Əzmkar (ülül-əzm) peyğəmbərlərin səbr etdiyi kimi, sən də səbr et!**[167]

## c) Pis əxlaq və vərdişlər

Əziz İslam Peyğəmbəri (s) belə buyurur:

---

*167 Əhqaf,35*

﴿مَنْ صَبَرَتْ على سُوْءِ خُلُقِ زَوْجِها أعْطاها اللهُ مِثْلَ ثَوابِ آسِيَة بِنْتِ مُزاحِمْ﴾

Ərinin pis rəftarları qarşısında səbr edən qadına Allah-taala Fironun xanımı Asiyanın savabı qədər savab verər.

Uca Allah, Asiyanı o qədər ucaltdı ki, onu bütün möminlərə nümunə göstərdi:

﴿وَضَرَبَ اللهُ مَثَلاً لِلَّذِينَ آمَنُوا امْرَأَتَ فِرْعَوْنَ﴾

**Allah iman gətirənlər üçün də Fironun zövcəsini misal çəkdi.** [168]

**İmam Sadiqin (ə) həyat yoldaşlarına məhəbbət haqqında nəsihəti**

İmam Sadiqin (ə) oğlu İsmayıl bir gün həyat yoldaşını incidir. Bu hadisədən bir neçə gün sonra İsmayıl xəstələnir, İsmayılın arvadı imamın hüzuruna gəlir və imam ona: "Oğlum İsmayılı bağışla" dedikdə, İsmayılın arvadı "Ağa, mən onu bağışlayıram" deyir. İmam ona hədiyyə verib evinə göndərir.

## İki cür əzab var

**1- Dünya əzabı:** Allah bu cəzanı sevdiyinə verir, həzrət Yunus kimi.

**2-Qiyamət əzabı:** Allaha inanmayanların cəzasıdır.

Hədislərdə buyurulur: "Mömin dünyada xəta etdiyi zaman, Allah onun cəzasını dünyada verəcəkdir".

## 5. İlahi razılığın əldə edilməsi

---

*168 Təhrim,11*

Peyğəmbərimiz Məkkədən Mədinəyə hicrət edəndə müsəlmanlar ya Mədinəyə getməli, ya da Məkkədə qalıb bütpərəstliyə qayıtmalı idilər. Bəzi müsəlmanların zövcələri Məkkədə qalıb bütpərəstliyə qayıtmaq istədikdə bu ayə nazil oldu:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّ مِنْ أَزْوَاجِكُمْ وَأَوْلَادِكُمْ عَدُوًّا لَكُمْ فَاحْذَرُوهُمْ

**“Ey iman gətirənlər! Zövcələrinizdən və övladlarınızdan sizə düşmən olanlar vardır. Buna görə də onlardan ehtiyat edin!”** [169]

Həyat yoldaşları bir-birlərinin zövqünü qazanmağa çalışmalıdırlar. Peyğəmbərimiz (s) bu barədə belə buyurur:

لا شَفيعَ لِلمَرْأةِ أَنْجَحُ عِنْدَ رَبِّها مِنْ رِضا زَوْجِها

“Qadın üçün ərinin razılığından daha böyük mükafat yoxdur”.[170]

## Əhli beytin təsdiqlədiyi həyat yoldaşı

İmam Əli (ə) yaxşı və saləhə qadının xüsusiyyətlərini belə sadalamışdır.

مَن أرادَ مِنْكُمُ التَّزْوِيجَ فَلْيُصَلِّ ركعتينِ، وَ لْيَقْرَأ بِفاتِحَةِ الكِتابِ و سُورَةِ يس، فَاذا فَرَغَ مِنَ الصّلاةِ، فَلْيَحْمَدِ اللهَ عز و جل وَ لْيُثْنِ عليه وَ لَيَقُلِ اَللّٰهُمَّ ارْزُقْني زَوْجَةً صالِحَةً، وَدُوداً شَكُوراً، قَنُوعاً غَيُوراً، اِنْ اَحْسَنْتُ شَكَرَتْ، وَ اِنْ أَسْأْتُ غَفَرَتْ، وَ اِنْ ذَكَرْتُ اللهَ تَعالى أَعانَتْ، وَ اِنْ نَسيتُ ذَكَّرَتْ، وَ اِنْ خَرَجْتُ مِنْ عِنْدِها حَفِظَتْ وَ اِنْ دَخَلْتُ عَلَيْها سَرَّتْني، وَ اِنْ أَمَرْتُها اَطاعَتْني

“Sizlərdən evlənmək istəyən iki rükət namaz qılsın, birinci və ikinci rükətlərdə “Fatihə” surəsindən sonra “Yasin” surəsini oxusun və namazdan sonra belə dua etsin: “Allahım! Mənə saleh, sevgi dolu, şükür edən, razı, iffətli, bəxş etdiyim zaman şükür edən, səhv etdiyim

---

*169 Təğabun,19*
*170 Vəsailüş-şiə, c.20, s.222; Biharul-ənvar, c.100, s.256; Əl-Xisal, c.2, s.588*

zaman bağışlayan, Allahı xatırlayanda mənə kömək edən, unutduğum zaman mənə xatırladan, ayrıldığım zaman iffətini və özünü qoruyan, şad olan bir zövcə bəxş et....”.[171]

İslam dini ictimai dindir tənhalığı və tək yaşamağı pisləyir.

Quran buyurur:

﴿وَلَا تَنسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا﴾

**Dünyadakı nəsibini də unutma!** [172]

Cəmiyyətlə düzgün ünsiyyət, ailənin səmimiyyət, sevgi və nizamda çox təsirlidir.

Peyğəmbərin (s) dövründə bir neçə dost bir araya gələrək cəmiyyətdən və ailələrindən uzaq durmağa və ibadətlə məşğul olmağa qərar verirlər.

Onlar özlərini evlərinə bağlayır, cəmiyyət və ailələri ilə əlaqəni kəsirlər. Gecələri ibadətlə, gündüzləri isə oruc tutmaqla keçirirlər. Bu xəbər Peyğəmbərə (s) çatdıqda, camaatı məscidə toplayıb dedi:

“Mən sizin peyğəmbəriniz olaraq insanlarla ünsiyyətdəyəm, həyat yoldaşım və ailəm var, gözəl yemək yeyirəm, kim onları tərk edərsə, mənim sünnətimi tərk etmişdir”.[173]

## İSLAMDA İCTİMAİ ƏLAQƏNİN ƏHƏMİYYƏTİ

İslam dini ictimai münasibətlərə böyük əhəmiyyət verir. Uşaqlar cəmiyyətlə münasibətlərini ilk öncə valideynlərindən öyrənirlər.

Uca Allah Quranda möminlərin sifətlərindən bəhs edərkən belə buyurur:

---

*171 Biharul-ənvar, c.100, s.268; əl-Nəvadiril Ravendi, s.48*
*172 Qəsas 77*
*173 Biharul-ənvar, c.67, s.116; Təfsir- Qummi, c.1, s.179*

﴿وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ﴾

**Onlara verdiyimiz ruzidən infaq edirlər**[174]

Quran yaxşı və təqvalı insandan bəhs edərkən, tövhid və Allaha imandan sonra belə buyurur:

﴿وَبِالْوَالِدَيْنِ إِحْسَانًا﴾

**Ata-anaya yaxşılıq edər!**[175]

Qiyamət günü insanlar Allaha asi olduqlarına və qohumları ilə əlaqəni kəsdiklərinə görə hesaba çəkiləcəklər.

﴿وَاتَّقُواْ اللّهَ الَّذِي تَسَاءلُونَ بِهِ وَالأَرْحَامَ﴾

**Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin!**[176]

Uca Allah cəmiyyətin üzvlərini qardaş hesab edərək buyurur:

﴿إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ﴾

**Şübhəsiz ki, möminlər qardaşdırlar.**[177]

Rəsulullah (s) Mədinəyə gəldiyi zaman ilk gördüyü işlərdən biri müsəlmanlar arasında qardaşlıq əlaqəsi yaratmaq olmuş və bu əlaqəni gücləndirərkən belə buyurmuşdu: "İki insanın dostluğu iki əlin bir-birini yuması məsəli kimidir".

Əgər əlin biri yağ və pas kimi çirkli bir şeyə dəysə, suyun altında tutsanız, təmiz əl: "Mənə nə, mənim işim deyil" deyərək etiraz etməz, əksinə, bir-birinə kömək edərək, birlikdə o kir və pası təmizləyərlər.

---

*174 Bəqərə,3*
*175 Nisa,36*
*176 Nisa,1*
*177 Hucurat,10*

İnsanlar bir-birinin xəta və eyiblərini bir-birlərinə kömək etməklə düzəltməlidirlər. Cəmiyyətdə, evdə mənəvi dəyərlər azaldıqca ünsiyyət da azalar.

Quranda Allah-taala öz Peyğəmbərinə (s) belə xitab edir:

﴿وَإِنَّكَ لَعَلَى خُلُقٍ عَظِيمٍ﴾

**Həqiqətən, sən uca bir əxlaq sahibisən.**[178]

İmam Sadiq (ə) buyurur: "Allah-taala Peyğəmbərə üç əmr verdi. Peyğəmbər (s) o üç əmri yerinə yetirdikdən sonra bu tərifi qazandı. Əmrlər belə idi:

﴿خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ﴾

Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz çevir![179]

Bu gün cəmiyyət və ailə üzvləri ilə xoşbəxt və dinc ünsiyyət quranlar aşağıdakı üç məqama diqqət yetirdiklərinə görə rifaha nail olmuşlar;

- **Səhv edənləri bağışlamaq**
- **İnsanları xeyirə və yaxşılığa dəvət etmək**
- **Cahillə mübahisəni tərk etmək**

Yaxşı cəmiyyətin olmazsa olmazlarından biri də gözəl davranışdır. Bizlər Allah, Peyğəmbər, imamlar və cəmiyyət qarşısında ədəbli olmağı öyrənməliyik.

إِنْ أُجِّلْتَ فِي عُمُرِكَ يَوْمَيْنِ فَاجْعَلْ أَحَدَهُمَا لِأَدَبِكَ لِتَسْتَعِينَ بِهِ عَلَى يَوْمِ مَوْتِكَ

---

*178 Qələm,4*
*179 Əraf,199*

İmam Sadiq (ə) buyurur: “Ömrünüzdən iki gün qalarsa, bir gününüzü gözəl əxlaq öyrənməyə həsr edin ki, ölüm anında sizə kömək olsun”.[180]

Valideynlərinə qarşı ədəb bilən övlad asi (üsyankar) ola bilərmi? “Valideynlərinə of belə demə” ayəsini görən və oxuyan övlad valideynlərinə hirslənə bilərmi?

Təəssüf ki, cəmiyyətimiz Quranı yaşamaqdan çox uzaqdır. Çoxumuz dini, şəriəti bilmirik. Quran bizə ünsiyyət və qarşılıqlı əlaqənin yolunu öyrədib. Quran cənnət əhlinin sifətlərini sadalayarkən belə buyurur:

﴿وَالَّذِينَ يَصِلُونَ مَا أَمَرَ اللهُ بِهِ أَن يُوصَلَ﴾

**Onlar Allahın birləşdirilməsini əmr etdiyini birləşdirər (qohumluq əlaqələrinə və ictimai vəzifələrə riayət edər), Rəbbindən çəkinər və pis (çətin) haqq-hesabdan qorxarlar.**[181]

Cənnət əhli, yaşadıqları cəmiyyətdə ətrafları, ata-ana, əmi, qonşu və digər şəxslərlə münasibətlərini Allahın əmr etdiyi kimi nizamlayırlar.

## Əxlaqlı olmağın yolu

Cəbrayil (ə) Peyğəmbərimizin (s) yanına gələrək buyurdu: “Allah sənə gözəl əxlaqlı olmağı əmr edir”.

Peyğəmbərimiz: "Gözəl əxlaqlı olmaq üçün nə etməliyəm?" deyə soruşduqda, Cəbrayil (ə) belə cavab verdi: "Ey Allahın Rəsulu! Uca Allah sənə üç şeyi əmr edir:

صِلْ مَنْ قَطَعَكَ

*180 Usuli- Kafi, c.8, s.150; Vəsailüş-şiə, c.19, s.197*
*181 Rəd,21*

## 1- "Səninlə əlaqəni kəsənlə sən əlaqə qur"

### İctimai əlaqə

Gözəl və xoş əxlaqlı olmağın birinci şərti insanlarla ünsiyyət qurmaqdır. Səninlə əlaqəni kəsənlərlə əlaqə saxla, sənə zülm edənləri bağışla, səndən malını əsirgəyənlərə sən əta et. Həyat yoldaşları bir-birindən inciyəndə, biri addım atıb onu danışdırarsa, küskünlük ailədən keçəcəkdir. Həyat yoldaşınız sizə salam verməsə belə, siz ona salam verin.

واعْفُ عَمَّنْ ظَلَمَكَ

## 2- "Sənə zülm edəni bağışla"

### Əfv və bağışlamaq

Gözəl əxlaqlı olmağın ikinci şərti ətrafdakıları əfv etmək və bağışlamaqdır. Yəni sənə zülm edənləri bağışla. Unudaraq səni toyuna çağırmayanın sən toyuna get, yaxınının yas mərasiminə gəlmədiyinə görə bağışla, sən onun yas məclisinə get. “10-15 il bundan əvvəl mənim xeyir işimə gəlmədi, mən də getməyəcəyəm” deyib, o kinküdurəti qəlbinizdə daşımayın.

Allahın bizi bağışlamasına nə qədər seviniriksə, əmin olaq ki, səhvlərini bağışladığımız insanlar da bir o qədər sevinirlər.

وَاعْطِ مَنْ حَرَمَكَ

## 3- "Səndən malını əsirgəyənə sən əsirgəmə"

### Pisliyə yaxşılıqla cavab vermək

Gözəl əxlaqlı olmağın üçüncü şərti sənə qarşı edilən yanlışlara, pisliklərə və xətalara yaxşılıqla cavab verməkdir.

Sizi məhrum edənləri məhrum etməyin. Sizi dəvət etməyənləri siz dəvət edin. İnsan bir az görməməzlikdən gəlməyi bacarmalıdır. Beləliklə, həyat daha dinc və yaşana biləcək hala gələr.

## GÖZLƏNTİ VƏ MÜDAXİLƏ

Bu gün ailədə yaranan problemlərin çoxu ər-arvadın bir-birindən yersiz və sərhədsiz gözləntisidir.

### Məsləhət və müdaxilə

Ailə üzvləri dərk etməlidirlər ki, evlilikdə məsləhətləşmək və başqasının işinə qarışmaq iki fərqli şeydir.

Ata - ana və qohumlar öz fikirlərini bildirə bilərlər, lakin işlərinə qarışıb, müdaxilə və təzyiq etməməlidirlər.

İmam Əli (ə), Zəhraya (s) elçi düşdükdə, həzrət Rəsulullah (s) həzrət Zəhra (s) ilə məşvərət edib son sözü onun ixtiyarına qoydu. Əvvəllər qızların taleyi atalarının əlində idi, ataları onları istədikləri şəxsə ərə verirdilər. Peyğəmbərimiz (s) isə 1400 il əvvəl qızı ilə məşvərət edirdi.

-Həzrət Peyğəmbər: Qızım, Əli ilə evlənmək istəyirsən?

-Həzrət Zəhra: Allah və Rəsulu bu evliliyə razıdırmı?

-Həzrət Peyğəmbər: Allah və Rəsulu bu evliliyə razıdı.

Beləliklə, Zəhra (s.ə) razılaşdı və nikah baş tutdu. Rəsulullah (s) yalnız həzrət Əlini (ə) yaxşı bəy kimi tövsiyə etdi, lakin qızının son qərarına qarışmadı.

Peyğəmbər, qızı Fatiməyə nəzarət edirdi. Qızının evlənməsindən bir neçə gün sonra Allah Rəsulu (s) onun evinə gedib İmam Əlidən (ə) soruşdu: Fatiməni necə həyat yoldaşı gördün?

نِعْمَ العَوْنُ على طاعَةِ اللهِ

O, “Allaha itaətdə nə gözəl köməkçidir” deyə cavab verdi.

Peyğəmbər, Fatimədən soruşduqda ki, qızım Əlini necə həyat yoldaşı kimi gördün? "Mükəmməl həyat yoldaşı" deyə cavab verdi. Peyğəmbərimiz onlara heç vaxt qarışmırdı, yalnız onlara nəzarət edir və yoxlayırdı.

## Ailə prioritetdir

Din ailəyə önəm vermiş və onu hər şeydən üstün tutmuşdur. Quran buyurur:

﴿ وَكَانَ يَأْمُرُ اَهْلَهُ بِالصَّلٰوةِ ﴾

**O, öz xalqına namaz qılmağı və zəkat verməyi əmr edirdi.** [182]

Həzrət İbrahim (ə) həyat yoldaşını və oğlunu Məkkə çöllərində qoyub gedəndə onları namaz qılanlardan olmaqları məqsədini güdürdü.

Peyğəmbərimizin zövcələrindən bəzilərinin həddən artıq tələbləri olurdu, bunun üçün də Rəsulullaha (s) təzyiq göstərirdilər. Biri evinə boya, biri pərdə, biri paltar istəyirdi.

يَا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْوَاجِكَ إِنْ كُنْتُنَّ تُرِدْنَ الْحَيَاةَ الدُّنْيَا وَزِينَتَهَا فَتَعَالَيْنَ أُمَتِّعْكُنَّ وَأُسَرِّحْكُنَّ سَرَاحًا جَمِيلًا

**Ey Peyğəmbər! Zövcələrinə de: "Əgər dünya həyatını və onun bər-bəzəyini (rifahını) istəyirsinizsə, gəlin sizə boşanma haqqınızı verim və gözəl bir şəkildə sizi boşayım".**[183]

---

*182 Məryəm,55*
*183 Əhzab, 28*

﴿وَاِنْ كُنْتُنَّ تُرِدْنَ اللهَ وَرَسُولَهُ وَالدَّارَ الْاٰخِرَةَ فَاِنَّ اللهَ اَعَدَّ لِلْمُحْسِنَاتِ مِنْكُنَّ اَجْراً عَظِيماً﴾

**Əgər Allahı, Rəsulunu və axirət yurdunu istəyirsinizsə, bilin ki, Allah sizdən yaxşı işlər görənlər üçün böyük bir mükafat hazırlamışdır.**[184]

Həyat yoldaşları məntiqli və maddi imkanlarına uyğun olaraq tələblər irəli sürməlidir.

Salman Farsi deyir: "Peyğəmbər (s) mənə yeddi şey öyrətdi, onları heç vaxt unutmuram. Onlardan biri budur:

اَوْصَانِى خَلِيْلِى رسول الله بِسَبْعِ بِخِصَالٍ وَ اَنْ اَنْظُرَ مَنْ هُوَ دُوْنِى ولاَ اَنْظُرَ اِلَى مَنْ هُوَ فَوْقِى

Rəsulullah (s) mənə vəsiyyət etdi ki, dünya işlərində məndən aşağı olanlara baxım, özümdən yuxarılara baxmayım".

Yəni 80 $m^2$ eviniz varsa, 100 $m^2$ evə baxmayın, evi olmayanlara baxın, ürəyiniz rahat olsun. Salman Farsi vali idi, heç nəyi yox idi, kasıblarla oturub-durardı və belə deyərdi: "Kasıb yoxsulla oturar".

İnsan axirət işlərində özündən yuxarılara baxmalıdır. Gecə namazı qılan və Quranın hafizinə baxıb: "Kaş mən də onun kimi olaydım!" deməli və işə başlamalıdır.

## Sevgi və məhəbbət

İnsanın gördüyü hər işi bir məqsədə bağlıdır. İnsanlar müəyyən məqsəd və hədəflərə uyğun hərəkət edirlər. Hədislərimizə əsaslanıb desək, hədəfsiz və məqsədsiz insan yaysız kamana bənzəyir. Məktəbə getmək, işləmək, evlənmək və s. hamısının müəyyən məqsədi var.

Quran buyurur:

﴿وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي

---

*184 Əhzab,29*

﴿ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ﴾

**Ünsiyyət edəsiniz deyə sizin üçün özünüzdən (öz cinsinizdən) zövcələr xəlq edib aranızda sevgi və mərhəmət yaratması da Onun (varlığının) dəlillərindəndir. Şübhəsiz ki, bunda düşünənlər üçün ibrətlər vardır.**[185]

Bu ayə eyni zamanda bir möcüzədən xəbər verir. Bir-birinin xasiyyətindən, əxlaqından, bəzən adət-ənənəsindən xəbərsiz iki yad adamın bir evi paylaşmasının sirrini danışır.

Evdə sevgi və məhəbbətin qaynağı fərdlərin bir-birinə sevgi və məhəbbət göstərmələridir.

İmam Əli (ə) insanların qəlbini ələ almağın yolunu bizə belə öyrədir:

قال عليه السلام: قُلُوبُ الرِّجَالِ وَحْشِيَّةٌ فَمَنْ تَأَلَّفَهَا أَقْبَلَتْ عَلَيْهِ

İnsanların qəlbləri ürkəkdir (bir-birləri ilə tanış deyildirlər). Buna görə də kim (yoldaşlıq, yaxşılıq və dostluq ilə) onları ələ alsa, ona üz tutarlar. [186]

Hər ürək, rahatlıq və xoşbəxtlik axtarışındadır. Bu axtarışda hüzurlu, xoşbəxt və sevgi dolu bir ürək tapanda ona aşiq olur və ona meyl edir. İnsanların qəlbini fəth etməyin ən asan və rahat yolu onlara səmimiyyət və dürüstlüklə sevgi və məhəbbət göstərməkdir. Dünyamızda qəbul edilən yeganə əsarət sevgi və məhəbbət əsarətidir. Bu əsarət eyni zamanda azadlıq və qürur olaraq görülür. Eşqə, məhəbbətə və gözəlliyə meyl etmək, çirkinliyə və şiddətə nifrət etmək qəlbə xas özəlliklərdir.

İmam Əli buyurur: "İnsanlara sevgi və məhəbbət göstərən şəxs ən sevimli şəxsdir".

---

*185 Rum,21*
*186 Nəhcül-Bəlağə, Hikmət, 50*

Uca Allah belə buyurur:

﴿إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَنُ وُدًّا﴾

**Şübhəsiz, Rəhman (olan Allah) iman gətirib yaxşı işlər görənlərin qəlblərində bir-birinə qarşı sevgi yaradacaqdır.**[187]

Ata, analar və evdə gəncləri olanlar sevgi və məhəbbət silahından yaxşı istifadə etməlidirlər. Heç düşünmüsünüzmü, ailəsini, isti mühitini qoyub küçələrə, bazarlara, sığınacaqlara sığınan gənclərimiz niyə belə edirlər? Evində, ocağında axtardığı sevgi, səmimiyyəti, məhəbbət və hərarəti tapa bilməyən bir ürək, o boşluğu doldurmaq üçün özünü çölə atır və bunu orada tapan kimi onun əsiri olur. Ailəsindən eşitmək, görmək istədiyi sevgi, məhəbbət, gözəl sözləri kənardan eşidəndə isə dərhal təslim olur. Bu əsarətlə o, anasını, atasını, sevdiklərini rahatlıqla tərk edib gedə bilər. Sevgi və məhəbbət elə sehrli açardır ki, hətta heyvanları da öz təsiri altına ala bilər.

## Sevgi və xəyanət

Sevgi, eşq və məhəbbət İslamın əxlaqi meyarlarından biridir.

Eşq çox qiymətlidir. Bu eşq istər həqiqi, istərsə də məcazi olsun, əvəzsiz dəyərə malikdir, çünki o, kamillik vasitəsidir.

---

*187 Məryəm,96*

## İnsan sevgisinin üç səbəbi

İnsanın rəftar və əməlləri onun özünə olan sevgi və məhəbbətindən qaynaqlanır. Əxlaq alimləri sevgi və məhəbbətin üç şeydən qaynaqlandığını deyirlər:

**1. Ləzzət:** Ləzzət maddi və mənəvi olaraq ikiyə bölünür. Cismi ləzzət; yemək, içmək, gözəl sifətə baxmaq və s. ləzzətlərdir. Mənəvi ləzzət; elm, mərifət və ibadət kimi ləzzətlərdir.

**2. Mənfəət:** İnsanların ehtiyaclarını ödəməyə, qazanmağa, qazanc əldə etməyə çalışması təbiidir. Bu yollar sevgi və məhəbbətdir.

**3. Harmoniya:** Sevgi və məhəbbət harmoniya yaradır. Bu harmoniya insanlar arasında bədəndən, ruhdan və mənəviyyatdan gəlir. İnsanlar arasında fikir, düşüncə, arzu, istək və əməllərin oxşarlığı mühüm təsirlərdəndir.

Ariflərdən biri deyir: "Rəhman Allahın yaratdığında sevgi və eşqin beş dərəcəsi vardır;

**1. Fitri eşq**

Bu eşq haqda hədisdə belə nəql olunur:

فَإِنّ اللهّ سُبحَانَه ينزِلُ العَبدَ مِنهُ حَيثُ أنزَلَهُ مِن نَفسِهِ

"Allah yanında qulun dərəcəsi, bəndə yanında Allahın məqamı qədərdir".

**2. Enən eşq**

Valideynlərin övladlarına olan sevgisi kimi. Yaxşılardan aşağı düşür.

**3. Yüksələn eşq**

Uşaqların valideynlərinə olan sevgisi və məhəbbəti.

**4. Üfüqi eşq**

Ər-arvad və bacı-qardaşlar arasındakı eşq.

**5. Adi eşq**

İnsanlar arasında ümumi olan sevgi və eşqdir".

Eşq və məhəbbətin bu beş dərəcəsinin ən üstünü fitri eşqdir. Bu sevgi insanlarla Allah arasındakı əlaqədir. Əgər insan məhbub arxasınca gedirsə, bu onun fitrətidir.

İmam Cavadın (ə) buyurduğu üç məqama diqqət yetirməliyik:

1. İnsaf
2. Dərd ortağı olmaq
3. Mənəviyyata yönəlmə

Sevgi və məhəbbətin ən yaxşı əlaməti əfv və bağışlamaqdır.

İmam Sadiq (ə) buyurur:

اِنّا اَهْلَ بَيْت، مُرُوَّتُنا الْعَفْوُ عَمَّن ظَلَمَنا

“Biz elə bir xanədanıq ki, mərdliyimiz bizə zülm edənləri bağışlamaqdır”.[188]

İmam Hüseyn (ə) buyurur: “Hər kim məni sağ qulağımda təhqir edib, sol qulağımda üzr istəsə, onu bağışlayaram”.

Əmirəlmöminin imam Əli (ə) mənə Rəsulullahdan (s) belə nəql etdi:

"İnsanların üzrünü qəbul etməyən kəs Kövsər hovuzunun yanında hüzuruma gələ bilməyəcək. Bəhanəsi olsa da, olmasa da".

**Əmanətə xəyanət**

Xəyanət, yəni sözünü tutmamaq əhdi pozmaqdır. Xəyanət insanın insanlığının, şəxsiyyətinin mənfi nişanəsidir. Heç kim fitrətən xain

*188 Biharul-ənvar, c.74, s.104*

doğulmur. Xəyanət zamanla təkrarlanaraq vərdişə çevrilir. Xəyanət böyük günahlardandır və bu günahla insan İslamı tərk etdiyi kimi insanlığı da tərk edir. Peyğəmbərimizdən (s) belə nəql edilmişdir:

مَنْ خَانَ أَمَانَةً فِي الدُّنْيَا وَ لَمْ يَرُدَّهَا إِلَى أَهْلِهَا ثُمَّ أَدْرَكَهُ الْمَوْتُ ، مَاتَ عَلَى غَيْرِ مِلَّتِي ، وَ يَلْقَى اللهَ وَ هُوَ عَلَيْهِ غَضْبَانُ

Hər kim əmanətə xəyanət etsə, onu öz sahibinə qaytarmasa və bu vəziyyətdə ölsə, mənim ümmətimdən sayılmaz və qiyamətdə Allah ona qəzəb edər.[189]

*189 Şeyx Səduq, Mən lə yəhzəruhul fəqih, c.4, s.15*

# QADIN KİŞİ DOSTLUĞU CAİZDİRMİ?

İnsanoğlunun tarix boyu qazandığı təcrübələri, bilgiləri, kəşf və icadları başqalarına çatdıra bilməsi üçün həmcinsləri və qarşı cinslə irtibat halında olması qaçınılmazdır.

Qadınların da cəmiyyət içində yer almaları və ictimai fəaliyyətlərlə məşğul olmaları üçün kişilərlə dialoqu dünyanın, həyatın başqa bir çətinliyidir və bundan başqa yol da yoxdur.

Bir tərəfdən təcrübə və bilgilərin çatdırılması, digər tərəfdən ictimai həyatın problemsiz olaraq davam etməsini nəzərə alanda, insanları dünya və axirət səadətinə çağıran İslamın bu mövzuda təklif etdiyi sistem və idealogiya inanclı olan hər kəs üçün maraq mövzusudur. Görəsən İslam dini qadın kişi münasibətləri haqqında necə sərhədlər müəyyən edir, bu mövzuda nə qədər qabağa gedib, nə qədər geri çəkilməliyik? İş yerində, məktəbdə, evdə, bazarda, küçədə və hətta virtual dünyada sərhədlərimiz nələrdir? Virtual və real qadın-kişi dostluğu mümkündürmü? Qurani-Kərim bu mövzularda bizlərə nə deyir? Peyğəmbərimiz (s) və Əhli-beyt (ə) nələr söyləyib, nələri əmr edib, nələri qadağan, nələri tövsiyə etmişdir?

Mövzu ailə səadəti və hüzurunu çox yaxından əlaqələndirir. Bu gün yanlış münasibətlər, dialoqlar ucbatından bir çox ailələr dağılmışdır. Ən başda qeyd etdiyimiz səbəbləri nəzərə alanda inanc mövzusunda həssas olan bizlər bu iki sualın cavabını mütləq axtarmalıyıq:

1. Quran və Əhli-beytə görə naməhrəm kişi və qadınların bir-birləriylə danışmaqları, görüşmələri və yazışmaları caizdirmi?

2. Naməhrəmlər bir-birləriylə istədikləri zaman, istədikləri mövzuda danışa bilərlərmi?

Qurani-Kərimə nəzər saldıqda görürük:

### a) Məsumların naməhrəmlə dialoqları

#### 1. Həzrət Zəkəriyyənin Məryəmlə dialoqu

Qurana görə həzrət Zəkəriyyə (ə) Allah tərəfindən həzrət Məryəmin dolanışığını təmin etmək üçün vəzifələndirilmişdi və bu müddət ərzində onunla dialoq halında idi:

﴿وَكَفَّلَهَا زَكَرِيَّا ۖ كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِنْدَهَا رِزْقًا ۖ قَالَ يَا مَرْيَمُ أَنَّىٰ لَكِ هَٰذَا ۖ قَالَتْ هُوَ مِنْ عِنْدِ اللَّهِ ۖ إِنَّ اللَّهَ يَرْزُقُ مَنْ يَشَاءُ بِغَيْرِ حِسَابٍ﴾

**Onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyəyə tapşırdı. Zəkəriyyə hər dəfə məbədə girəndə, onun yanında bir ruzi görürdü və: "Ey Məryəm, bu sənə haradan oldu?" - deyirdi. O da: "Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah dilədiyi kimsəyə saysız-hesabsız ruzi verir!" - deyirdi.** [190]

## 2. Həzrət Süleymanın Səba məlikəsi Belqislə (Bilqeys) dialoqu

Quranda Həzrət Süleymanın (ə) Belqislə dialoqu belədir:

﴿قِيلَ لَهَا ادْخُلِي الصَّرْحَ ۖ فَلَمَّا رَأَتْهُ حَسِبَتْهُ لُجَّةً وَكَشَفَتْ عَنْ سَاقَيْهَا ۚ قَالَ إِنَّهُ صَرْحٌ مُمَرَّدٌ مِنْ قَوَارِيرَ ۗ قَالَتْ رَبِّ إِنِّي ظَلَمْتُ نَفْسِي وَأَسْلَمْتُ مَعَ سُلَيْمَانَ لِلَّهِ رَبِّ الْعَالَمِينَ﴾

**Ona: "Saraya daxil ol!" - deyildi. Oranı görən zaman onu dərin bir su gölməçəsi zənn etdi və ətəyini qaldırdı. (Süleyman) dedi: "Bu, büllurdan düzəldilmiş bir döşəmədir". (Bəlqis:) "Ey Rəbbim! Həqiqətən, mən özümə zülm etmişəm. Süleymanla birlikdə aləmlərin Rəbbi olan Allaha təslim oldum!" - dedi.**[191]

## 3. Həzrət Musanın (ə) həzrət Şüeybin (ə) qızları ilə dialoqu

**Mədyənin su quyusuna çatanda orada heyvanlarını sulayan bir dəstə adam gördü. Onlardan başqa heyvanlarının suya getməsinə mane olan iki qız da görüb onlara dedi: "Sizin dərdiniz nədir?" Onlar: "Çobanlar gedənə qədər heyvanlarımıza su vermirik. Atamız da çox**

*190 Ali-İmran,37*
*191 Nəml,44*

**yaşlıdır", - dedilər. Musa onların heyvanlarını suladı, sonra da kölgəyə çəkilib belə dedi: "Ey Rəbbim! Sənin mənə bəxş etdiyin hər xeyrə möhtacam". O iki qızdan biri utana-utana onun yanına gəlib dedi: "Atam heyvanlarımızı suladığına görə haqqını vermək üçün səni çağırır". Musa onun (Şüeyb peyğəmbərin) yanına gəldiyi zaman başına gələnləri ona danışdı. O da: "Qorxma! Sən zalım qövmdən xilas olmusan", - dedi.**[192]

Bu üç nümünədə də göründüyü kimi tərəflərdən biri və ya ikisi məsumlardan ibarətdir. Yəni əməl, hərəkət və davranışları biz adi insanlar üçün nümunə kimi əhəmiyyətlidir. Digər tərəfdən Allah-taala bu dialoqları öz müqəddəs kitabında yenə birbaşa Özü nəql edir. Əgər öz-özlüyündə qadınlarla dialoq nöqsanlı olsaydı şübhəsiz nə həzrət Zəkəriyyə, nə həzrət Məryəm, nə həzrət Süleyman, nə də həzrət Musa kimi məsum şəxslər belə bir dialoqa girərdi, nə də yeganə yaradıcı uca Allah öz müqəddəs kitabında bu dialoqları nəsillərə ötürərdi. Dolayısı ilə bu nümunəvi ayələrdən yola çıxaraq deyə bilərik: Əgər hər hansı pis niyyət yoxdursa, qadınlarla dialoq öz-özlüyündə günah deyil. Çünki bu dialoqlar nə fərqli ayələrdə, nə də Əhli-beytdən gələn rəvayətlərin heç birində qınanılmayıb, üzərində ən kiçik bir tənqid də olmayıb. Bu da öz-özlüyündə bu kimi dialoqların haram olmadığının bir başqa sübutudur.

### b) Məsum olmayanların naməhrəmlərlə dialoqları

#### 1. Həzrət Musanın (ə) bacısının Fironun adamlarıyla dialoqu

Fironun ailəsi kiçik bir uşağı (həzrət Musa) Nil çayının sahilində tapır, ona baxıb böyütmək üçün saraya gətirirlər. Ancaq həzrət Musa heç bir qadının südünü qəbul etmir. Bu hadisə saraydan kənara yayılır. Həzrət Musanın bacısı saraya gedir və onlara bir təklif edir: "**Necə ki,**

---

*192 Qəsəs,23-25*

**bacın gedib - sizə onu yetişdirəcək birini tapmağımı istəyirsinizmi?" demişdi..."**[193]

Məsum olmayan bir şəxsin mövqeyi, davranışı və ya sözləri şübhəsiz ki, bizlər üçün ölçü deyildir. Ancaq bu dialoqun sahibi həzrət Musanın bacısıdır və Quranda Allah tərəfindən və Əhli-beytdən gələn rəvayətlərdə buna dair hər hansı bir qınama və nəqd nəql edilməyib. Bunun üçün də bu dialoq haram deyildir. Bunun haram olduğunu müdafiə etmək, İslam mövqeyindən çıxmaq deməkdir.

## 2. Xalqın həzrət Məryəmlə dialoqu

Qurani-Kərim Həzrət Məryəmin dialoqunu belə anladır:

**"Nəhayət, o, körpəni götürüb öz qövmünə gətirdi. Onlar dedilər: "Ey Məryəm, həqiqətən, sən böyük bir qəbahət işləmisən! Ey Harunun bacısı! Sənin atan pis adam deyildi, anan da iffətsiz deyildi". O zaman Məryəm ona (qucağındakı körpəyə) işarə etdi. Onlar: "Biz beşikdəki bir körpə ilə necə danışaq?" - dedilər.**[194]

Göründüyü kimi həzrət Məryəm ona pis baxış formalaşmasına rəğmən cəsarətlə qucağındakı uşağı ilə birlikdə insan axınının arasına qarışıb, işarə ilə də olsa onlarla dialoq qurmuşdur.

Burada bəziləri: "Həzrət Məryəm insanların arasına getmiş olsa da danışmayıb"- deyə etiraz edə bilərlər.

Ancaq bu etiraz doğru deyil. Çünki həzrət Məryəmin "danışmamaq orucu"nda olduğunu hamımız bilirik. Qısa olaraq bu səssizlik həzrət Məryəmin eyni anda Allahın iki əmrini yerinə yetirməyindən qaynaqlanırdı: səssizlik orucunu pozma və uşağınla birlikdə xalqın arasına daxil ol.

Birdə ki, özünü danışaraq müdafiə etməsi, möcüzədən daha təsirli olmazdı. Şübhəsiz "uşağın dilə gəlməsi", bütün söhbətlərdən daha

---

*193 Taha,40*
*194 Məryəm, 27-29*

qane edici bir situasiya yaradardı, elə də oldu. İnsanlar yeni doğulmuş uşağın danışmağa başlayıb özü, anası və gələcəyi haqqında açıqlamalar etdiyini görüb təəccübləndilər və bütün qınaq və şikayətləri saxlayıb həzrət Məryəmin (ə) məsumiyyətinə iman gətirdilər.

# PEYĞƏMBƏRİMİZİN (S) SÜNNƏTİNDƏ QADIN VƏ KİŞİ DİALOQU

Rəvayətlərə baxanda, yuxarıdakı məsələ haqqında iki fərqli baxışla rastlaşırıq:

1. Qadın kişi dialoquna icazə verən rəvayətlər.
2. Qadın kişi dialoqunu şiddətlə rədd edən rəvayətlər.

## Qadın kişi dialoquna icazə verən rəvayətlər

İlk öncə bunu bildirək ki, hədis və tarix kitablarında Peyğəmbərimizdən (s) həm də məsum imamlardan hədis və rəvayət nəql edən bir çox qadın ravilər vardır. Böyük İslam alimləri bu qadın ravilərin nəqllərindən yola çıxaraq saysız kitablar yazıb, fətvalar verib və elmi bəhslər ediblər. Tarix, əxlaq, fiqh, və başqa sahələrdə yazılmış bir çox əsər vardır. Bütün bunlar Peyəmbərimizin (s) və məsum imamların qadınlarla, qadınların da onlarla dialoq halında olduğunu göstərən dəlillərdir.

İndi isə gəlin bu dialoqlardan nümunələr təqdim edək:

### 1. Qadınların Peyğəmbərimizlə (s) dialoqu

a) Əbu Süfyanın arvadı Hind, bir gün Peyğəmbərimizin (s) yanına gələrək, "Ya Rəsulallah!" Ərim çox simicdi, evdə pul qoymur. Mən də evimi və uşaqları idarə etmək üçün onun cibindən gizlicə pul götürürəm. Görəsən bu davranışımla hər hansı bir günah işlətmiş olurammı?- dedi. Bunun üzərinə Peyğəmbər (s) buyurdu: "Özün və uşaqların üçün lazım olan qədər götürə bilərsən" .[195]

---

*195- Məhəmməd ibn Əli əl-İhsai, İbn Əbu Cumhur, "Avali əl-Ləali", c.1, s.402, Qum, 1403; Məhəmməd ibn İdris Şafei, Müsnəd, s.266, Beyrut, Daru'l-Kutubel-Elmiye; Əhməd ibn Hanbel, Müsned, c.6, s.39, Beyrut, Darus-Sadır; Abdullah ibn Behram ed-Daremi, Süneni Daremi, c.2, s.159, Dımeşk, Matbaatul-İtidal; Məhəmməd ibn İsmail Buxari, Səhih Buxari, c.3, s.36 və c.6, s.193 və c.8, s.116, Beyrut, Darul-Fikr, 1401; Səhih-Müslim, c.2, s.769, Beyrut, Darul-Fikr; İbn əl-Əşəs ibn Ishaq ibn Bəşir əl-Əzdi əs-Sicistəni, Sünəni-Əbu Davud, c.2, s.150, Beyrut, Darul-Fikr, 1410; Əhməd ibn Hüseyin Beyhəqi, Sünən əl-Kubra, c.7, s.477 və c.10, s.141 və 270, Beyrut, Darul-Fikr.*

b) İmam Əli (ə) belə buyurur:

Rəsuli Əkrəm (s) cihad haqqında söhbət edirdi. Qəflətən bir qadın "Ey Allahın Rəsulu! Bu əməldən qadınlara da düşən bir pay yoxdurmu?- deyə soruşdu. Peyğəmbər (s) buyurdu: Necə yəni yoxdur? Qadınlara hamiləliyin başlanğıcından doğuma, doğum sonrası və uşağını süddən kəsənə qədər olan zaman kəsiyində, İslam torpaqlarını qorumaq üçün Allah yolunda keşiş çəkən əsgərlərin savabı yazılır!"[196]

b) Zeynəb adında ətir satan bir qadın vardı. Bəzən Peyğəmbərin (s) evinə gedər xanımlarına və uşaqlarına ətir satardı. Bir gün Peyğəmbər (s) evə gələndə onu ətir satarkən gördü. Ona çevrilərək, "Malını gözəl sat və olmaya hiyləyə baş vurasan. Bu, Allahdan qorxanlar üçün gözəl bir yoldur və qazancı da daha bərəkətli edər- dedi. Zeynəb, "Ya Rəsulallah (s) mən bura ətir satmaq üçün gəlməmişdim",- deyə cavab verdi. –Allahın əzəməti haqqında sual soruşmaq üçün gəlmişdim. Peyğəmbərimiz (s) də bu mövzuda ona məlumat verməyə başladı..."[197]

Peyğəmbərin (s) qadınlarla dialoqu haqqında çoxlu rəvayət var, biz bu qədəri ilə kifayələnirik.

## 2. Salman Farsinin həzrət Fatimə (s) ilə dialoqu

a) İbni Abbas deyir: "Bir gün həzrət Fatimə, Salmana bir köynək verərək – Bunu al, Yəhidi Şəmuna götür və ona de ki: Məhəmmədin (s) qızı Fatimə, bu köynəyinin qarşılığında səndən üç kilo xurma, üç kilo arpa borc istəyir".[198]

---

*196-Şeyx Səduq, Mən lə yəhzəruhul fəqih, c.3, s.56, Seyyid Həsən Xorasani təhqiqi, 6. çap, Beyrut, 1405.*

*197-Muhəmməd ibn Yəqub Kuleyni, Furu-u Kafi, c.5, s.151 ve c.8, s.153,Tehran, Darul-Kutubel-İslamiye, 1350; Şeyx Səduq, Mən lə yəhzəruhul fəqih, c.3, s.272; Şeyx Səduq, ət-Tövhid, s.272, Qum, Camiatul-Müderrisin, h.q.1387; Məhəmməd Baqir, Məclisi, Biharul-Ənvar, Beyrut, c.22, s.134, Müəssisətül-Vəfa, 1403.*

*198-M.Baqir Məclisi, Biharul-ənvar, c.42, s.72.*

b) Salman belə nəql edir: "Həzrət Fatimə (ə) bir əl dəyirmanının kənarında oturub arpa üyüdürdü. Əli qan içində qalmışdı. Həzrət Hüseyn də o zamanlar hələ balaca uşaqdı, acından ağlayırdı. Həzrət Fatiməyə dedim: "Ey Peyğəmbər qızı, Fizzə yanınızda ola-ola niyə siz iş görürsünüz? Ondan kömək ala bilərsiniz. – "Atamın vəsiyyətidir, ev işlərini bir gün mən, bir gün Fizzə görür, dünən onun sırasıydı (bu gün də mənim sıram)"-dedi. "Mən sizin azad edilmiş kölənizəm, sizə qulluq üçün buradayam. İstəyirsinizsə un işini mən həll edim, siz Hüseynlə maraqlanın. Yaxud tərsinə, mən Hüseynlə maraqlanım, siz unu üyüdün!"- dedim.

Həzrət Fatimə "Hüseynlə maraqlanmaq işi mənə uyğundur, sən unu üyüd"- dedi.[199]

### 3. Qadınların imam Əli (ə) ilə dialoqu

a) Hamilə bir qadın imam Əlinin (ə) yanına gəlib, "Nə olar məni təmizlə, mən zina etdim. Dünya əzabı, sonu gəlməyən axirət əzabından daha asan olar"-dedi.

İmam Əli (ə) hansı şeylə səni təmizləyim?"- dedi.[200]

b) İmam Baqir (ə) buyurur:

"İmam Əli (ə) kürəyində qalxan, əlində qılıncla Kufə məscidinin önündə oturarkən bir qadın gələrək ərindən şikayət etdi. İmam, onu dinlədikdən sonra ərinin lehinə hökm verdikdə qadın qəzəbləndi…"[201]

### Qadın kişi dialoqunu qadağan edən rəvayətlər

Həmçinin yuxarıda gətirdiyimiz rəvayətlərlə ziddiyyət təşkil edən,

---

*199-Məhəmməd ibn Cərir ət-Təbəri, Delailul-Eimme, s.140, Qum, Besət Müəssisəsi, 1413; Qutbuddin Ravəndi, "Movsum be xərac və cəraeh", c.2, s.530, Qum, İmam Mehdi Müəssisəsi.*

*200-Əhməd ibn Məhəmməd ibn Halidel-Berki, əl-Mahasin, c.2, s.309, Darul-Kutubel-İslamiyə; Məhəmməd ibn Yəqub Kuleyni, əvvəlki mənbə, c.7, s.186; Şeyx Tusi, Təhzibul-Əhkam, s.9, h.10, Darul-Kutubel-İslamiyə, 1365.*

*201-Məhəmməd ibn Həsən Saffar, Besairud-Derecat, s.376, Tehran, Alemi Müəssisəi, 1404.*

naməhrəm olan kişi-qadın dialoqunu qadağan edən rəvayətlər də var. Onlara nəzər saldıqda dörd hissəyə bölündüyünü görürük:

### 1. Qadınla dialoqu mütləq formada qadağan edən rəvayətlər

a) Bəzi rəvayətlərdə Peyğəmbərimizin (s) kişilərə naməhrəm qadınlarla danışmağı qadağan etdiyi bildirilib.[202]

b) İmam Əli (ə) buyurub: "Qadınlarla danışmaq insanı çətinliyə sövq edir, ürəyi sapdırır."[203]

c) Yenə imam Əli (ə) buyurub: "Hər insanın bu üç şeydən qaçması lazımdır: Pislərə yaxınlaşmaq (onlarla həmhal olmaq), qadınlarla danışmaq və bidət əhli ilə oturub durmaq."[204]

d) Rəvayətlərdə var ki, imam Əli (ə) də Peyğəmbərimiz (ə) kimi kişiləri qadınlarla danışmaqdan uzaq tutmağı tövsiyə edərdi. [205]

e) Yenə imam Əli (ə) buyurmuşdur ki: "Qadınlarla danışmağı azalt ucalığın kamala qovuşsun".[206]

f) İmam Cəfər Sadiq (ə) buyurub : "Qadınlarla danışmaq şeytanın tələlərindən biridir".[207]

Yuxarıda bildirilən rəvayətlərdə "Muhadəsətun-Nisa" və ya "Hadisun-Nisa" terminləri istifadə edilib. Bu da bəhsi keçən mövzularda "Naməhrəm qadınla danışmaq" mənasını verir. Nümunə kimi yalnız bunlarla kifayətlənsək də qadınla danışmağı, ünsiyyətdə

---

*202-Qazi Numan Məğribi, Deaimul-İslam, c.2, s.214, Darul-Maarif, h.q.1383; Məhəmməd Həsən Hürr-Amuli, Vəsailüş-şiə, c.20, s.19, Alulbeyt Müəssisəsi təhqiq, Qum, 1409.*

*203- Hüseyn ibni Şöbə əl-Hərani, Tuhəfül-üqul, s.15, Əli Əkbər Ğəffari təhqiqi, çap, Qum, Neşri İslami Müəssisəsi, 1363, Məhəmməd Baqir, Məclisi, Biharul-Ənvar, c.74, s.291, əvvəlki mənbə.*

*204- ibni Şöbə əl-Bəhrani, əvvəlki mənbə, s.319; Məhəmməd Baqir, Məclisi, Biharul-Ənvar, əvvəlki mənbə, c.75, s.232*

*205-Mirzə Hüseyin Nuri Təbərsi, Müstədrəkül-Vəsail və Müstənbitül-Mesail, c.14, s.272, Beyrut, 2. çap, Alulbeyt Müəssisəsi,*

*206-Əli ibn Muhəmməd Leysiəl-Vasiti, Uyunul-Hikem vel-Mevaiz, s.202, Hüseyin Haseni Bir cendi təhqiqi, Qum, Darul-Hədis, 1376.*

*207-M. Hüseyin Nuri Təbərsi, əvvəlki mənbə, c.14, s.272*

olmağı, onlarla oturub durmağı, zarafatlaşmağı və s bir çox davranışı qadağan edən saysız-hesabsız rəvayət mövcuddur.

## 2.Qadınlarla salamlaşmağı qadağan edən rəvayətlər

İmam Cəfər Sadiq (ə) buyurub: "Qadınlara salam verməyin!"[208]

İndi mövzunun daha yaxşı başa düşülməsi və zehinlərdə yaranan sualları cavablandırmaq üçün bir açıqlama edək: Yuxarıdakı rəvayətlərdə ortaq nöqtə, səbəbkarın kişi olması və onlardan qadınlara salam veməmələrinin istənilməsidir. Burada bəzi mövzuları açmağımız və incələməyimiz lazımdır:

a) Birinci mövzuda qeyd olunan rəvayətlərin qaynaqlarına baxdıqda, görürük ki, bəzilərində "Muhadəsətun-nisa" (qadınlarla danışmaq) yerinə "Münakişatun-nisa" (qadınlarla münaqişə etmək) qavramları istifadə edilib. Bəzi əl yazılarında da "münaqişə" ifadəsi qeyd olunur. Yəni məsumların (ə) qadağan etdiyi hal təbii olaraq qadınlarla danışmaq yox, onlarla mübahisəyə və münaqişəyə girməkdir.

b) Əgər qəsd edilən hal sadəcə qadınlarla danışmamaq olsaydı, bu vəziyyətdə kişilər anaları və xanımları kimi məhrəmləri ilə də danışmamalıdırlar. Heç şübhəsiz məsumların (ə) "Analarınız daxil heç kimlə danışmayın" – deməsi də mümkün deyil.

Bu açıqlamalardan sonra birinci hissədəki rəvayətlərdə məsumların (ə) bizə nə demək istədiyini anlayırıq: qadınlarla lazımsız yerə danışmayın, xalqın və İslamın nəzərində adi, məcbur və ehtiyac sayıla biləcək hallar xaricində onlarla başqa mövzulara (haram ola biləcək) girməyin.

c) İmam Sadiqin (ə) "Qadınlara salam verməyin" cümləsinə qarşılıq olan fərqli rəvayətlərdə Peyğəmbərimizin (s) və imam Əlinin (ə)

*208- Kuleyni, əvvəlki mənbə, c.5, s.535*

qadınlarla salamlaşdığını bildirən rəvayərlər də mövcuddur.[209] Bu da onu göstərir ki, naməhrəmlə salamlaşmaq, öz-özlüyündə günah və ya haram deyildir. Bu məqsədinə, niyyətinə, yerinə və zamanına görə dəyişir.

Əgər məsumlardan (ə) biri hər hansı bir şey nəql edib, digəri fərqli bir şey edibsə, bu vəziyyətdə müctəhidlərimizin izlədiyi yol, normalda budur: (Rəvayətlərin səhihliyi əldə edildikdən sonra) zahirdə mübahisəli görünən bu hallarda məsələnin fərz yaxud qadağalı bir məsələ olmadığına hökm edilir. Yəni salamlaşma halında olduğu kimi bunu bir tövsiyə kimi dəyərləndirirlər.

Əldə edilən və nəticə çıxarmalı olduğumuz tövsiyə budur:

Hər qarşılaşdığınız qadınla salamlaşmayın. Tanışlar, qohumlar, qonşular kimi ürfdə-adətdə adi qarşılanacaq salamlaşmalardan önə keçməyin. Əks halda, təsirlənmələr ola bilər, xəstə qəlblər bundan yararlana bilər.

Necə ki, İmam Əli (ə) bir qadına salam verdikdə cavabını eşitmək istəməz, "Onun səsinin üzərimdə təsir buraxmasını istəmirəm. Bu təsirin məndən alacağı şey, salamla ələ keçirəcəyim savabdan daha çox ola bilər"- buyurdu.[210]

Bu halda imam Cəfər Sadiqin (ə) "Qadınlara salam verməyin!" cümləsini bir tövsiyə və xəbərdarlıq olduğunu anlayırıq. Bu kimi vəziyyətlərə düşməməyimiz üçün harama şərait hazırlayacaq, bünövrə yaradacaq niyyətlərdən uzaq durmalıyıq. Əgər imam Əli (ə) kimi böyük bir şəxsiyyət belə bir vəziyyətdən qorxur və çəkinirsə, bizim kimi zəif şəxslərin daha diqqətli olmaları vacib deyilmi?

Yenə bir başqa rəvayətdə "Qadınlarla danışarkən salamlaşmaqda önə keçməyə çalışmayın!" - buyurulur. Bu hədisdən də anlaşıldığı kimi öz-özlüyündə qadınlarla danışmaq və ya salamlaşmaq günah və qadağan deyil. Yəni hədis, həyatın ehtiyacı olan danışmağa, salam-

---

*209-Kuleyni, əvvəlki mənbə, c.5, s.535*
*210- Kuleyni, əvvəlki mənbə, c.3, s.535*

laşmağa sadəcə həssaslıqla ehtiyat edilsin deyə xəbərdarlıq edir.

Çünki salamlaşma öz-özlüyündə günah olmamaqla birlikdə günaha ortam hazırlayacaq bir vəziyyət yarada bilər və dolayısı ilə yerinə, zamanına, necəliyinə və kiminlə edildiyinə bağlıdır.

Bütün bu ayələr və rəvayətləri nəzərə aldıqda bu nəticələr çıxır:

1. Öz-özlüyündə naməhrəmlə danışmaq haram deyildir. Buna görə heç bir müctəhid "naməhrəmlə danışma" haqqında fətva verməyib. Amma bütün bunlar, gözəl söhbətlərə, hər söhbətin edilməsinə, hər ortama girilməsinə də icazə verməz. Əksinə çətin, istisna vəziyyətlər əsas mövzuya çevrilməsin deyə hər hansı bir ümumiləşdirmə edilməyib. Necə ki, insanların öz həmcinsləri ilə söhbət etmələri öz-özlüyündə halaldır. Ancaq qeybət mövzusuna gəldiyində istər həmcinslə söhbət edilsin, istər qarşı cinslə, necə günah və haram sayılırsa, qarşı tərəflə söhbət kənar mövzulara aparacağı təqdirdə eyni cür haram və günah ola bilər. Yəni bu cür rəvayətlər bizə bunları anladır.

2. İnsanlar günlük həyatlarında müxtəlif ovqatlada olurlar. Bəzən xoşbəxt, bəzən qəmli, bəzən yorğun, bəzən zarafatçıl, bəzən aşırı gərgin, bəzən səssiz, bəzən təkəbbürlü, bəzən təvazökar...

Yaxın, tanıdığımız və alışdığımız çevrələrdə adi davranan bizlər bəzən naməhrəm qarşısında necə davranacağımızı, necə danışacağımızı bilmirik. Ona görə fərqli bir şəxsiyyətlə: olduqca ləyaqətli, simpatik, rəğbətli, mehriban və elit bir şəxsiyyətə sahib halda qarşılarına çıxırıq.

Sizcə, bizi bu dəyişikliyə vadar edən səbəb nədir? Niyə həmişəki Əhməd yenə eyni Əhməd olmur? Niyə həmişəki Nuridə yenə eyni Nuridə olmur?

Çünki qarşı cinslə dialoqda olduğumuzun fərqindəyik və bu bizdəki "qarşı cins" ön bilgisinin bir növ təzahürüdür. Burada etməli olduğumuz əməl sadəcə adi davranmaqdır. Yəni yaxınlarımızla necə danışırıqsa, onlarla da elə danışmalıyıq.

Kişilər qadınlarla, qadınlar da kişilərlə dialoq qurduqda, adi hallarını pozmamalı və səs tonlarına da diqqət etməlidirlər.

Necə ki Əhzab surəsinin 32-ci ayəsində buna işarə edilir:

**"Ey Peyğəmbərin qadınları! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər Allaha qarşı gəlməkdən çəkinirsinizsə (kişilərlə danışarkən) sözü yumşaq bir əda ilə söyləyin ki, qəlbində xəstəlik (pis niyət) olan kimsə ümidə qapılmasın. Ürfə uyğun olanı söyləyin".**

Bu cavabla nöqtəsini qoyaq: Belə olduğu halda; görəsən evdə, işdə, məktəbdə, hətta virtual mühitdə qadınlarla uzun-uzadı söhbət etmək, nəsə danışmaq, onları güldürməyə çalışmaq, zarafatlaşmaq, saatlarca yazışmaq, gecə gec saatlara qədər elm, irfan və əxlaq söhbətlərinə dalmaq hansı kateqoriyaya aiddir?

Bu sualın cavabı əslində indiyə qədər yazılanların içində gizlidir. Amma yenə də bir açıqlama gətirək: köhnə nəsil alimlərdən bəziləri qadınların naməhrəmlə beş kəlmədən artıq danışmasına haram fətvası veriblər.[211]

Əhli-beytin (ə) rəvayətlərdə qeyd olunan "Qadınlarla danışmayın, az danışın, salam verməyin, onları süfrənizə dəvət etməyin" formasındakı onlarca xəbərdarlıq "siz sıradan qadınlar kimi deyilsiniz,- deyildikdə əslində əmr sadəcə "Peyğəmbərin xanımlarına ünvanlanmayıb. Bunu ikinci cümlədən anlayırıq. Çünki orada "Əgər Allaha qarşı gəlməkdən çəkinirsinizsə" şərti var. Allaha qarşı gəlmək hansı möminə üçün normal bir darvanış ola bilər ki? Həmçinin qəlbində xəstəlik olanların yol açacağı təhlükə" sadəcə Peyğəmbər xanımları üçün deyil, bütün qadınlar üçün təhlükədir.

Ürfə uyğun olan isə (maruf) yuxarıda da anlatdığımız kimi hamının bildiyi, təkidlə bizdən istənilən ədəbli, ölçülü, soyuqqanlı, tərbiyəli davranış və sözdür. Həm qadınlar, həm də kişilər bu hala diqqət etməlidirlər.

---

*211-Şeyx Səduq, Mən lə yəhzəruhul fəqih, c.4, s.6; həmin yazar, Əmali, s.510.*

İslam dini qadınlar üçün kişilərə qarşı "təkəbbürlü olmağı" gözəl bir davranış kimi qəbul edir. Çünki bu onları naməhrəmlərdən qoruyan ən sağlam qalalardan biridir.

Qadın qarşı cinslə dialoqda rəftarında, sözlərində təvazökarlıq və təslimiyyətə yer verməməlidir. Bu, naməhrəmi cəsarətləndirən, fərqli düşünməsinə səbəb olan ən önəmli ünsürdür.

3. Lazımsız dialoqdan qaçmalıyıq. Alış-verişdə, həkimdə, təhsil ocağında, iş mühitində, qısaca harda olursa olsun, naməhrəmlə dialoqda məqbul olan zərurətlə kifayətlənmək, daha çox dialoq qurmamaqdır. Çünki uzun dialoq şübhəsiz səmimiyyəti də özüylə gətirir və bu naməhrəmləri fəsada aparan bəlaların başında gələn bir amildir.

Hətta həzrət Fatimədən (ə) rəvayət edilən "Qadınlar üçün ən gözəl sifət onların naməhrəm kişiləri görməmələri, naməhrəm kişilərin də onları görməməsidir"-hədisi də bir tövsiyə kimi əhəmiyyətlidir. Çünki məsumlar (ə) da daxil yer üzündə elə bir ictimai qadın yoxdur ki, hər hansı bir naməhrəmi görməsin və ya bir naməhrəm də onu görməsin.

Burada izah olunan əməl qadının mümkün dərəcədə özünü naməhrəmlərdən gizləməyə çalışması, məcbur olmadıqca aralarına qarışmaması, ehtiyacı olmadan dialoqa girməməsi və ağırlığını qorumasıdır.

Qədim alimlərin "5 kəlmə" xəbərdarlığı da bu minvaldadır. Müasir alimlər, "Bu cür fətvalar mövzunun ciddiyyətinin anlaşılması və məcbur olmadıqca naməhrəmlə danışılmaması üçün edilən vurğu məqsədli fətvalardır" - deyirlər. Çünki söhbəti beş kəlmə ilə məhdudlaşdıran hədis və rəvayət olmadığı kimi günümüzün yaşam şərtlərində bu heç mümkün də deyil.

## Zarafatlaşma mövzusuna gəldikdə...

Bu mövzuda Əhli-beytdən nəql edilən qınaq dolu rəvayətlər çoxdur. Nümunə kimi Peyğəmbərimiz (s) ömrünün son günlərində qadınlara və kişilərə xitab etdiyi bir söhbətində belə buyurmuşdur:

"Kim naməhrəm bir qadınla zarafat edərsə, danışdığı hər kəlmə üçün Allah onu min ay atəşə həbs edər".[212]

"Hansı qadın (naməhrəm) kişiyə uyub onunla günah etməsinə vəsilə olarsa, yaxud buna şərait yaradarsa, yaxud onunla zarafatlaşarsa Allah kişilərə verəcəyi cəzanın eynisini ona da verər".[213] (yuxarıda qeyd edilən cəza)

İmam Sadiqin (ə) tələbələrindən Əbu Bəsir deyir ki: "Bir qadına Quran dərsi verirdim. Bir ara onunla zarafatlaşdım. Bir müddət sonra İmam Sadiqin (ə) yanına getdim. Məni görəndə "Ey Əbu Bəsir! O qadına nə dedin?"- deyə soruşdu. Üzüm qızardı. Utandığımdan başımı aşağı əydim. İmam Sadiq "bir daha bu işi etmə", -buyurdu.

Şübhəsiz ki, zarafat və əyləncə məqsədli edilir, ya da nəticədə mövzu ora qədər gedir. Bunun müqabilində isə qadın və kişi arasındakı utanc divarı xəsarət görür. Şiddəti artdıqca da bu divar tamamilə yıxılır və günah üçün şərait yaranır. Bütün zarafat və lətifələri eyni ölçüdə görməsək də, nəticədə naməhrəmlə zarafatın hər növündən qaçmaq təqvaya ən yaxın olandır. Bu həm şəxsin özü həm də cəmiyyət üçün faydalı bir davranış olacaqdır.

İşə, bazara, həkimə, məktəbə bunun fərqində olaraq gedib, dialoqlarımızda qırmızı xətləri keçməmək üçün diqqətli olmalıyıq. Dərs almaq, elm öyrənmək, əxlaqlı söhbətlərdə iştirak etmək və s. üçün də olsa, bunları bəhanə edərək divarları yıxmamaq həm dünya, həm də axirət səadəti üçün ediləbiləcək ən məntiqli davranışdır.

Adi zəlzələlərdən qorxan bizlər, axirətdəki sarsıntılarda əməllərimizdəki ixlasdan başqa nədən və haradan tutuna bilərik ki?

SON!

---

*212-Şeyx Səduq, Sevabul-Amal, s.280, Qum, Menşurati Razi, 2. çap, h q.1368.*
*213- Şeyx Səduq, Sevabul-Amal, s.284, Qum, Menşurati Razi, 2. çap, h q. 1368.*